www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 fevral 2015-ci il Bazar ertəsi № 29 (6057) Qiyməti 40 qəpik

**Xəbər**

## İki qardaş avtoqəzada öldü

yazısı səh.14-də

**Gündəm**

### Yeni səfirin gəlişi öncəsi ABŞ-dan Bakıya orijinal sürpriz



İki gün sonra cənab Sekuta öz missiyasına başlayacaq; eyni vaxtda isə Konqresdə ölkəmizdə insan haqlarına dair dinləmələr nəzərdə tutulub...

yazısı səh.8-də

### Kənd Təsərrüfatı Nazirliyində subsidiya araşdırması başlayır

yazısı səh.4-də

### İpoteka və kredit ödəyicilərinə şad xəbər

yazısı səh.3-də

### Hökumətin "kəmərsıxma" siyasəti "paket maaş" alanları da vurdu

yazısı səh.6-də

*Ekspert:*

### "Ukraynadakı proseslər birbaşa Qərb-Rusiya savaşıdır..."

yazısı səh.3-də

### Bu dəfə mandatsız qalacaq deputatlar...

yazısı səh.6-də

### "Çay evləri" müştəri cəlb etmək üçün azyaşlı qızlardan istifadə edir - əməkdaşımızın qeydləri...

yazısı səh.14-də

*Dərbəndli tədqiqatçı:*

### "Yetim kimi qalmışıq, Azərbaycanın itirilmiş bir hissəsiyik..."

yazısı səh.12-də

### Göyçayın icra başçısı müəllimlərə küçə süpürtdürür

yazısı səh.4-də

### 24 aprel tədbirləri dünya liderlərini seçim qarşısında qoyub

yazısı səh.3-də

*Hərbi ekspert:*

### "Qarabağ məsələsində son sözü Azərbaycan əsgəri deyəcək..."

yazısı səh.11-də

## İlham Əliyev: "Mənim Ermənistana mesajım budur..."

# AZƏRBAYCAN PREZİDENTİNDƏN SAVAŞ BƏYANATI - "...ERMƏNİ ÖLDÜRÜLMƏK İSTƏMİRSƏ..."

"Erməni əsgər Ağdamda nə axtarır, əgər o öldürülmək istəmirsə, qoy Ağdama getməsin..." deyən ölkə başçısı Münhendə bir daha işğalçının torpaqlarımızdan çıxmasını tələb elədi; prezidentin Qarabağ bəyanatına qazilər, müxalifət və siyasi ekspertlərdən ilginc reaksiyalar gəldi...




yazısı səh.9-da

## Lamiyə Quliyevanın dəhşətli hekayəsi anasının dili ilə - Aslan Aslanov nələr etmiş, nələr...

*Kifayət Quliyeva dəhşətli gerçəkləri dilə gətirib prezidentdən kömək istədi:* "Bundan sonra danışacam..."

yazısı səh.5-də



### "Tofiq bəy 54 - Avropa köməyin olsun!"

yazısı səh.4-də



*Asim Mollazadə:*

### "Ağ Ev Azərbaycanın Rusiyaya üz tutacağından narahat deyil"

yazısı səh.7-də



*Əlibala Əsgərov:*

### "Azərbaycana gələndə bizi dəmir barmaqlıqlar qarşılayır"

yazısı səh.13-də

## Lamiyə Quliyevanın məhkəməsinin vaxtı bilindi



**Fevralın 13-də Bakı Apelyasiya Məhkəməsində hakim Qədim Babayevin sədrliyi ilə məhkum Lamiyə Quliyevanın işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. 12:30-da təyin olunan iclas açıq elan olunub.**

Bu haqda "Yeni Müsavat"a L.Quliyevanın vəkili Fəxrəddin Mehdiyev məlumat verib. Vəkil müvəkkilinin Bakı İstintaq Təcridxanasına köçürüldüyünü açıqlayıb.

Yada salaq ki, Baş Prokurorluq məhkum Lamiyə Quliyevanın 2010-cü ildə Cinayət Məcəlləsinin 317.2-ci maddəsi ilə olan hökmünün ağırlığına görə apelyasiya protesti və müddətin bərpa olunması üçün vəsatət verib. Fevralın 3-də verilən vəsatətə 1 gün sonra 4 saylı Cəzaçəkmə Müəssisəsində Xətai Rayon Məhkəməsinin hakimi Habil Məmmədovun sədrliyi ilə baxılıb. Dövlət ittihamçısı qismində Eldar Balakişiyev çıxış edib. Müddətin bərpa olunması ilə bağlı vəsatət təmin edilib, protestə baxılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilməsi barədə qərar qəbul edilib. Prosesdə Lamiyə Quliyevanın müdafiəçisi Fəxrəddin Mehdiyev, həmçinin Lamiyə Quliyeva özü iştirak edib.

❑ E.MƏMMƏDƏLİYEV

## "İŞİD hərbi gücünün 20 faizin itirib"

### İordaniyalı general "hədəfimizə çatdıq" deyir



**"Al Arabiya News"a açıqlamasında İordaniya Hava Gücləri mərkəzinin komandanı, general Mənsur əl-Cbour deyib ki, sentyabrdan indiyə kimi "İslam Dövləti" öz hərbi gücünün 20 faizini itirib. Qeyd olunur ki, məhz sentyabr ayında ABŞ-ın rəhbərliyi ilə Birləşmiş Alyans İŞİD-ə qarşı hava zərbələri endirməyə başlayıb. Bu bəyanatı iordaniyalı general bazar günü keçirilən mətbuat konfransında səsləndirib.**

General onu da deyib ki, Birləşmiş Alyans hava zərbələri endirməklə İŞİD-ın 7 min nəfər döyüşçüsünü məhv edib. İordaniya qırıcıları isə son 3 gündə İraq və Suriyada İŞİD mövqelərinə 56 dəfə hava zərbəsi endirib: "Biz nəzərdə tutduğumuz hədəflərə çatdıq. İŞİD-ın yükdaşıma məntəqələrini sıradan çıxardıq. Silah anbarlarını göyə sovurduq. İŞİD döyüşçülərinin gizləndiyi istehkamları dağıtdıq" - general iddia edib.

"Al Arabiya News" xatırladır ki, İordaniya öz mərhum pilotu Muəs Əl-Kasabehinin İŞİD tərəfindən yandırılmaqla öldürülməsindən sonra intiqam alacağına and içmişdi. O da qeyd olunur ki, İordaniyanın İŞİD-ə endirdiyi hava zərbələrinə Birləşmiş Ərəb Əmirliyi də dəstək verir.

❑ Elbəyi HƏSƏNLİ

## Lənkəran Mərkəzi Xəstəxanasının əbədi problemi

**Lənkəran Rayon Mərkəzi Xəstəxanası 1920-ci ildə inşa edilib. Lakin sonradan bir neçə dəfə əsaslı şəkildə təmir olunan xəstəxananın həyətində vətəndaşlar üçün ilk baxışda xırda görünə bilən bir məsələ - ayaqyolu nəzərdə tutmaq nədənsə unudulub. İnsanların öz təbii ehtiyaclarını ödəmək üçün yaxın ünvana baş çəkmək imkanı da yox dərəcəsindədir.**

Musavat.com cenubnews.com-a istinadən bildirir ki, xəstəxana daxilində ayaqyolu olsa da, bundan vətəndaşlar istifadə edə bilmirlər. Yalnız tibb personalına və onların yaxınlarına belə "xoşbəxtlik" nəsib ola bilər - o da icazə ilə.

Belədə şikayətçilər haqlı sual edirlər ki, görəsən xəstəxanaya gələn uşaqlı-böyüklü insanlar və ya xəstələr nə etməlidirlər? Hansı əsrdə yaşayırıq? Az qala 100 ildi vətəndaşlara ciddi problem yaradan bu qüsuru aradan qaldırmaq xəstəxananın hazırkı rəhbərliyinə çoxmu çətindir?

❑ Musavat.com

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Başqan müavininin işi məhkəməyə göndərilib

### Yadigar Sadıqov 1 aya qədər tibb müəssisəsində müalicə olunacaq; İlqar Məmmədov ailəsi ilə görüşüb...

**Son günlərdə havaların kəskin dəyişməsi siyasi motivlərə görə həbsdə olan məhbuslarımızın səhhətlərinin yenidən gündəmə gəlməsinə səbəb olub. Belə k, Müsavat başqanının həbsdəki müavini Yadigar Sadıqov səhhətinin pisləşməsi ilə əlaqədar Penitensiar Xidmətin tibb müəssisəsinə yerləşdirilib.**



Onun 1 aya yaxın orada qalacağı ehtimalı var. Bu barədə musavat.com-a Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah məlumat verdi: "İki gün əvvəl Yadigar bəylə tibb müəssisəsində görüşdüm. Müalicəsi davam edir. Diaqnoz ondan ibarətdir ki, onun ürəyində damar blokadası deyilən problem yaranıb. Bundan müalicə olunacaq. Diaqnozun son nəticəsi hələ məlum deyil. Müayinə və müalicə davam edir".

Bu arada məhbusların bəzilərinin artıq istintaq dövrləri yekunlaşıb, işlər məhkəməyə göndərilib. Məhkəmə prosesi davam edən məhbuslarda var. Müsavat başqanının həbsdəki digər müavini Fərəc Kərimlinin bu ayın ortalarında məhkəməsi başlayacaq. Onun işi artıq məhkəməyə göndərilib. Fərəc Kərimli ilə eyni ittiham üzrə həbs edilən qardaşı Sirac Kərimlinin isə, fevralın 12-də növbəti məhkəmə prosesi keçiriləcək. Qardaşların vəkili Nemət Kərimli proses barədə bunları dedi: "Ayın 12-də prokuror ittiham aktını elan edəcək. Sonra təqsirləndirilən şəxs, hal şahidləri ifadə verəcək. Prosesə uyğun olaraq, vəsatətlərimizi təqdim edəcəyik. Çox güman ki, fevralın ikinci on günlüyündə ilkin məhkəmə hazırlıq iclası keçiriləcək".

Fevralın 10-da hüquq müdafiəçisi Rəsul Cəfərovun növbəti məhkəməsi olacaq. Onun hüquqi nümayəndəsi Günay İsmayılova proses barədə danışdı: "Bu prosesdə vəsatət verilməyəcək. Sübutların tədqiqi başlayır. Zərərçəkmişlər və şahidlər dindiriləcək. Rəsul Cəfərov hələ ki proses barədə danışmır. Məhkəmə təzə başlayıb. Gedişatda hər şey məlum olacaq".

Fevralın 8-də REAL hərəkatının sədri İlqar Məmmədov ailəsi ilə görüşüb. REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədovadan görüş barədə fikirləri aldıq: "Əhval-ruhiyyəsi yerindədir. Son proseslər barədə soruşdu. Ölkədəki ümumi durumla yaxından maraqlanır. Məhkəməsi ilə bağlı bir xəbər yoxdur. Ali Məhkəmə hələ də vaxt təyin etməyib".

"Ayna Zerkalo"nun həbsdəki əməkdaşı Rauf Mirqədirovun vəkili Fuad Ağayev istintaqla bağlı bir yeniliyin olmadığını söylədi: "Onunla bağlı istintaq hərəkətləri son aylarda olmayıb. Biz işin məhkəməyə nə vaxt gedəcəyini gözləyirik. Bəlkə də istintaq öz səhvini etiraf edib işə xitam verəcək. Saxlanma şəraitindən heç vaxt narazılıq etməyib. Əvvəlki mövqeyində durur ki, Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqaz mediasının bu yolla aradan götürülməsi şimal qonşusu ilə bağlıdır".

NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova fevralın 9-da görüş gününün olduğunu qeyd etdi: "Əlaqə saxlayırıq. Hər şey əvvəlki qaydadır. Fevralın 9-da görüşə gedəcəm. Heç nədən şikayəti yoxdur".

❑ Cavanşir ABBASLI

## Almaniya, Fransa, Rusiya və Ukrayna liderləri Minskdə görüşəcək

**Almaniya, Fransa, Rusiya və Ukrayna liderləri gələn həftə Belarusun paytaxtı Minskdə bir araya gələcəklər. "The Associated Press"in Münxendən verdiyi xəbərdə görüşün çərşənbə günü baş tutacağı deyilir.**

Almaniya kansleri Angela Merkelin mətbuat katibi Steffen Saybert bu görüşün razılaşdırılması üçün tərəflər arasında gedən telefon danışıqlarının "intensiv"adlandırıb. Ukrayna prezidenti Pyotr Poroşenkonun ofisind'n bildirilib ki, Minsk danışıqlarında Ukraynada gedən döyüşlərdə qeyri-şərtsiz atəşkəs rejiminin tətbiq olunması nəzərdə tutulur.

Soçidə Belarus prezidenti ilə görüşən Vladimir Putin də çərşənbə günü görüşün olacağını təsdiqləyib və bildirib ki, o vaxta qədər də müəyyən məsələlərlə bağlı anlaşma əldə oluna bilər.

Agentlik bildirir ki, Merkel Minskdə keçiriləcək görüşdən əvvəl ABŞ prezidenti Barak Obama ilə bazar ertəsi Vaşinqtonda bir araya gəlməyi planlaşdırır. Münxendə keçirilən Təhlükəsizlik üzrə konfransda ABŞ dövlət katibi Con Kerri deyib ki, ABŞ və onun Avropdakı müttəfiqləri Ukrayna böhranına görə diplomatiya müstəvisində birlik içindədirlər: "Heç bir fərq, heç bir ayrılıq yoxdur. Biz sıx şəkildə bir yerdə çalışırıq".

Almaniyanın xarici işlər naziri Frank-Valter Şteynmayn Con Kerri ilə söhbət zamanı deyib ki, Ukraynaya silah vermək təkcə yüksək risk tələb etmir, həm də problemin həllinə heç bir xeyir verməyəcək. Con Kerri də bildirib ki, ABŞ Ukrayna böhranının hərbi yolla həllini mümkünsüz sayır.

Ancaq o da bəllidir ki, ABŞ daha çox Ukraynanın silahlandırılmasına meyllidir. Bu isə Moskva ilə Vaşinqton arasında münasibətləri təhlükəli həddə çatdıra bilər.

❑ Elbəyi HƏSƏNLİ

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



## İran "The Washington Post"un müxbirin azad edəcək

### Xarici işlər naziri bəyanat verdi

**"The Daily Mail"in Münhendən verdiyi xəbərdə deyilir ki, "The Washington Post" qəzetinin Tehranda həbs olunmuş əməkdaşı tezliklə bəraət ala bilər. İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif jurnalistlərlə söhbəti zamanı belə bir fikir səsləndirib. "The Washington Post" qəzetinin köşə yazarı David İqnatiusun sualına cavab verən nazir deyib ki, o, Cason Rezaianın anasını axtarıb, onları ziyarət etmək fikrindədir.**

Münhendə keçirilən Təhlükəsizlik Şurasının konfransında iştirak edən Məhəmməd Cavad Zərif deyib: "Mən ümid edirəm ki, o, məhkəmə tərəfindən bəraət alacaq. Və həmin gün onun həyatında ən əlamətdar gün olacaq".

"The Daily Mail" yazır ki, "The Washington Post"un İran əsilli müxbiri Cason Rezaian, onun xanımı Yeganə Salehi və iki fotojurnalist iyulun 22-dı Tehranda həbs olunub. Sonra Cason Rezaiandan başqa hər kəs azad edilib.

Maraqlıdır ki, İran rəsmiləri hələ də Cason Rezaianın hansı səbəbdən və hansı maddələrlə ittiham olunduğu barədə heç bir açıqlama verməyib.

❑ Elbəyi Həsənli

## Soyuducudan 4 körpə meyti çıxdı

**"eNews Channel Africa"nın xəbərində deyilir ki, Cənubi Afrika Respublikasının ən böyük şəhəri olan Yohannesburqda buz dolabında 4 uşaq meyiti aşkar edilib. Bu barədə yerli polis məlumat verib.**

"Polis evin qapısını sındıraraq içəri daxil olub. Çünki ev sahibəsi evdə olmayıb. Buz dolabında yeni doğulmuş 4 körpə meyiti aşkar edilib. İstintaq araşdırmalarına start verilib" - yerli polisin sözçüsü polkovnik Mzukisi Fatyela deyib.

Meyit aşkar edilən evin ərazisində kirayədə qalan birisi polisə bildirib ki, ev sahibəsi Yohannesburqa dəfn mərasimində iştirak etmək üçün gedib.

❑ Elbəyi HƏSƏNLİ

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015

# “Ukraynadakı proseslər Qərb-Rusiya savaşıdır”

## Elxan Şahinoğlu: “Rəsmi Bakı bu hadisələri diqqətlə izləyərək müəyyən nəticələr çıxarır”

**Almaniya və Fransa liderlərinin Ukrayna mövzusunda Putinlə apardığı danışıqlarının nəticəsiz bitməsi böhranın daha da dərinləşəcəyi ilə bağlı iddiaları gündəmə gətirib. Bazar günü liderlərin daha bir telefon müzakirəsi gözlənsə də, müşahidəçilərə görə, danışıqlarda nəticə əldə olunması ehtimalı azdır.**

Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili isə liderlərin yalnız Donetsk bölgəsindəki vəziyyəti müzakirə etdiyini və bu zaman Ukrayna haqda söhbət aparılmadığını bildirib. Bu arada Ukraynada 10 aydır davam edən müharibənin itkiləri ilə bağlı yeni rəqəm açıqlanıb. Axar.az xəbər verir ki, Almaniya mediası yerli xüsusi xidmət orqanlarına istinadən münaqişənin başladığı müddət ərzində Ukraynada 50 min adam öldüyü haqda xəbər yayıb.

Qeyd edək ki, rəsmi Kiyevin bir neçə gün əvvəl açıqladığı rəsmi məlumata görə, indiyə qədər Ukraynada 1200 hərbçi və 5400 mülki şəxs münaqişənin qurbanı olub. Müharibənin davam etməsi ehtimalı isə günü gündən artır. Rusiya mənbələrinin nüvə silahlarını gündəmə gətirməsi Rusiyanın təhdidi kimi qəbul olunsa da, Putinin geri çəkilməməsi Ukraynanın şərqindəki savaşın daha da genişlənəcəyini göstərir.

Politoloq Elxan Şahinoğlunun fikrincə, müharibə davam etdikcə, onun genişlənməsi ehtimalı da artır. Ukraynada əslində Rusiya-Qərb toqquşmasının baş verdiyini qeyd edən ekspertə görə, bu amil savaşın daha da genişlənməsi ehtimalını gücləndirir: “Əgər Ukraynada gedən savaş aysberqin görünən tərəfidirsə, görünməyən tərəfi Qərb-Rusiya qarşıdurmasıdır. Hamıya bəllidir ki, Rusiya separatçılara təsir etsə, çox qısa müddətdə sülhə nail olmaq mümkündür. Hazırda danışıqlarda irəliləmə olmadığına görə, müharibə şiddətlənir. Rusiya separatçılara dəstək verir, Ukraynanın ərazi bütövlüyünü əməldə tanımaq istəmir, Krım problemi qalır. Bütün bunlar davam etdikcə, müharibə də davam edəcək. Son həftədəki diplomatik hərəkətlənmə onu göstərir ki, Qərb bu prosesdə fasilə götürməyə çalışır. Çünki Qərb-Rusiya qarşıdurması çox böyük fəlakətlərə apara bilər. Ancaq yenə də Moskvanın mövqeyində dəyişiklik yoxdur, separatçılara verdiyi dəstəklə müəyyən uğurlar əldə ediblər. Ona görə də sanki şərtləri Rusiya özü diktə edir və razılaşma əldə etmək mümkün deyil. Son səfərlərdən də nəticə hasil olmadı. Bu isə onu deməyə əsas verir ki, müharibə bir qədər də davam edəcək”.


Elxan Şahinoğlu

E.Şahinoğlu deyir ki, Rusiyanın iqtisadi böhrana baxmayaraq separatçılara dəstəyini əsirgəməməsi onu göstərir ki, toqquşma daha da böyüyə bilər: “Artıq ABŞ da Ukraynaya silah verəcəyinə işarə edir. Kim bilir, bəlkə də Rusiya ordusunun hissələri ilə NATO qüvvələrinin hissələri Ukraynada qarşılaşa bilər. Çünki Ukrayna məğlubiyyətə uğrasa könüllüləri cəlb etməyə çalışacaq. Yəni Avropadan və digər ölkələrdən könüllülər cəlb edəcəklər, necə ki, separatçılar belə etdiklərini deyirlər. Məsələnin digər tərəfi, Rusiyada son günlər tez-tez nüvə silahı istifadəsi hədələri ortaya atılır. Gah bunu rusiyalı jurnalist, ekspert və ya rəsmi şəxs dilə gətirir. Yəni Rusiya mesaj verir ki, bizi sıxışdırsalar, biz də əlimizdə olan vasitələrdən istifadə edəcəyik. Doğrudur, bu o qədər də real deyil, amma eyni zamanda qarşıdurmanın daha da dərinləşəcəyini göstərir.

Bir il əvvəl kim düşünərdi ki, Ukraynadakı toqquşmalar bu vəziyyətə çevriləcək. Qərb həm də ona görə fasilə götürmək istəyir ki, Yaxın Şərqdə ciddi problemlər var. Amma mümkün olmur, çünki Rusiya ilə Ukrayna arasında toqquşma davam edir".

Ukrayna müharibəsinin Azərbaycana, konkret olaraq Qarabağ münaqişəsinə təsirinə gəlincə, E.Şahinoğlunun fikrincə, rəsmi Bakı Qarabağ probleminə daha çox diqqət ayrılmasına çalışır: “Azərbaycan dövlət başçısının Münhen Təhlükəsizlik Konfransına getməsini təsadüfi hesab etmirəm. Çünki bildiyim qədər iki il idi ki, bu konfransa qatılmırdı. Məhz bu dəfə qatılması düşünürəm ki, Ukrayna hadisələri ilə bağlı idi. İlham Əliyev iki gündür Qərbə xüsusi mesajlar verir. Mesajlardan biri bu idi ki, Azərbaycan Avropaya enerji resurslarının çatdırılmasını təmin edir, yəni Avropa da Azərbaycanın təhlükəsizliyinə diqqət ayırmalıdır. İkinci mesajı isə o idi ki, əgər Qərb Qarabağ münaqişəsinə vaxtı ilə diqqət yetirsəydi, yaxud da daha aktiv olsaydı, indi Ukraynada bu proseslər yaşanmayacaqdı. Mənim müşahidələrimə görə rəsmi Bakı Ukrayna hadisələrini diqqətlə izləyərək müəyyən nəticələr çıxarır. İlk növbədə Qərbin üzərinə gedir ki, nədən ikili standartlar tətbiq olunur, obyektiv yanaşma olmur. Necə olur ki, Qərb, ABŞ Ukraynanın ərazi bütövlüyünü ciddi-cəhdlə dəstəkləyirlər, separatçıları qınayır, onların bank hesablarını dondurur, ancaq eyni yanaşma Ermənistan və Dağlıq Qarabağ separatçılarına qarşı nümayiş etdirilmir. Ona görə də Ukrayna hadisələri fonunda Azərbaycan diplomatiyası sanki bir qədər fəallaşaraq Qərbdən tələb etməyə başlayıb ki, bəli, biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik, ancaq eyni yanaşmanı Azərbaycana qarşı tətbiq olunmasını istəyirik. Bu istiqamətdə nə qədər uğurlu olacağımızı bilmirəm, amma bu da bir cəhddir”.

❑ KƏNAN

# İpoteka və kredit ödəyicilərinə şad xəbər

## Manat devalvasiya olsa, vətəndaşlar xeyir götürəcək, banklar təlaş içindədir və xarici valyuta ilə kredit verməyə başlayıb...

**“Bizim üçün qarşımızda bir Rusiya nümunəsi var. Qonşu ölkədə kredit və ipoteka ödəyiciləri üçün vəziyyət rahatdır. Çünki rubl getdikcə dəyərdən düşür və əvvəlki məbləğ olmur. Amma əsl həqiqəti xarici valyuta ilə ipoteka götürənlər yaşayır. Ona görə də bu halda banklar güzəşt yolunu seçdilər, kredit müddətini uzatmalı oldular”.**



Bu sözləri “Yeni Müsavat”a iqtisadçı-ekspert Samir Əliyev manat ucuzlaşacağı halda kredit ödəyicilərinin vəziyyəti barəsində danışarkən qeyd etdi. Onun sözlərinə görə, Azərbaycanda manat devalvasiya olarsa, bu, kredit faizlərinin bahalaşmasına gətirib çıxara bilər: “Bu, o cümlədən əmanətlərin faizlərinə də təsir edəcək. Eyni zamanda ilk növbədə kredit müqaviləsinə baxmaq lazımdır. Müqavilədə qeyd olunubsa ki, kredit faizləri ölkənin makro-iqtisadi vəziyyətindən asılı olmayaraq dəyişməyəcək, o halda düzəliş edilə bilməz”.

İqtisadçıya görə, manatın ucuzlaşması istənilən halda kredit ödəyicisinə sərf edir: “Dünyada bu proses müxtəlifdir. Azərbaycanda isə fiksə edilib. Dünyada üzən faizə uyğun dəyişir, yəni faizlər artır və azalır. Əgər müqavilədə dəyişiklik olacağı qeyd edilməyibsə, o halda əvvəlki şərtlərlə kredit ödəniləcək. Bu zaman manat devalvasiya olarsa, kredit ödəyicilərinin xeyrinə olacaq, pul dəyərdən düşəcək. Amma xarici valyuta ilə kredit ödəyənlərin zərərinə olacaq. Məsələn, 100 dollara görə 79 manat ödəyirdisə, 110 manat verməli olacaq. Onu da deyim ki, son 2-3 ayda banklar xarici valyuta ilə kredit verməyə başlayıb”.

S.Əliyevin fikrincə, banklar xarici valyuta ilə kredit verməklə iki prosesin qabağını almağa hazırlaşır: “Birincisi ehtimal olunur ki, manatın kursu dəyişə bilər və dollar bu halda daha sərfəlidir. İkincisi, bank sektorunda manat qıtlığı yaranıb. Əməliyyatlar üçün milli pul tapılmır. Pulun həcmi iqtisadiyyata uyğun deyil. Mərkəzi Bank inflyasiyanı tənzimləmək üçün pulu sıxıb. Amma hökumət manatı buraxmayacağını bəyan edib. 2009-cu ildə verdiyi bu sözə əməl etdi. Sadəcə, indiki situasiya daha ağırdır, arzuolunmaz vəziyyət yaranıb. Manatın hazırkı kursu imkan vermir ki, qeyri-neft sektoru inkişaf etsin. Ölkə idxalla doludur. Azərbaycanda ixrac 7-8 faizdir, Rusiyada isə 40 faizdir. Ona görə də çıxılmaz vəziyyətdir. Prezidentin son çıxışından belə görünür ki, ixracı gücləndirmək lazımdır”.

İqtisadçı bununla belə, parlament seçkilərinə qədər hökumətin manatın kursunu saxlamağa çalışacağını və gedişatın neftin qiymətindən asılı olacağını düşünür: “Dünya bazarında neftin qiyməti aşağıdır. Düzdür, son bir həftədə işıq ucu görünür, qiymətdə artım var. Əgər neft 48 dollara düşsə birmənalı olaraq manat devalvasiya olacaq. 60 dollara qalxsa hökumət manatın kursunu saxlamağa çalışacaq. Yeni hökumət neftə baxır”.

❑ Emil SALAMOĞLU

# 24 aprel tədbirləri dünya liderlərini seçim qarşısında qoyub

## Orxan Qafarlı: “Putin, Olland, Merkel, ABŞ-dan Con Kerri və digər şəxslər Ermənistana gedəcəklər...”

**Aprelin 24-də ermənilər qondarma “erməni soyqırımının 100 illiyini”, Türkiyə dövləti isə Çanaqqala zəfərinin 100 ilini qeyd edəcək. Artıq bir sıra dövlətlər Türkiyə prezidentinin bayram tədbirlərində iştirak dəvətini qəbul edib. Eyni zamanda Fransa kimi ermənilərə ənənəvi dost ölkələr də aprelin 24-də İrəvanda keçiriləcək tədbirdə iştirak etməklə bağlı dəvəti qəbul edib.**


Orxan Qafarlı

Böyük Britaniyanın baş naziri Devid Kemeron “erməni soyqırımı”nın 100 illiyi ilə bağlı Ermənistanda keçiriləcək mərasimə qatılmayacaq. Bu barədə Böyük Britaniyanın Ermənistandakı səfiri Ketrin Liç bildirib.

Qeyd edək ki, Türkiyənin Azərbaycanla birlikdə “erməni soyqırımı” iddiasına cavab olaraq Çanaqqala zəfəri tədbirini keçirməsi rəqabətə çevrilib. Hansı ölkənin erməni tədbirinə, hansının isə Türkiyənin keçirəcəyi zəfər bayramında ən yüksək təmsil olunması həm də dövlətlərə münasibəti ortaya qoyacaq.

Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzinin eksperti, politoloq Orxan Qafarlı deyir ki, hazırda erməni diasporu Avropa ölkələrində ciddi dəvət kampaniyası aparır: “İndi Ermənistanda eyni tarixdə dünya liderlərini qondarma ”erməni soyqırımı" tədbirlərinə dəvət edib. Bu liderlərdən ilk razılığı Fransa prezidenti Fransua Olland verdi. Bundan sonra erməni diasporu bir-bir Avropa liderləri ilə görüşərək Türkiyənin dəvətinə qoşulmamalarını, Ermənistana gəlmələrini istəyirlər. Erməni diasporu və dövlətinin əsas məqsədi indiki məqamda Türkiyənin Çanaqqala zəfər tədbirlərinin baş tutmamasına və ya mümkün qədər Ermənistanda keçirilən mərasimin kölgəsində qalmasına nail olmaqdır. Bunun üçün Türkiyəyə növbəti zərbəni bu şəkildə vurmaq istəyirlər. Amma özləri də bilmədən 24 apreldəki əsas məqsədlərindən yayınırlar. Əgər bir necə il əvvəl bunların məqsədi dünya ölkələrində “soyqırımı” tanınması sıralarının genişlənməsinə nail olmaq idisə, indi Türkiyənin zəfər tədbirlərinin uğursuz olmasına nail olmaqdır. Bu Türkiyənin strateji olaraq marağına cavab verir".

O.Qafarlı deyir ki, Ermənistan və erməni diasporu 24 aprel qondarma “erməni soyqırımı” tədbirlərində iştirak üçün bütün dünya liderlərinə dəvət məktubu göndəriblər. Ancaq Türkiyənin də paralel olaraq eyni gün üçün dəvət göndərməsi bir sıra ölkələr üçün çətin seçim yaradıb: “Bunun üçün liderlər arasında fikir ayrılığı yaranıb. Hansı tədbirdə iştirak etsinlər. İlkin məlumata görə, ”erməni soyqırımı" tanıyan ölkələrin daha çox bu tədbirdə birinci və ya ikinci şəxslər səviyyəsində iştirakı gözlənilir. Əgər baxsaq hansı ölkələr “erməni soyqırımı” tanıyıb o zaman qarşımıza belə bir siyahı çıxacaq: “soyqırımı” Uruqvay, Rusiya, Fransa, Litva, İtaliya Deputatlar Palatası, ABŞ-ın əksər ştatları, Yunanıstan, Kipr, Argentina, Belçika və Uels, İsveçrə Milli Şurası, Kanada Palatası və Polşa parlamenti tərəfindən tanınıb. Böyük ehtimalla, bu ölkələrin birinci şəxsləri tədbirdə iştirak edəcəkdir. Əldə edilən son məlumatlara görə Rusiya prezidenti Putin, Fransa prezidenti Olland, Almaniya kansleri Angela Merkel, ABŞ-dan Con Kerri və “erməni soyqırımını” tanıyan ştatlardan senatorlar, Cənubu Amerika ölkə liderləri, Kanada baş naziri, Yunanıstanın yeni baş naziri, Baltikyanı ölkələrin, Ukrayna və Belarusun prezidentləri, İtaliya baş naziri və Polşa prezidenti də iştirak edəcək. İştirakçı dövlət liderlərinin siyahısı dəyişə də bilər. Ola bilər ki, birinci şəxs iştirak edə bilməsin və ikinci şəxs səviyyəsində iştirakılar olsun".

O.Qafarlı bildirdi ki, 24 aprel qondarma “erməni soyqırımı” tədbirindən öncə İrəvanda 18-24 aprel tarixləri arasında MDB ölkələri və dünya mediasından olan jurnalistlərin iştirakı ilə “Ağrıdağı ətəyində” adlı beynəlxalq media forumu keçiriləcək. Media forum çərçivəsində nüfuzlu xarici KİV-lərə, 22-24 aprel keçiriləcək tədbirə əhatə etmək imkanı veriləcək. Eyni zamanda 22-23 aprelin tarixində İrəvanda, müxtəlif ölkələrin və dini liderlərin, tarixçilərin və ictimai xadimlərin iştirakı ilə “soyqırımı cinayətinə qarşı” beynəlxalq konfrans nəzərdə tutulur.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015



# "Tofiq bəy 54 - Avropa köməyin olsun!"

## Tofiq Yaqublunun 54-cü ad günü keçirilib; Arif Hacılı: "Ziyalı, vicdan məhbusu, Saxarov mükafatı alan bir şəxs..."; İsa Qəmbər: "Tofiq bəy müsavatçı adını şərəflə yaşadır..."

**Fevralın 7-də Müsavatın qərargahında partiyanın həbsdəki başqan müavini Tofiq Yaqublunun doğum günü tədbiri keçirilib. Toplantıda Müsavat başqanı Arif Hacılı, MSDM-nin sədri İsa Qəmbər, partiya rəhbərliyi və fəalları iştirak ediblər.**

Yubiley tədbiri Tofiq Yaqublunun üzvü olduğu Binəqədi rayon təşkilatı tərəfindən təşkil olunub. Saat 14:00-da başlayan tədbirdə ilk olaraq, Binəqədi təşkilatının sədri Rauf Ağayev çıxış edib. O, təşkil etdikləri tədbirdə iştirak edən hər kəsə rayon təşkilatı adından öz təşəkkürünü bildirib.

Daha sonra çıxış üçün söz Müsavat başqanı Arif Hacılıya verilib. Başqan Tofiq Yaqublu ilə birlikdə keçdiyi mübarizə həyatı və xatirələrindən danışıb: "Tofiq bəyin Müsavatda fəaliyyəti ilk olaraq, Binəqədi təşkilatı ilə bağlıdır. O, Binəqədidə İcra Hakimiyyətinin müavini olub. Onu 1992-ci ildən, dövlət müşaviri işlədiyim zamanlardan tanıyıram. O, diqqətimi cəlb etmişdi. Onu rayonlara göndərirdik. Yəqin ki, yaxın zamanlarda onun vəzifəsi də yüksələcəkdi. Amma hakimiyyətin dəyişməsi buna imkan vermədi. Tofiq Yaqublu əsl müsavatçıdır. Onun cəmiyyətə nümunə göstəriləcək bir çox fədakarlıqları var. Bunlardan biri Qarabağ müharibəsindəki iştirakıdır. O, Gürcüstandan gələrək, könüllü müharibədə iştirak edib. Bu, epizodik xarakter daşımır. Bir çox döyüşçülər var ki, qısa zamanda müharibədə iştirak ediblər. Uzunmüddətli döyüşlərdə olmayıblar. Amma Tofiq bəy uzun müddət Qarabağda vuruşan döyüşçülərdəndir. Onun partiyamızdakı fəaliyyəti də daimi xarakter daşıyıb. Müsavatın yüksəlişi dövründə olub, enişi dövründə kənara çəkilənlərdən olmayıb. Daim partiyanın tapşırıqlarını yerinə yetirib. Tofiq Qasımov deyirdi ki, mən "xarab gəmidə qum meşoğu" kimi bir şeyəm. Hardan su gəlsə, məni ora itələyirlər... Həmin funksiyanı uzun müddət Müsavatda Tofiq bəy yerinə yetirib. Hər hansı bir işə adam tapmayanda, onu axtarırdıq. Məlum olurdu ki, başqa yerdədir. Amma deyirdi ki, problem deyil, oradan da deyilən yerə gedərəm. O, belə bir şəxsdir. İndi partiyamızda "xarab gəmidəki qum meşoğu" funksiyasını Elman Fəttah yerinə yetirir. Tofiq bəy ziyalı, vicdan məhbusu, Saxarov mükafatı alan bir şəxsdir. Təəssüf ki, bəzən özümüz kim olduğumuzu bilmirik. Bu günlərdə Müsavat rəhbərliyi, Divan üzvləri barəsində müxtəlif fikirlər səslənir. Amma indiki rəhbərlik əvvəlkilərdən geri qalmır. Divanda 4 fəlsəfə doktoru var. MNTK və İcra Aparatının rəhbəri fəlsəfə doktorudur. Müsavatın üzvü olmağın özü bir fədakarlıq tələb edir. Belə fədakar insanlardan biri də Tofiq Yaqubludur. O, həbsxanada belə nikbinliyini saxlayan şəxslərdən biridir. O, daim nikbinliyini şəraitindən asılı olmayaraq saxlayır. Yeni il ərəfəsi telefonla danışdıq. Maraqlı söhbətimiz oldu. Ona dedim ki, bu əfvlə çıxmaq şansın var. İnandırmağa çalışdım. Dedi ki, Arif bəy, elə danışırsan, sanki azadlığa çıxmağa etiraz edirəm... O, tariximizi yazan, yaradan şəxslərdən biridir. Yaqublular ailəsi fədakardır. Onun ailə üzvlərini təbrik edirəm. Tofiq Yaqublunun görəcəyi işlər qarşıdadır".

MSDM-nin sədri İsa Qəmbər Tofiq Yaqublu ilə bağlı bunları deyib: "O, unikal şəxslərdən biridir. Ömrünü Azərbaycan xalqına həsr etmiş dəyərli, fədakar insandır. Tofiq bəy Müsavatın önəmli fiqurlarındandır. Müsavat tariximizdə 100 ildən artıq xalqımızın həyatında mühüm rol oynayan bir partiyadır. Müsavatı yaşadan onun fədakar üzvləridir. Tofiq bəyin nümunəsi burada xüsusilə, görünür. Müsavatçı olmaq bir şərəfdir. Amma bu şərəfi daşımaq hər bir insandan ləyaqət tələb edir. Tofiq bəy onun bir nümunəsini yaradıb. Müsavatçı adını şərəflə yaşadıb. Yaşatmağa davam edir. Çox tez onu görmək istəyirəm. Sözün doğrusu, insan darıxır. Onun mübarizəsi, fədakarlığı gözəl idi. Opponentliyi daha gözəl idi. Siyasət, mədəniyyət və futboldan tutmuş, hər sahədə mübahisə etməyi xoşlayırdı. Onunla gözəl söhbətlərimiz olurdu. İstəyimiz odur ki, tezliklə dostumuz azadlıqda olsun. Ailəsinə, gözəl övladlarına, Müsavata qovuşsun. Mübarizəsini zindanda yox, azadlıqda davam etdirsin".

Tofiq Yaqublunun vəkili Nemət Kərimli onun barədə qısa fikirlərini deyib: "Tofiq bəy həbsxanada olanda xarakteri daha aydın görünür. Həyatda olduğu kimi görünür, göründüyü kimi olur. O, istər azadlıqda, istərsə də məhbəsdə eyni cür görünür. Ardıcıl, prinsipial, mübariz adamdır. Onu bir daha ad günü münasibətilə təbrik edirəm".

Başqan müavininin qızı Nigar Yaqublu atası ilə bağlı tədbir hazırladıqlarına görə Binəqədi təşkilatına, partiya rəhbərliyinə, iştirakçılara minnətdarlığını bildirib.

Üzərində "Tofiq bəy 54, Avropa köməyin olsun!" sözləri yazılan tortu vicdan məhbusunun qızı Nigar Yaqublu kəsib. Daha sonra tədbir iştirakçıları Tofiq Yaqublu ilə bağlı xatirələrindən danışıblar. Yubiley tədbiri iki saata yaxın davam edib.

**❑ Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# KTN-də subsidiya araşdırması başlayır

## Bəzi ekspertlər dövlət başçısının çıxışından sonra vəziyyətin dəyişəcəyinə ümid edir...

**Kənd təsərrüfatının inkişafına ayrılan subsidiyaların aidiyyəti məmurlar tərəfindən mənimsənilməsi gündəmin əsas mövzularından biridir. Hətta dövlət başçısı İlham Əliyevin subsidiyalardan narahatlıqla danışması problemin ciddiliyinin yuxarı səviyyələrə qədər məlum olduğunu deməyə əsas verir. Bu çıxış məsələyə yenidən diqqət çəkib. Əksər ekspertlər bildirirlər ki, ortada çox ciddi məqamlar var. Bəzi ekspertlərsə artıq müvafiq qurumların çıxışdan nəticə çıxardıqlarını qeyd edirlər.**



Ekspert Fikrət Yusifov bildirir ki, dövlət başçısı məsələyə həssas yanaşıb: "Cari ilin yanvar ayının 27-də regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda prezident İlham Əliyev aqrar sektora dövlət büdcəsindən ayrılan subsidiyaların istifadəsi zamanı yol verilmiş neqativ hallara çox kəskin bir münasibət bildirmişdi. Ölkəmizin tarixən aqrar bir ölkə olması və aqrar sektorun hərtərəfli inkişafı üçün məmləkətimizdə geniş imkanların mövcudluğu, indiki şəraitdə bu sahəyə daha ciddi yanaşımı zəruri edir. Dövlət başçısının qeyri neft sektorunu inkişaf etdirmək və bu yolla ölkə iqtisadiyyatının və dövlət büdcəsinin neftdən asılılığını minimuma endirmək məqsədilə müəyyən etdiyi kursun tezliklə reallaşmasında aqrar sektorun rolu əvəzedilməzdir. Elə bu səbəbdəndir ki, prezident məlum sərəncamla 2015-ci ili "Kənd təsərrüfatı ili" elan etmişdi. Aqrar sektorda necə uğur qazanmağın yollarını çox gözəl bilən prezident həmin konfransda bu sahənin ən həssas məsələlərinə-dövlətin bu sahəyə ayırdığı vəsaitlərin istifadəsində yol verilmiş ciddi nöqsanlara öz kəskin münasibətini ortaya qoydu. Aqrar sektorun işinin daha səmərəli təşkili bu sahəyə ayrılan vəsaitlərin necə səmərəli istifadə edilməsindən birbaşa asılıdır. Burada söhbət kəmiyyət deyil keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasından gedir. Yəni dövlət aqrar sektorun inkişafı üçün milyardlarla manat vəsait ayırsa belə, əgər onun istifadə mexanizmində ciddi dönüş etməklə şəffaflıq təmin olunmasa, burada ayrılan vəsaitlərin səmərəli istifadəsindən söhbət belə gedə bilməz".

Ekspertin sözlərinə görə, dövlət başçısının çıxışından sonra vəziyyət dəyişə bilər: "Hesab edirəm ki, prezident kənd təsərrüfatına ayrılan subsidiyaların istifadəsində yol verilmiş ciddi pozuntulardan danışmaqla məhz bu vəsaitlərin istifadəsində əsaslı dönüş etməyi Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyinin qarşısında bir vəzifə olaraq qoydu. Məndə olan məlumatlara görə, Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi artıq bu sahədə çox ciddi addımlar atıb. Heç şübhə yoxdur ki, aqrar sektorda cari ilin göstəriciləri bu addımların nə qədər effektli olduğunu ortaya qoyacaq. Bu sahədə uğurların əldə ediləcəyini daha çox gerçək edən məqam ondan ibarətdir ki, ötən ilin quraqlıq keçməsinə baxmayaraq, nazirlik yeni rəhbərliyinin bir il ərzində gördüyü səmərəli tədbirlər aqrar sektorun bir sıra sahələrində ciddi irəliləyişlərin əldə edilməsinə gətirib çıxarmışdı. Əslində aqrar sektorda aparılan islahatlar bir qayda olaraq 2-3 ildən sonra müsbət nəticələr əldə etməyə imkan verir".

Qeyd edək ki, həmin çıxışında prezident İlham Əliyev 2013-cü ildə kənd təsərrüfatı naziri təyin edilən Heydər Əsədova xitabən kənd təsərrüfatı məhsullarının bəzilərinin istehsalının aşağı düşməsinin təkcə quraqlıqla bağlı olmadığını vurğulayıb: "İndi kənd təsərrüfatı naziri bəlkə də demək istəmirdi. Dedi ki, quraqlıqla bağlıdır. Təkcə quraqlıqla bağlı deyil. Çünki əvvəllər qiymətlər şişirdilirdi. Nəyə görə? Subsidiyalara görə. Məgər burada oturanlar bilmir subsidiyalarda hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Nəticə çıxarın. Bir daha demək istəyirəm ki, bütün işlərdə şəffaflıq olmalıdır".

Ekspertlərin sözlərinə görə, müzakirələrin dövlət başçısı səviyyəsində aparılması artıq hədlərin aşıldığının və korrupsiyanın miqyasının daha çox genişləndiyinin göstəricisidir. Ekspertlər bu qənaətdədir ki, Kənd Təsərrüfatı Nazirliyi bu sahəyə ciddi nəzarət etmir. Yəni subsidiyaların ayrı-ayrı məmurlar tərəfindən mənimsənilməsinin qarşını almaq üçün nazirlik heç bir cəhd etmir.

**❑ RÖYA**

# Göyçayın icra başçısı müəllimlərə küçə süpürtdürür

## İcra Hakimiyyətinin qarşısında etiraz aksiyası keçirilib

**Göyçay Rayon İcra Hakimiyyətinin binası qarşısında aksiya keçirilib. Bu barədə musavat.com-a hüquq müdafiəçisi Taleh Xasməmmədov məlumat verib. O deyib ki, fevralın 8-də rayon sakinləri işıq və su problemləri ilə bağlı etirazlarını bildirmək üçün İcra Hakimiyyətinin binası qarşısına yığışıblar.**



Taleh Xasməmmədov

Xasməmmədovun sözlərinə görə, icra başçısı Mübariz Ağayev etiraza qalxan sakinlərin İH-nin böyük akt zalına toplanmasına göstəriş verib: "4 gündür Göyçayda 400 ailənin işığı naməlum səbəblərdən kəsilib. Göyçay Elektrik Şəbəkəsinin rəisi - yeni icra başçısı Mübariz Ağayevin dayısı oğlu Mövsüm Ağayev vətəndaşları ciddi narazı salıb. Bundan bezən sakinlər ondan icra başçısına şikayət etməyə gəliblər. Onları icra başçısının müavini dinləyib. Bundan əlavə sakinlər iki gündür ki, su təchizatından da məhrum olublar. Etiraz edənlər onlara qanunsuz su borclarının yazılmasından da icra başçısının müavininə şikayət ediblər və ona öz tələblərini çatdırıblar. Etiraz edən sakinlər problemləri həll edilməyəcəyi təqdirdə, yenidən mitinq təşkil edəcəklərini bildiriblər".

T.Xasməmmədov həmçinin bildirib ki, İcra Hakimiyyətinin qarşısındakı aksiyadan sonra rayonun müəllim-həkim kontingenti də şikayət edib: "Mübariz Ağayev rayona icra başçısı gələn gün bir qarşılanma şousu düzəldildi. Camaatın sevindiyi deyildi. Amma göyçaylıların sevinci uzun çəkmədi. Başçı işə başlayan kimi, büdcə təşkilatlarında çalışanları küçələrə töküb zir-zibil yığışdırtdırmağa başladı. Daha sonra o, gözə dəyən artıq-əskik tikililərin sökülməsi əmrini verdi. İndi isə küçə süpürməyə müəllimləri cəlb edib. Müəllimlərin çoxu buna öz etirazları bildirir, xeyli ziyalı hüquq müdafiəçisi olaraq mənə şikayət edib, bu məsələnin ictimailəşməsini israrla məndən xahiş edirlər".

**❑ T.ƏHMƏDLİ**

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015

# Lamiyə Quliyevanın dəhşətli hekayəsi anasının dili ilə...

## Aslan Aslanov nələr etmiş, nələr... Kifayət Quliyeva dəhşətli gerçəkləri dilə gətirib prezidentdən kömək istədi

**Məhkum Lamiyə Quliyeva saxlandığı 4 saylı Cəzaçəkmə Müəssisəsində ana olandan sonra onunla bağlı bütün mövzular yenidən gündəmə gəlib. Özünün və nişanlısı Vüqar Əliyevin başına gətirilənlər yenidən yazı və müzakirə mövzularına çevrilib. Ölkə mediasında isə bir informasiya kirliliyi müşahidə olunmaqdadır. Bəzən konkret şəxslərin adından elə materiallara yer verilir ki, onların gerçək olmamasını təxmin belə etmək mümkünsüzdür.**



Məsələn, mətbuatda Lamiyə Quliyevanın anası Kifayət Quliyevanın adından müsahibə yayılıb. Diqqətimizi cəlb etdi və həmin müsahibə ilə bağlı K.Quliyeva ilə söhbətləşdik.

Lamiyənin anası onun adından yayılan müsahibənin saxta olduğunu, bunu Aslan Aslanovun yaydırdığını iddia etdi. "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində Kifayət xanım deyib ki, o, heç bir müsahibə verməyib: "ANS-dən gəlmişdilər, müsahibə vermədim..."

Müxbirimiz soruşub: "Bəs adınızdan müsahibə necə yayıla bilər?"

Kifayət Quliyeva: "Kim edəcək ki, onu? Aslan Aslanov edib də. Mənim adımdan müsahibəni ondan başqa kim yaydıra bilər ki? Mən müsahibə verməmişəm, xeyr, xeyr".

Bundan sonra müxbirimizlə K. Quliyevanın söhbəti belə davam etdirilib:

***- 2003-cü ildə nə baş verib, niyə qızınız, onun o vaxt nişanlısı olan Vüqar Əliyev həbs olunublar?***

- Getsin o günlər gəlməsin. Mən o günlərdən danışanda bədənim əsir. Mənim uşağımı Aslanın oğlu bədbəxt eləyib. 13 yaşında bu işi başına gətirdi. Onun oğlunun əlindən uşağı məktəbə də qoymurdum. Uşağımı pisikdirirdi, başından vururdu, saçından dartırdı, qulağını bururdu. Ağlaya-ağlaya neçə dəfə gəlib demişdi ki, mama, Ruslan məni qoymur məktəbə girməyə, uşaqların içində məni pisikdirir. Bir gün də məni məktəbin direktoru çağırdı ki, ay bacı, mən sənin yoldaşını tanıyıram, amma Ruslanın atasından da qorxuruq. Direktor dedi ki, qoy Lamiyə çıxıb 1 ay evdə otursun, bəlkə Ruslan ondan əl çəkər. Evə gələndən sonra Ruslanın anasının telefonunu axtardım. Evlərinə zəng eləyib dedim ki, oğlunuza deyin Lamiyədən əl çəksin, Lamiyənin 13 yaşı var, onu məktəbə qoya bilmirəm. Mən danışanda Lamiyə də yanımda idi. Səhəri günü evdəydim, anam dedi ki, səni çağırırlar. Eşiyə çıxdım, gördüm ki, bir oğlan dayanıb, yanında da 2-3 nəfər polis vardı. Soruşdu ki, məni tanıyırsan? Cavab verdim ki, yox. Dedi ki, mən Ruslanam. Ona dedim ki, niyə mənim uşağımdan əl çəkmirsən, nə istəyirsən? Sənin əlindən mən uşağımı məktəbə getməyə qoymuram. O da deyirdi ki, siz mənim valideynimə niyə deyirsiniz, niyə zəng edirsiniz... Dedim, atanın yanına da gedəcəyəm. Dedi ki, atamdan hamı qorxur. Mən də ona dedim ki, nə səndən, nə də atandan qorxmuram, qızımdan əl çək. Dedi əl çəkəcəyəm. "Teloxranitel"lərini də götürüb çıxıb getdi... Amma başımıza oyun açdılar. Özümü də atası türməyə saldırdı. Bacımın oğlunu 7 il türmədə oturtdu. Aslan deyirdi ki, evinizdə bir kişi yoxdur ki, ondan heyfimi çıxam. Mənim özümü də həbsdən çıxmağa qoymurdu. Deyir ki, anası da tutulmalıdır. Qohum-əqrəba qorxusundan bizə gəlmirdi. Yadıma düşəndə dəhşətə gəlirəm. Hansını danışım? Hansını deyim? Ömrümüz qaraltdılar. Məni Şəmkirdən çıxmağa qoymurdular. Gündə 2 dəfə polisə gedib qol çəkirdim. Bizi həbsdən buraxdıqları günü bacımla Prezident Aparatına gedirdik ki, şikayət yazaq. Mənə "rozısk" verdilər, zəng edib dedilər ki, təcili Şəmkirə gəlməsən səni tutub dama basacağıq. Qorxumdan geri qayıtdım. Adımızı da qəbula yazdırmışdıq. Məcbur olub qayıtdım. Evə çatan kimi polisə çağırdılar, dedilər ki, bu gündən sən heç bir yerə gedə bilməzsən, hər gün də 2 dəfə gəlib polisdə qol çəkəcəksən. 2 il səhər-axşam mən polisə gedib qol çəkmişəm. Aslan məni bazardan işdən çıxartdırıb. "Bazarkom"a zəng edib demişdi ki, əgər o qadın oradan çıxmasa, səni də Elpərəstin bazarının gününə saldıracağam, bazarını bağlatdıracağam. "Bazarkom" mənə dedi ki, xala mən neyləyim, mənim də balalarım var. Ona dedim ki, mən sənin çörəyinə bais olmaram. Deyirsə ki, çıx, çıxaram. "Veş"lərimi götürüb bazardan çıxdım. Bəlkə Aslanı buradan çıxarmasaydılar, o başımıza nələr gətirəcəkdi. İndi ANS - ə çıxıb deyir ki, mən günahsız heç kimə iş verdirməmişəm, heç kimi tutdurmamışam. Yalan deyir... Onu millət tanıyır. O Şəmkərə qan uddurub gedib.

> **"Aslan Aslanov öz oğlunu təmizə çıxarmaq üçün bacım oğlunu tutdurdu. Dedi ki, Lamiyənin zorlanmasını boynuna al, sənin özünü azadlığa buraxdırım"**

***- Sizi nə vaxt həbs ediblər?***

- 2003-cü ildə. Lamiyəni tutub aparmışdılar. Mən ona çörək aparmışdım, tutdular. Evimiz polis mühasirəsində idi. Evimizi yandıra bilərdilər. Anam qorxudan xəstəliyə tutuldu, öldü. Bax, indi vicdansız nəyə əl atıb? Mənim adımdan müsahibə verdirir. Danışmırdım, amma bundan sonra danışacağam. Vüqarın atasını, qardaşını, anasını, xalasını tutdirdu. Atasına 5 il iş verdirdi. Əgər o vaxt Səməd Seyidovla bir xarici (o dövrdə Avropa Şurasının Azərbaycan üzrə nüaməydəsi Andreas Qross olub- E.M.) Gəncə İstintaq Təcridxanasına gəlməsəydi, bizi buraxmayacaqdılar. Onlar bizi dinləyib dəhşətə gəldilər. Bir hadisəyə görə valideynlərin də içəri salınması görünməmişdi. Onlar məni də, Lamiyəni də danışdırdılar. Onlar gedəndən 1 həftə sonra məni, Vüqarın anasını, xalasını buraxdılar. Vüqarın atasına 10 dəfə məhkəmə keçirtdilər. 10-cü məhkəmədə o kişini çığıra-çığıra saldılar içəri. Aslan Şəmkirin icra hakimiyyətindən 20 nəfər aparıb İbrahimin üzünə qoydurdu. Güya hadisə torpaq üstündə olub. O hadisə torpaq üstündə olmamışdı, mənim qızımın üstündə olmuşdu.

***- Lamiyə Ruslanı niyə vurmuşdu?***

- Mən Lamiyənin nişanlanmasına razı deyildim. Nişan oldu, üzük taxıldı. Mən sonradan bildim ki, Ruslan Vüqarı pisikdirib. Ona deyib ki, sən onunla niyə nişanlanmısan... Aralarında "spor" olurmuş.

***- Qızınızın zorlandığını bilirdiz?***

- Yox, bilməmişəm. Həmin gün axşam idi, baxdım ki, Lamiyə evə girdi. İçəri girəndə dedi ki, Vüqarla idi. Sonra bildim ki, hadisəni eləyib gəlib. Əli kəsik idi. Dedi ki, məktəbin yanında Vüqarla gələndə 2-3 nəfər qabağımızı kəsdilər. Onları vurduq. Vüqara dedim niyə apardın onu ki, bu hadisə də baş versin. Səhərə yaxın idi 2 nəfər mülki şəxs gəlib maşınla. Başımıza oyun açdılar.

> **"Bax, indi vicdansız nəyə əl atıb... Mənim adımdan müsahibə verdirir. Danışmırdım, amma bundan sonra danışacağam"**

***- Həbsdə Lamiyəyə təzyiqlər olub?***

- Aslan Lamiyənin üstünə 5 nəzarətçi qoydurmuşdu. Üzünə dayanan məhkum qıza Aslan deyib ki, Lamiyənin üzünə durmasan, sənin işini artıracağıq. Ondan əvvəl bir zəngilanlı məhkum qadın vardı, onu Lamiyənin üzünə saxlamaq istəyirdi. O qadına ev alıb verib. Ondan sonrakı qızı məcbur elədilər, o yalandan Lamiyənin üzünə dayandı, guya Lamiyə onu təhqir edib, ona çaydanı atıb. Halbuki hamısı yalandır. Gedin Lamiyənin qollarına, biləklərinə baxın nə gündədir - kəsik-kəsikdir. Lamiyə orada bir dəfə özünü asıb. Ən son anda onu kəndirdən açıblar. Mənim uşağıma o qədər təzyiq ediblər... o qədər onu karsa salıblar... Mən o günləri yadıma salmaq istəmirəm. Getsin o günlər gəlməsin.

***- Sizi niyə həbs etmişdilər?***

- Guya cinayəti bilib gizlətmişəm. Başımıza oyun açdılar.

***- Əgər qızınıza qarşı həmin hərəkətlər olmasaydı, həmin hadisə baş verərdi?***

- Yox.

***- Lamiyə ilə nə vaxt görüşmüsünüz?***

- Dünən axşam. 4 saylı Cəzaçəkmə Müəssisəsində görüşdüm.

***- Uşağın atasının kimliyi ilə maraqlandız?***

- Hər kimdəndir...

***- Qızınıza 2-ci dəfə cinayət işi başlayanda məlumatınız olmuşdu?***

- Lamiyə sonradan dedi ki, onu çağırıblar və zorla, çığırda-çığırda maşına oturdub Bakı İstintaq Təcridxanasına aparıblar. Bu "zakaz"dır. Mən o işi aparan müstəntiqin yanına getdim. Dedi ki, mən namaz qılanam, mən günaha batıram, amma heç nə edə bilmirəm, bu yuxarıdan gələn "zakaz"dır. Dedi ki, işi bağlamışdım. Dedilər ki, olmaz, 5 nəfər Lamiyənin üzünə durmalıdır, qurtardı. Ona iş verilməlidir.

***- Kim idi həmin müstəntiq?***

- Adı Elsevər idi, səhv etmirəmsə, Xətai prokurorluğunda görüşmüşdüm.

***- O işi niyə başlamışdılar?***

- "Zakaz" idi. Bizimlə bağlı "zakaz"ları o verdirir, o.

***- Şikayət edirdiz?***

- Prezident Aparatına, Ədliyyə Nazirliyinə, Mehriban xanıma. Hamıya şikayət etmişəm.

***- Vüqarın bu işdə günahı var?***

- Vüqarın heç bir günahı yoxdur. Onun da başına oyun açıblar. Valideynləri çox əzab-əziyyət çəkdi.

***- Vüqarla Lamiyə eyni məktəbdə oxuyurdular?***

- Ruslan həmin məktəbdə oxuyurdu. Vüqar yaşda böyükdür onlardan. Ruslan qızıma çox sataşırdı. Bilirdi ki, Lamiyənin qabağında atası, qardaşı yox idi. Bizi bu hadisəyə görə polisə aparanda orada bəlkə də 100-ə yaxın qız və valideyni vardı. Allaha and olsun ki, hələ Tbilisidən, Bakıdan da qızları gətirmişdilər. Hamı çaşqın idi.

> **"Gedin Lamiyənin qollarına, biləklərinə baxın nə gündədir - kəsik-kəsikdir. Lamiyə orada bir dəfə özünü asıb. Ən son anda onu kəndirdən açıblar. Mənim uşağıma o qədər təzyiq ediblər... o qədər onu karsa salıblar..."**

***- Onları polisə niyə gətirmişdilər?***

- Ruslan kiminlə münasibətdə olubsa, onları yığıb gətirmişdilər polisə.

***- Məqsədləri nə idi?***

- Sorğu-sual edirdilər.

***- Sizi polisdə, prokurorluqda döyürdülər?***

- Döymürdülər, amma qorxudurdular, üstümə gəlirdilər. Təzyiq göstərirdilər. Deyirdilər ki, bu işdən xəbərin olub, boynuna al. Mən heç nə bilmirdim, boynuma necə ala bilərdim?

***- Lamiyəni döyürdülər?***

- Döymüşdülər. Vüqarı çox döymüşdülər, işgəncə vermişdilər.

***- Aslan Aslanov ora gəlirdi?***

- Yox. Amma 3 dəfə onu öz yanına apartdırıb.

***- Qızınızın zorlandığı haqda xəbərlər var. Məhkəmədə də bu haqda söhbətlər olmuşdu.***

- Aslan oğlunu təmizə çıxarmaq üçün bacım oğlunu tutdurdu. Dedi ki, Lamiyənin zorlanmasını boynuna al, sənin özünü azadlığa buraxdırım. Bircə mənim oğlum təmizə çıxsın. Bacım oğlu demişdi ki, Lamiyə mənim bacımdır, mən vicdanımı atıb öz bacımı bədbəxt etməmişəm. Məhkəmədə Lamiyə də çığıra-çığıra qalmışdı. Bacımız oğlu Fariz də deyirdi ki, onu şərləyiblər. Yenə də Aslan deyən oldu, bacım oğluna iş verdirdi. 7 il iş oxutdurdu.

***- İttihamda bacınız oğlunun Lamiyəni zorladığını yazmışdılar?***

- Bəli. Bəs oğlunu necə təmizə çıxartsın? İndi mənim bacım oğlu türmədən vərəm xəstəsi olaraq çıxıb. Onun günahı nə idi?

***- Oğlunu niyə təmizə çıxarırdı?***

- Mənim uşağımı Ruslan bədbəxt elədi. Ruslan edib, Ruslan... Onun atası bunu bilə-bilə mənim uşağımı elə bil ömürlük həbsdə saxlamaq istəyirdi. 10 il iş verdirdi. 10 il qurtaranda 5 il 5 ay bir artırdı. Üstəlik 6 il 6 ay da bir verdirmişdi. 18 il 6 ay cəza verdirmişdi qızıma. Lamiyənin başına nələr gətirib o. Aslan ANS-ə yalandan deyir ki, mən heç kimə iş verdirməmişəm, heç kimi tutdurmamışam. Yalan deyir. Bəs, bu qədər adamı kim tutdurub? Bu qədər adama işi kim verdirib? Onun vəzifəsi, pulu vardı, istədiyini edirdi. Mən fəhlə adamam. Onu qoyub məni eşidən kim idi? Allah qarşısında gec-tez cavab verəcək.

***- Sizin həyatınıza təhlükə varmı?***

- Mən prezidentə müraciət edirəm. Mənim, Lamiyənin başımıza bir iş gəlsə, bu Aslan Aslanovun üzərindədir. Bizim təhlükəsizliyimiz təmin olunsun.

Xatırladaq ki, L.Quliyeva və onun nişanlısı olmuş V.Əliyev 2003-cü ilin mayında, o dövrdə Şəmkirin icra başçısı olan Aslan Aslanovun oğlu Ruslanı öldürməkdə suçlu bilinriblər. L.Quliyeva 10 il, V.Əliyev isə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar. L.Quliyevanın həbs müddəti 2012-ci ildə 5 il 6 ay müddətinə uzadılıb. Əgər bu qərar olmasaydı, 15 yaşında həbs olunan məhkum qadın 2013-cü ilin mayında azad olunmalı idi. Belə iddialar var ki, L.Quliyevanın həbs müddəti A.Aslanovun sifarişi ilə uzadılıb.

**E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015



# İki üstə gəl bir həmişə üç edirmi?

Hüseynbala SƏLİMOV

**Yox, bu dəfə etmədi... Almaniya kansleri Angela Merkellə Fransa prezidenti Fransua Ollandın Rusiya prezidenti Vladimir Putinin başına ağıl qoymaq təşəbbüsü ən azı ilkin informasiyalara inansaq, bir o qədər də məhsuldar, həm də uğurlu olmadı...**

Düzdür, hələ prosesin davamı ilə bağlı müəyyən ümidlər var. Amma inanmırıq ki, onlar konkret bir nəticəyə gətirib çıxarsın...

Avropanın növbəti Yuqoslaviyasına çevrilən Ukrayna hələ güman ki, bir müddət od içində qalmalı olacaq.

Yuqoslaviya sözü burada bir o qədər də uğurlu görünmür. Amma biz bununla müharibənin az qala Avropanın içində baş alıb getdiyinə işarə etmək istəyirdik.

Proses hamıya aydındır. Ukrayna ilə bağlı xəbərlər öz intensivliyinə görə Yaxın Şərqi də ötüb keçib - telekanallar gecə-gündüz bunu göstərirlər. Elə ona görə də biz bu problemin bir daha təfərrüatlarına varmayacağıq...

Bircə onu qeyd etmək istəyirik ki, ABŞ və Avropa strukturları Ukrayna problemi ilə ciddi məşğuldur - ABŞ deyəsən, bu ölkəyə çoxdan vəd olunmuş 15 milyardı da vermək niyyətindədir...

Olsun. Hər halda, Ukraynasız Rusiya, Ukraynasız MDB bizim də maraqlarımıza cavab verir, təbii ki, əgər bu maraqların fərqində olan varsa...

İndi "Putin nə edir? O, nəyə ümid edir?" kimi suallar daha aktual görünür. Bu adamın psixoloji motivasiyasını başa düşmək üçün çox şey edirik.

Hətta bununla bağlı psixologiyadan olan kasad biliklərimizi də səfərbər etmişik, "Edip kompleksi"ndən tutmuş digər psixoloji sxemlərə qədər bütün bilgilərimizi istifadə edirik ki, bu adamı başa düşək...

Amma bu, o qədər də asan məsələ deyilmiş. Düzdür, yada Z.Freydin bir fikri düşür. O, deyirdi ki, insanın davranışı uşaqlıqda topladığı təcrübədən asılıdır.

O da maraqlıdır ki, Z.Freydin sxemləri Rusiya gerçəkliklərinə tətbiq olunanda həmişə maraqlı nəticələr verib. Səhv etmiriksə, o, öz psixo-analizini hətta F.Dostoyevskiyə də tətbiq etmişdi...

Elə E.Fromm da V.Putinə tətbiqən heç də az şey demir. O da yazırdı ki, insan və cəmiyyət həmişə ana bətninə və təbiətlə vəhdətə can atır. Güman ki, V.Putin şüuraltı şəkildə olsa da, SSRİ-nin güclü təəssüratı altındadır. O, öz uşaqlığını SSRİ ilə identifikasiya edir və daim ona can atır...

Bunları niyə görə qeyd edirik? Rusiya sosial baxımdan sağlam ölkə deyil. Hətta rusiyalı müğənni belə "Mənim ölkəm dəli olubmu?" deməyə məcbur olursa, deməli burada nəsə var. ..

Sözsüz ki, indi Rusiyada heç kim psixoloji profilaktika keçirmək niyyətində və imkanında deyil. Amma biz birinci soyuq müharibənin nəticələrini həmişə geosiyasi müstəvidə araşdırırıq. Fəqət, bu, yetərlidirmi?

Güman edirik ki, yox. Soyuq müharibə haradasa yarım əsr davam etdi. Bu, bir nəslin ömrü demək idi...

O, cəmiyyətlərin və fərdlərin düşüncə tərzinin dərin psixoloji qatlarına təsir etdi. Mənə elə gəlir ki, Rusiyaya tətbiqən bu hal özünü daha qabarıq göstərir- cəmiyyət soyuq müharibədən zədələnərək çıxdı...

Sonrakı illərdə əslində bu detal diqqət mərəkəzində olmalı idi, siyasətçilər onu nəzərə almalı idilər...

Amma onlar bunu etmədilər, əksinə cəmiyyəti revanş saatına köklədilər- daim özünü məğlub, incidilmiş kimi hiss etmək gec-tez böyük patologiyalara gətirib çıxarmalı idi...

Bunu ona görə deyirik ki, Rusiyada V.Putin tək deyil. Cəmiyyət onu dəstəkləyir. Bunu açıq etiraf etmək lazımdır. Krım ilhaq olunanda iki səfirin telefon danışığından bir detal verildi.

Bəlkə də bu, zarafat idi. Amma səfirlər deyirdi ki, Alyaskanı da qaytarmağın vaxtıdır...

Ona görə də buna adi bir siyasi göstərici kimi baxmırıq. Geosiyasi analizlərlə hər şey bitsəydi, onda nə vardı ki?.. Amma geosiyasi qarşıdurmaların həmişə iki tərəfi olur-qaliblər və məğlublar. Özlərinin fövqəldövlət olduqlarına inanan ruslar soyuq müharibədən məğlub kimi çıxdılar...

İndi bütün Rusiya cəmiyyəti keçmiş üçün nostalji keçirir. Bu cəmiyyətdə dövlətə qarşı həmişə təmənnasızlıq münasibətləri olub, bir neçə nəslə təlqin edilib ki, insan dövlət və ölkə naminə özünü qurban verməlidir...

Ona görə bu gün baş verən proseslərin də üzərində həmin sosial hipnozun təsirləri duyulur. Üstəlik, təcrid olunmaq da onlar üçün yenilik deyil-acı olsa da, Rusiya cəmiyyətinin bu xüsusda böyük təcrübəsi var, onlar az qala bir əsr "dünya imperializminin əhatəsi"ndə yaşamışdılar... Bu, isə az təcrübə deyildir...

# Mandatsız qalacaq deputatlar...

## Parlamentin hazırkı tərkibi xeyli dəyişəcək

**2015-ci ildə Milli Məclisin tərkibinin 50-60 faiz dəyişəcəyi barədə xəbərlər yayılmaqdadır. Ən böyük dəyişikliyin isə hakim partiyanın siyahısında olacağı gözlənilir. Hətta YAP icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov da mediaya müsahibəsində bir növ dəyişikliyin anonsunu verib. S. Novruzov bir sıra tələblərə cavab verməyən deputatların namizədliyinin irəli sürülməyəcəyini bəyan edib:**

"Hesab edirəm ki, parlament seçkilərində də dəyişikliklər olacaq. Artıq Yeni Azərbaycan Partiyası tərəfindən araşdırmalar aparılıb, yeni bu araşdırmalar beş il ərzində aparılıb. Bu araşdırmaları bir neçə kateqoriyaya bölmək olar. Bu kateqoriyalara seçicilərlə işin təşkili, parlamentdəki fəaliyyət, beynəlxalq təşkilatlardakı fəaliyyət, ictimaiyyətlə əlaqələrin qurulması, qanunvericilik təşəbbüslərinin irəli sürülməsi və s. daxildir. Bütün bunlar tədqiq olunduqdan sonra kimlərin yenidən seçilmək şansının hansı səviyyədə olması, hansı dairədən, hansı kateqoriyadan olan namizədin irəli sürülməsinin daha effektli ola biləcəyi, hansının seçilmə şansının daha böyük ola biləcəyi müəyyənləşdiriləcək. Bu tədqiqatdan sonra müəyyən ediləcək ki, hansı dairədən seçilmiş namizəd artıq seçicinin etimadını doğrultmur və yaxud parlamentdəki təmsilçilik dövründə qanunvericilik təşəbbüsü ilə, ayrı-ayrı məsələlərlə, dövlətçiliklə, dövlətin siyasətinin müdafiəsi ilə bağlı onun apardığı iş qənaətbəxş deyil. Bu halda artıq partiyanın rəhbər orqanları tərəfindən həmin namizədlərin əvəzlənməsi və kimlərin namizədliyinin həmin dairələrdən irəli sürülməsi ilə bağlı təkliflər irəli sürüləcək və bu təkliflər nəticəsində də namizədlər müəyyənləşəcək".

İcra katibinin müavininin açıqlamasından da hiss edilir ki, ötən beş il ərzində Milli Məclisdə təmsil olunan bəzi deputatlar bir sıra tələblərə görə etimadlarını doğrultmayıblar. Belə ki, bir qismin millət vəkili ötən illər ərzində çoxsaylı qalmaqalları ilə gündəmdə qaldı. Bir çoxları isə tamamilə passivliyi ilə yadda qaldı. Ona görə də, böyük ehtimalla, növbəti parlamentə düşməyinə hakimiyyət tərəfindən "stop" deyiləcək hazırkı deputatlar sırasında passiv deputatlar da olacaq. Yaşı 70-dən yuxarı olan deputatların da əksəriyyətinin "pensiyaya" göndəriləcəyi gözlənilir. Eyni zamanda adı qalmaqallarda keçən bir neçə deputatın da payızda keçiriləcək seçkilərdə mandatsız saxlanacağı haqda xəbərlər yayılıb.



"Qafqazinfo.az" saytı parlamentdən kənarda qalacağı gözlənilən deputatların bir qrupunun adını açıqlayıb. Siyahıya adı nurçuluqla bağlılıqda hallanan Ceyhun Osmanlı başçılıq edir. Sonra atası Abbas Abbasovun fəaliyyətinə görə gündəmdə olan Aydın Abbasovun, Rəbiyyət Aslanovanın, uğursuz biznes fəaliyyətlərinə və banklardan külli miqdarda kredit götürüb qaytara bilməyən, vətəndaşları narazı salan, adları son illər müflis millət vəkilləri sırasında çəkilən Fərhad Qəribovun və Rəfael Cəbrayılovun adı mandatsız qoyulacaq şəxslərin siyahısında gedir.

Deputat Ayaz Orucovun oğlunun paytaxtda bir maşını güllə atəşinə tutması, Əsabil Qasımovun ev dələduzluğunda adının hallanmasından dolayı parlamentin qapısının payızda onların üzünə qapadılacağı bildirilir.

Yaşı 70-dən yuxarı deputatlara gəlincə 87 yaşlı Cəlal Əliyev, 78 yaşlı Ağacan Əbiyevin, 77 yaşlı Fəttah Heydərovun, 79 yaşlı Zeynəb Xanlarovanın, 77 yaşlı İlyas İsmayılovun, 73 yaşlı Xanhüseyn Kazımlının, 74 yaşlı Arif Rəhimzadənin, 75 yaşlı Ziyad Səmədzadənin, 75 yaşlı Elxan Süleymanovun, 76 yaşlı Yaqub Mahmudovun hakimiyyətin tövsiyəsi ilə seçkilərə qatılmayacağı deyilir. Onların bir neçəsinin yerinə gənc yaşlı yaxın qohumlarının namizədliyi irəli sürüləcək. Böyük ehtimalla da mandata da həmin yenilər sahiblənəcək.

Bundan başqa, Milli Məclisdə rektor kimi fəaliyyət göstərən millət vəkillərinin də bəzilərinin mandatdan məhrum ediləcəyi haqda məlumatlar var.

Bütün bunlar göstərir ki, heç bir araşdırılma aparılmadan belə qeyd etmək olar ki, Milli Məclisin tərkibində böyük dəyişikliklərin olacağı qaçılmazdır.

Builki seçkilərdə eyni zamanda namizədlərin tərkibində də rəngarənglik olacaq. Bir sıra media rəhbərləri millət vəkili olmaq uğrunda seçkiyə qatılacaqlar.

Qeyd edək ki, yuxarıda adı keçən deputatlardan Rəbiyyət Aslanova bir neçə gün öncə "Yeni Müsavat"a müsahibəsində növbəti seçkilərdə namizədliyinin verilib-verilməyəcəyi barədə danışarkən bildirib ki, bu, ondan asılı bir şey deyil: "Baxarıq. Bunu zaman göstərər, hələ arada bir neçə ay var və hər dəqiqənin bir hökmü var. Ehtiyac bilinərsə, mən YAP-ın üzvüyəm, bu, partiya rəhbərliyi səviyyəsində həll olunan bir məsələdir. Məsləhət bilinərsə, mən həmişəki kimi öz fəaliyyətimi davam etdirərəm. Məsləhət olmazsa... Bütün bu illər ərzində mənə olan bu etimada görə çox böyük minnətdarlıq hissi yaşayıram və həmişə də yaşayacağam. Bunlar mənim taleyimə yazılan ən gözəl illərdir və mən bu illərdə də bir millət vəkili kimi minnətdarlıq hissi yaşayaraq fəaliyyətimi gerçəkləşdirmişəm. Bu olmayacaq, mən yenə də gedib həmişə olduğu kimi elmi fəaliyyətimi davam etdirəcəyəm. Harada, hansı işdə olmağımdan asılı olmayaraq mən yenə də öz mövqeyimdəyəm, YAP-ın üzvü olmağımla fəxr edirəm, qürur yaşayıram. Çünki mən bu partiyaya ulu öndərin partiyaya rəhbərlik etdiyi zamanda daxil olmuşam və yenə də öz fəaliyyətimi davam etdirəcəyəm. Bir də ki, mənim yaşımın da artıq o vaxtı deyil".

66 saylı Biləsuvar seçki dairəsindən seçilən deputat Xanhüseyn Kazımlı da hələ bu barədə danışmağın tez olduğunu deyib. O, yaş həddinin namizədliyə aidiyyətinin olmadığını nəzərə çatdırıb.

Göründüyü kimi, hər iki deputatın özlərində belə, növbəti seçkilərdə iştirak edib-etməyəcəkləri barədə əminlik yoxdur.

❑ E.SEYİDAĞA

# Hökumətin "kəmərsıxma" siyasəti "paket maaş" alanları da vurdu

## Vüqar Bayramov: "Bu il "paket maaşlar"ın və 13-cü əməkhaqlarının veriləcəyi gözlənilmir"

**Son aylarda dövlət qurumlarında çalışanların rəsmi əmək haqqından əlavə aldıqları "paket maaşlar"ın verilməsi ilə bağlı problem yaşanır. Daxil olan məlumatlara görə, əksər qurumlarda "paket maaşlar" ləğv olunub. Bunun səbəbi isə neft gəlirlərinin azalması ilə əlaqədar hökumətin "kəmər sıxma" siyasətinə keçməsidir.**



Mövcud durumu təhlil edən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, bu, məqbul bir addımdır və vergidən yayınan vəsaitlərin həcminin azalmasına gətirib çıxaracaq: "Paket maaşlar"ın verilməsi həm də dövlət sektoru ilə özəl sektor arasında müəyyən bir diskriminativ münasibətin yaranmasına səbəb olur. Bu baxımdan, "paket maaşlar"ın ləğvi məqsədəuyğundur. Dövlət qurumlarında çalışan şəxslərin əməkhaqları "paket maaşlar"ına uyğun şəkildə rəsmiləşdirilsə, vergiyə cəlb olunma baxımından, daha yaxşı olar. Nəzərə alsaq ki, neftin qiyməti aşağı düşüb, bu baxımdan, dövlət büdcəsindən maliyyələşən qurumlarda verilən əlavə vəsaitlərin ləğv ediləcəyi əvvəldən proqnozlaşdırılırdı. Ötən ilin sonlarından başlayaraq, büdcə daxilolmalarında azalmalar var və hökumət bəzi xərclərdən yayınaraq, qənaət etmək məcburiyyətindədir. Ancaq bu ilin dövlət büdcəsinə nəzər salsaq, "paket maaşlar"ın ləğv edilməsinə baxmayaraq, digər vəsaitlərin ödənilməsində problem olmayacaq. Ancaq "paket maaşlar"ının və 13-cü əməkhaqlarının veriləcəyi gözlənilmir. Bu tipli qeyri-leqal ödənişlər ləğv ediləcək. Ancaq dövlət qurumlarında rəsmi əməkhaqlarının ödənilməsi ilə bağlı problem olmayacaq".

Vüqar Bayramov onu da bildirdi ki, hökumətin büdcəyə qənaətlə bağlı atdığı addımlar sırasında işçilərin ixtisarı və paralel qurumların ləğvi məsələsi də mühüm yer tutur: "Azərbaycanda struktur islahatlarına ehtiyac var və bu cür islahatların aparılması, əslində, bizim hazırladığımız "Azərbaycan Respublikasının Antikorrupsiya Strategiyası" layihəsində yer alıb. Biz bir sıra qurumların ləğvini təklif etmişdik. O, cümlədən, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilərək, Əmlak Məsələləri Komitəsinə birləşdirilməsi də bu təkliflərdən biri idi. Həmin təkliflər sırasında enerji və su sektorunda idarəetmənin təmərküzləşməsi, vahid qurumun yaradılması və digər islahatların aparılması da var idi. Artıq hökumət həmin təkliflərin reallaşmasına can atır. Dövlət gəlirlərinin azalması fonunda bu islahatların aparılması qaçılmazdır".

❑ Nərgiz Liftiyeva

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015

# "Ağ Ev Azərbaycanın Rusiyaya üz tutacağından narahat deyil"

## Asim Mollazadə: "Yaxın günlərdə ABŞ-dan Azərbaycana böyük bir nümayəndə heyətinin səfəri də nəzərdə tutulub"

**"Baxış bucağı"**

**ABŞ-Azərbaycan münasibətlərində aylardan bəri hökm sürən gərginliklər, "soyuq müharibə" elementləri son bir neçə həftədə arxada qalmış kimi görünür. Sanki okeanın o tayında artıq Bakını təhdid edən mesajlara moratorium qoyulub, üstəlik Azərbaycanın təbliğinə yönəlik yazılar Amerikanın aparıcı qəzetlərində işıq üzü görməkdədir. Münasibətlərdəki yeni mərhələnin yarandığı, Bakı ilə Vaşinqtonun anlaşdığı barədə rəylər də var. Bütün bunlar barədə həmkarı Səməd Seyidovla birgə ABŞ səfərindən yenicə qayıtmış deputat, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ilə danışdıq.**

***- Asim bəy, Amerika səfərinizi zəruri edən nə idi?***

- Səfərimizin məqsədi Şərqi Tərəfdaşlıq və ABŞ-Avropa münasibətlərinə həsr olunmuş Atlantik Şuranın konfransına qatılmaq idi. Bununla yanaşı Vilson Mərkəzində Avropanın enerji təhlükəsizliyinə həsr olunmuş konfransda iştirak etdik. Eyni zamanda ABŞ Dövlət Departamenti və Konqresdə görüşlər keçirildi. "Vaşinqton Tayms"ın Azərbaycan-Amerika münasibətlərinə həsr olunmuş dəyirmi masasında iştirak etdik. Bu dəyirmi masada həm də medianın araşdırma mərkəzlərinin nümayəndələri iştirak edirdi.

***- Amerika mətbuatında Azərbaycanın təbliğinə həsr olunan yazıların dərci sizin səfərinizlə üst-üstə düşdü. Burada sizin görüşlərinizin nə dərəcədə rolu oldu?***

- Bu cür görüşlər mütəmadi olmalıdır. Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq çərçivəsində daha çox inkişaf etməlidir. Amerika cəmiyyəti hər zaman belə bir diqqəti tələb edir. Biz həmişə nəzərə almalıyıq ki, Amerikada Azərbaycana, Türkiyəyə qarşı erməni lobbisi və diasporasının yalan, iftiralar kampaniyası var. Onun üçün də Azərbaycan gərək münasibətlərini inkişaf etdirmək üçün tərəfdaşlığa həsr olunmuş görüşlər, fikir mübadilələrini mütəmadi keçirməlidir. Ona görə də bizim bu səfərimiz zamanı da çoxsaylı görüşlərimiz oldu. Münasibətlərin daha da normallaşdırılması həm Azərbaycanın, həm Amerikanın maraqlarına uyğundur, həmçinin bizim ölkəmizin strategiyasına uyğundur. İnanıram ki, bu səfər ölkələrimizin arasındakı münasibətlərin inkişafına xidmət edəcək. Məncə, Azərbaycan haqqında müsbət yazılar ən azı media ilə görüşlərin, fikir mübadilələrinin nəticəsi idi. Biz hər zaman ABŞ-da diqqətə çatdırırıq ki, Azərbaycan həm geosiyasi yerinə, Avropanın, digər Amerika müttəfiqlərinin enerji təhlükəsizliyinə görə, antiterror koalisiyasının çox fəal üzvü olmasına görə fərqli bir ölkədir. Həm də bizi ABŞ-la birləşdirən bir çox maraqlar var.

Bununla yanaşı, Azərbaycan tarixən İslam dünyasında dünyəvi dövlət olduğuna görə bütün müsəlman dünyası üçün bir növ mayak rolunu oynayıb. Həmçinin Mustafa Kamal Atatürkün tutduğu strategiya Azərbaycanda çox ciddi qorunur. Azərbaycan təhlükəsizlik, enerji məsələləri ilə yanaşı, öz mədəniyyəti və sivilizasiyaların əməkdaşlıq təcrübəsinə sadiq olduğuna görə bu gün dünyada çox xoşagəlməz proseslərdən çıxış yolu ilə nümunə göstərir.

***- Amma güman ki, Amerika dövləti Azərbaycanla bağlı heç də məlumatsız deyil...***

- Rəsmi səviyyədə çox məsələləri bilir. Amma ABŞ-ın Azərbaycan barədə məlumatlar ən azı ictimaiyyətdə, fəal mediada çox azdır. Hər şeyi bilən adamların çevrəsi çox dardır. Ona görə də media ilə, ictimai təşkilatlar, araşdırma mərkəzləri və aparıcı siyasətçilərlə mütəmadi görüşlərin keçirilməsi mütləq vacibdir. Azərbaycan parlamentinin ABŞ-la Dostluq Qrupunun fəaliyyəti daha da gücləndirilməlidir. Həm onlar gəlib Azərbaycanla tanış olmalıdırlar, həm də biz ABŞ-da Azərbaycanın strateji maraqlarını daha da diqqətə çatdırmalıyıq. İkili standartlar, Azərbaycana qarşı haqsızlıqlar, xüsusilə də Qarabağ məsələsinə münasibətlə bağlı daha çox fikir mübadiləsi aparılmalıdır. Bu gün Ukrayna ilə bağlı bütün ölkələr ciddi müzakirələr aparır. Amma Ukrayna hadisələri ona görə baş verdi ki, Qarabağ məsələsi ilə bağlı zəruri qərarlar olmadı, addımlar atılmadı.

**"Azərbaycanın hədəfə götürülməsinin səbəbi ondan ibarətdir ki, demokratiya, insan haqları adından istifadə edərək Azərbaycanın Qərb ölkələri, Avropa və Amerika, NATO ilə münasibətlərini pozsunlar"**

***- Azərbaycanın AŞPA-da Rusiya ilə bağlı sanksiya qərarının əleyhinə çıxması ABŞ-da necə qarşılanır?***

- Çox normal qəbul edilir və düzgün hesab olunur. Azərbaycanın Avropa Şurasında, ümumiyyətlə bütün beynəlxalq təşkilatlarda mövqeyi budur: biz Ukraynanın ərazi bütövlüyünü tanıyırıq, müstəqilliyinə hər zaman dəstək veririk. Ancaq deyirik ki, Rusiyaya qarşı sanksiyalar varsa, bu sanksiyalar ilk növbədə Azərbaycanın ərazisini işğal edən Ermənistana qarşı olmalıdır.

Amma ABŞ-da, Avropadakı zəngin erməni diasporu xeyli ədalətsiz qərarlara səbəb olub. Ona görə də bu, Azərbaycanın əlində gözəl bir fürsət idi ki, yenə də Qarabağ məsələsindəki haqsızlığı gündəmə gətirdi.

***- Ağ Evin yüksək çinli məmurlarından kimlərlə görüşdünüz, Kerri, yaxud Bayden səviyyəsində?***

-Yox, Kerri ilə görüş olmayıb. Amma Səməd müəllimin Con Baydenlə görüşü olub. Con Bayden Şərqi Avropadan nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb. Bu cür görüşlər mütəmadi olmalıdır. Yaxın günlərdə ABŞ-dan Azərbaycana böyük bir nümayəndə heyətinin səfəri nəzərdə tutulub. Əminəm ki, belə bir səfərlər, açıq təmaslar strateji tərəfdaş olan ölkələr arasında mütəmadi olmalıdır.

***- Yəqin ki, Vaşinqton görüşlərinizdə demokratiya, insan haqları da əsas müzakirə mövzularından olub...***

- Təbii, bu məsələlərlə bağlı müzakirələr oldu. Məncə, Azərbaycan-Amerika münasibətlərində tam açıqlıq, şəffaflıq və mütəmadi fikir mübadiləsi olmalıdır. Bu məsələlərlə bağlı müəyyən fikir ayrılığı var. Amma inanıram ki, Vaşinqton bu istiqamətdə Azərbaycanda olan geostrateji vəziyyəti anlayaraq bizim ölkəmizə qarşı Amerikada aparılan kampaniyanın qarşısını almağa çalışacaq. Müşahidə etdik ki, tədbirlərdə 5-10 erməni təşkilatının nümayəndələri guya Azərbaycanın demokratiya problemlərindən danışırdılar. Amma əslində bu, arxasında erməni lobbisinin Azərbaycana qarşı olan mübarizəsinin təzahürü idi. Bu il ermənilər qondarma "soyqırım"ın 100 illiyi ilə bağlı yüz milyonlarla vəsait xərcləyirlər. Hədəf həm də Azərbaycandır. Hər bir postsovet ölkəsində demokratiya mövzusu ilə bağlı problemlər var. Amma Azərbaycanın hədəfə götürülməsinin səbəbi ondan ibarətdir ki, demokratiya, insan haqları adından istifadə edərək Azərbaycanın Qərb ölkələri, Avropa və Amerika, NATO ilə münasibətlərini pozsunlar. Ancaq mən əminəm ki, hər bir ölkə və xalq demokratiya yolunu özü seçir. Azərbaycanda da demokratik cəmiyyətin qurulmağı da Azərbaycan xalqının qarşısında duran bir hədəfdir və bu istiqamətdə də işlər getməlidir. Əminəm ki, Azərbaycan bu yolu uğurla keçəcək.

***- Bu gün Azərbaycanda Amerikanın yalnız səfirliyinin qalması okeanın o tayında necə dəyərləndirilir? Bakıdakı təsisatların qapadılması ciddi narahatlıq doğururmu?***

- Bu istiqamətdə fikir mübadilələri aparıldı. Hansısa məsələlərdə fikirlər üst-üstə düşdü, hansısa məsələlərdə isə fikir ayrılıqları qalıb. Ən azı işlər davam etdirilməlidir. Bizim də istəyimiz budur ki, hər bir məsələdə şəffaflıq olmalıdır, hüququn aliliyi bütün proseslərin təməlində dayanmalıdır.

***- Konkret Azadlıq Radiosunun fəaliyyətinin bərpası, Xədicə İsmayılın, həmçinin digər tanınmış məhbusların azadlığı mövzusunda tələb, xahiş, istək oldumu?***

- Radio bağlanmayıb, axı, fəaliyyət göstərir. ABŞ-da da bu cür məsələlərin məhz hüquqi müstəvidə həlli ilə bağlı fikir mübadiləsi aparıldı. Elə Amerikada hətta sərt ittihamlarla kimsə həbs olunursa, bu məsələ ancaq məhkəmə araşdırması və cəmiyyətə zəruri məlumatların verilməsi çərçivəsində həll olunur. Biz də düşünürük ki, Azərbaycanda şəffaf mühitin təminatı və hüququn aliliyi bütün məsələlərdə öndə gəlməlidir.

***- Azərbaycana qarşı sanksiya tətbiqinə çağıran keçmiş səfir Kozlariçlə görüşdünüzmü?***

- Yox, onunla görüş olmadı. Sovet İttifaqı dağılandan görmüşük ki, radikalizmin arxasında hər zaman ya şəxsi münasibət, ya da hansısa digər amillər durur. Mən özüm şahidi oldum ki, erməni təşkilatları və digər Azərbaycanı istəməyən ölkələrin lobbiçiləri ölkəmizə qarşı çox canfəşanlıq edir.

***- Deməli, məntiqlə bəzi addımlar atmaq lazımdır ki, onların da bəhanələri kəsilsin, razısınızmı?***

- Mən, təbii, razıyam. Bütün bu problemlərin həlli şəffaflıq və hüququn aliliyindən keçir.

***- Hesab etmək olarmı ki, ABŞ-Azərbaycan arasındakı son aylardakı "buzlaşma" dövrü arxada qalıb və münasibətlərin yeni mərhələsi başlayıb?***

- Mən ümidvaram ki, bu münasibətlər inkişaf edəcək. Azərbaycanla Amerika strateji tərəfdaşdır və bu tərəfdaşlıq da çoxşaxəli inkişaf etməlidir. Ən azı buna çalışmalıyıq, bu istiqamətdə ciddi işlər aparılmalıdır. Bu işlər də qarşılıqlı olmalıdır, ABŞ-da Azərbaycanın dostlarının sayı artmalıdır, müvafiq işlər görülməlidir. ABŞ Konqresində də Azərbaycan dostlarının dairəsi genişlənməkdədir. Ştatlarında da Azərbaycanı daha yaxşı tanımağa başladılar. Bu ştatların rəhbərliyi Azərbaycanla Amerikanın bilavasitə ştatlarının da hətta əməkdaşlığının tərəfdarlarıdır. Biz daha çox işləməliyik, ölkəmizi daha yaxşı tanıtmalı, ölkəmizə qarşı olan haqsızlığın da qarşısını almalıyıq. Xüsusilə fevral bu istiqamətdə çox önəmli aydır. "Xocalıya ədalət" kampaniyasını dünyada ciddi şəkildə aparmalıyıq və xalqımıza qarşı cinayətlərə hüquqi qiymət verilməsinə çalışmalıyıq.

***- Zaman-zaman ABŞ-da ziyafətlər verilib, pullar xərclənib. Belə çıxır ki, Azərbaycanın elementar tanıtımı da həyata keçirilməyibmiş?***

- Kim necə bacarır, elə də işləyir də.

***- Azərbaycanın Rusiyaya üz tutacağından dolayısı Ağ Evin narahatlığı varmı?***

- Mən belə bir narahatlıq görmədim. Hamı gözəl anlayır ki, Azərbaycan çox ağır bölgədə yerləşir və Azərbaycana qarşı çox ciddi haqsızlıqlar olub. Azərbaycanın müstəqilliyini istəməyən, onun önəmli layihələrinə qarşı çıxan qüvvələr var. Mən çox istərdim ki, dünyada Azərbaycanın rolu artsın, ancaq sadəcə enerji və nəqliyyat dəhlizi məsələsində deyil. Azərbaycanın dəyərləri, mədəniyyəti də dünyaya açılmalıdır, buna da imkanlarımız var.



**"Vaşinqton görüşlərində demokratiya, insan haqları ilə bağlı müzakirələr oldu"**

***- Bildiyimizə görə, amerikalı həmsədrlə görüşünüzdə Kəlbəcər girovlarının azadlığı məsələsindən də danışılıb. ABŞ bu prosesdə aktiv rol alacaqmı?***

- Mən səfərdən sonra Kəlbəcər girovları ilə bağlı hətta reaksiyanı, Uorlikin bəyanatını da gördüm. Bu məsələni həm ABŞ, həm Avropa ölkələrində, həm də dünyanın digər ölkələrində ictimaiyyətin diqqətinə çatdırmaq lazımdır. Biz elə çalışmalıyıq ki, onlar Kəlbəcər girovlarının azad olunması istiqamətdə mövqelərini davamlı şəkildə ortaya qoysunlar.

***- Deputat həmkarınız Yevda Abramov da böyük bir heyətlə, yəhudi təmsilçilərlə Amerikaya səfər etmişdi. Hesab olunur ki, Azərbaycan lobbisi ABŞ-da ciddi fəaliyyətə start verib. Bu, belədirmi?***

- Ən azı işləməliyik. Sizə deyim ki, Azərbaycan-İsrail münasibətləri, eyni zamanda Azərbaycanda yaşayan yəhudi icmasının da bu istiqamətdə çox mühüm fəaliyyəti var. ABŞ-da fəaliyyət göstərən yəhudi təşkilatları Azərbaycanı dünyanın nümunəsi kimi təbliğ edir. Mən özüm Amerika mediasında müvafiq məqalələrlə çıxış etmişəm. Fikrimcə, onlar Azərbaycanı öz təbii müttəfiqləri hesab etdiklərinə görə, Azərbaycanın dünyadakı önəminə böyük əhəmiyyət verirlər.

***- ABŞ səfiri Bakıya nə zaman gəlir? Yeni səfirlə görüşdünüzmü?***

- Yox, səfirlə görüşmədik. Yeni səfir fevralın 12-də Bakıya gələcək. Mən əminəm ki, səfirin Bakıda fəaliyyəti səfirliyin fəaliyyətini gücləndirəcək və ABŞ-Azərbaycan münasibətlərinə öz müsbət töhfəsini verəcək.

❑ **Elşad PAŞASOY**



# Əsrarəngiz keçid

Zamin HACI
zaminhaci@gmail.com

**Dörd-beş gün qabaq dövlət başçısı Neftçalada sənaye məhəlləsinin yaradılması ilə bağlı sərəncam imzaladı. Sərəncamda deyilirdi ki, 10 hektar torpaq ayrılsın, 2 ay ərzində rayonun o hissəsində qeyri-neft sektoruna aid kiçik, orta müəssisələr yaradılması üzərində işlər aparılsın və sair.**

Bu sərəncamda rayonun adı mənim diqqətimi çəkdi. Çox rəmzi idi: hakimiyyət neft pulları azalanda Neftçalanı yada salmışdı. Neft çalasında boğulan iqtisadiyyatımız üçün bu sənaye məhəlləsinin bir dəyəri olacaqmı? Çətin ki. Biz son 20 ildə o qədər fürsətlər itirmişik, sayı-hesabı yoxdur. İndi də gecdir. Çağdaş dünya ilə ayaqlaşan hansı məhsulu bazara çıxarda bilərik? Bəlkə kələm dolması və milli mentalitetimizi bağlamaya büküb qırıq-qırıq sataq? Ya da tar-kamanın balacasını, miniatür fiqurlarını Avropaya kütləvi ixrac edək?

Neftçalada yaradılacaq sənaye obyektinin adı da məzəlidir. Gördüyünüz kimi, məhəllədən söhbət açılır. Halbuki, qabaqlar - peykimiz kosmosda şırım açan, neft pulları aşıb-daşan çağlarda yapistlər zırpı sənaye parkları yaratdıqlarını elan edərdilər. Sumqayıt Sənaye Parkı, Balaxanı Sənaye Parkı, nə bilim, südçülük kolxozu, atçılıq zavodu... İndi məhəllə qayırırıq. Hərçənd o parkların ölkə iqtisadiyyatına nə verməsi, oralarda ümumiyyətlə hansısa işlərin görülməsi kosmik-hərbi-mistik sirr kimi bir şey idi, məlum deyildi həmin virtual parkların xəyali zavod və fabriklərində neçə adam çalışır, hansı məhsul buraxılır, dövlət büdcəsinə nə qədər vergi ödənir və sairə. Məsələn, kimsə bir dəfə yazmışdı ki, Sumqayıt Sənaye Parkında cəmi 200 adam işləyir. Yəni, bir qatıq kombinatının işçi sayı qədər. Yaxud, Balaxanı Sənaye Parkı deyilən məkanın əslində zibil emalı zavodu olması şübhələri vardı. Onun da nə qədər iqtisadi önəmi var - gizli qalmışdır.

Hər halda, buna da sevinirik, heç olmazsa nəsə iş görülür, Brejnevin vaxtındakı kimi, pərdələri yelləyirlər, qatar dağılıb dayansa da. Təxəyyül gücümüzü işə salaraq Neftçala sənaye məhəlləsində tində oturub təsbeh çevirən, meyxana deyən gənc fəhlə sinfini gözümüz önündə canlandıra bilərik. Axı məhəllə bizim təsəvvürümüzdə məhz belə yerdir.

Bugünlərdə Xətai rayonunda açılan, AzərTAc-ın xəbərində adı "Şəlalə kompleksi" kimi verilən obyekt də yetərincə maraqlıdır. Münhen təhlükəsizlik konfransı ilə Xətaidəki şəlalənin açılışında iştirakı bir həftənin içərisinə yerləşdirmək insandan güclü enerji tələb edir. Şəxsən məni gülmək tutardı. Şəlalə kompleksi isə uzunluğu 100 metrə çatan su arxından ibarət idi, mən bunun fotosunu gördüm. Bu yüz metrlik arxın içindən orda-burda yarım metr hündürlüyə su püskürürdü. Vəssalam, kompleks bu imiş.

Ey gidi dünya, vaxt var idi oxuyan, çalıb-oynayan, nə bilim, dombalaq aşan şəlalələr zəhmətkeşlərimizin və şəhərimizin nəğməli qonaqlarının ixtiyarına verilirdi, indi isə çox sadə şəlalə düzəldilir. Bəyəm bununla bizim başımızı aldatmaq olar? Biz doğruçu şəlalə kompleksi istəyirik. İstəyirik şəlalə "Segah" oxusun, Evrovizion-da iştirak eləsin. Yoxsa millət kompleksə girə bilər, düşünər daha respublikamızın analoqu var.

Elə Atatürk prospektində hardasa bir aydan çoxdur istifadəyə verilən yerüstü keçidin lent kəsmə mərasiminin olmaması yarıtmaz haldır. Camaat düşünə bilər ki, artıq bizim respublikada keçidlər dövlət səviyyəsində diqqətə layiq görülmür, konstitusiyadan çıxarılıb. Özü də mən fikir verməmişəm, bu keçidin altında əsrarəngiz işıqlar quraşdırıblar. Göy, qırmızı, yaşıl, mavi, sarı işıqlar sayrışır. Sanki kosmosa qapıdır. Keçidin bu başından girəndə Venera planetindən çıxırsan. O biri başından girəndə Andromeda dumanlığında azırsan. Ortada dayansan Avstraliyaya düşürsən.

Qaranlıq gecələrdə hər birinizi o keçidin seyrinə dəvət edirəm.



# Yeni ABŞ səfirinin gəlişi öncəsi Bakıya orijinal sürpriz

## Hakimiyyət üçün ziddiyyətli bir həftə başlayır; iki gün sonra cənab Sekuta öz missiyasına başlayacaq; eyni vaxtda isə Konqresdə ölkəmizdə insan haqlarına dair dinləmələr nəzərdə tutulub...

**Bu həftə Azərbaycan-ABŞ münasibətlərinə əhəmiyyətli təsir göstərə biləcək iki hadisə gözlənilir. Onlardan birinin anonsu artıq verilib. Biri odur ki, fevralın 12-də ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekuta Bakıya gələcək və öz diplomatik missiyasına başlayacaq.**

Qeyd edək ki, Sekuta hələ ötən yay öz postunu vaxtından əvvəl tərk eləmiş, həm də qalmaqallı açıqlama ilə tərk eləmiş sələfi Riçard Morninqstarı əvəzləməlidir. Təkcə əvəz eləməməli, eyni zamanda ikitərəfli münasibətlərdə həmin açıqlamadan dolayı yaranmış soyuqluğu aradan qaldırmağa nail olmalıdır.

Ötən yazılarımızın birində qeyd eləmişdik ki, Robert Sekuta Bakıya barışla gəlir və bunu da ən əvvəl onunla əsaslandırmağa çalışmışdıq ki, hazırda Birləşmiş Ştatlar və Azərbaycan bir-birinə heç vaxt olmadığı qədər ehtiyac duyur, bu ehtiyac fonunda isə universal dəyərlər bir az da ikinci plana sürüşmüş kimidir.

Hər halda, səfirin gəlişi Azərbaycan da daxil, bütövlükdə Cənubi Qafqaz ətrafında kifayət qədər qəliz proseslərin getdiyi dönəmə təsadüf edir. Sekutanın səfirlik dövrü (nəzəri olaraq 3 il) heç şübhəsiz, iki ölkə münasibətləri tarixinə həlledici müddət kimi düşəcək. Önümüzdəki bir neçə ildə, mümkündür ki, hətta 2015-ci il Azərbaycanın xarici siyasət oriyentasiyasında mühüm dəyişiklik baş versin. Bu dəyişikliyi diktə edən ən önəmli faktor ABŞ-Rusiya münasibətlərinin Ukrayna böhranı səbəbindən sürətli inkişaf dinamikasıdır, Qərbin getdikcə sərtləşən sanksiyalar siyasəti və yeni "soyuq savaş"ın cari ildə pik nöqtəyə çatma ehtimalının reallığıdır.

Yeni səfirin fəaliyyətində bu amillər, sözsüz ki, mərkəzi yer tutacaq. Deməli, Azərbaycana, onun daxili və xarici siyasətinə, strateji seçim məsələsinə Birləşmiş Ştatların yanaşmasında həmin amillərdən doğan özünəməxsus ştrixlərin vurulmasının şahidi ola bilərik. O sırada Dağlıq Qarabağ ixtilafının həll perspektivi üçün Ukrayna kontekstində təzə və optimal bir geosiyasi müstəvinin cızılacağı istisna deyil.

Bu xüsusda ABŞ-ın Ermənistandakı yeni səfiri Riçard Maylzın Azərbaycandakı təzə səfir Sekuta ilə eyni vaxtda Ermənistana yola düşməyə hazırlaşması da diqqət çəkir. O da bu həftə öz missiyasına başlayacaq. Sözgəlişi, cənab Maylz yola düşməzdən qabaq ABŞ Konqresindəki andiçmə zamanı Ermənistandakı fəaliyyətində prioritet məsələ kimi amerikalı həmsədr Ceyms Uorliklə koordinasiyalı şəkildə Qarabağ probleminin həllinə böyük diqqət ayıracağını bəyan edib.



***

Bu həftə Azərbaycanla bağlı ikinci mühüm hadisə isə ABŞ Konqresində ölkəmizdə insan haqlarına dair keçiriləcək dinləmələr olacaq. Dinləmələr Konqresin Nümayəndələr palatasının xarici əlaqələr komitəsinin xarici siyasət altkomitəsində keçiriləcək. "Azərbaycan-ABŞ: təhlükəsizlik, energetika və insan haqları" mövzusunda reallaşacaq bu dinləmələrdə tanınmış ekspertlər, diplomatlar və təhlilçilər iştirak edəcək.

"Turan"ın Vaşinqton müxbirinin verdiyi xəbərə görə, məruzəçilər sırasında ABŞ-ın Bakıdakı sabiq səfiri, hakimiyyətin sərt tənqidçilərindən sayılan Riçard Kozlariç, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz institutunun eksperti Odri Olştad və başqaları olacaq.

Yəni söhbət əslində Sekutanın Bakıya gəlişinin yaradacağı pozitiv siyasi effekti hara-dasa azaldacaq bir tədbirdən gedir. Dinləmələrin vaxtının məhz bu həftəyə təyin edilməsinin təsadüf olub-olmadığını söyləmək çətindir, ancaq Bakı-Vaşinqton münasibətlərində yaranmaqda olan ılıqlaşma tendensiyası ilə o, ziddiyyət təşkil edir.

Yenə bu, hansısa QHT-nin təşəbbüsü olsaydı, onun nəticələri ikinci dərəcəli sayıla bilərdi. Ancaq bu, Konqresin alt komitəsinin rəsmi tədbiridir. Ola bilsin, bununla Konqres Obama hökumətinin təmsilçisi kimi səfir Sekutaya Azərbaycana səfər öncəsi konkret mesaj ünvanlamaq istəyir. O mənada ki, yeni səfir öz fəaliyyətində Azərbaycanda insan haqlarını xüsusi diqqətdə saxlasın.

Unutmayaq ki, ABŞ Konqresi "Azadlıq" və "Amerikanın səsi" radiolarını maliyyələşdirir və heç şübhə yox ki, dinləmələrdə konkret olaraq "Azadlıq" radiosunun Bakı bürosunun bağlanması, onun rəhbəri Xədicə İsmayılın hansı məsələlər də müzakirə ediləcək - özü də Xədicə İsmayılın həbsindən, radionun Bakı bürosunun bağlanmasından sonra ilk dəfə olaraq.

Səfirin səfər ərəfəsi təsadüfmü?

❑ **Siyasət şöbəsi**

# Saakaşvilidən antiqərb bəyanatı

## "Bizi aldatdılar, Ukraynanı da aldadırlar..."



**Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili Fransa Prezidenti Fransua Olland və Almaniya kansleri Angela Merkelin Putinlə görüşünü qeyri-adi qəbul edib. Axar.az xəbər verir ki, Saakaşvili Merkel və Ollandın Moskvaya Ukraynanı müzakirə etməyə getdiklərini, ancaq orada Ukraynadan söhbət getmədiyini bildirib.**

Saakaşvili üçtərəfli görüşdə yalnız Donetskin müzakirə edildiyini qeyd edib: "Merkel və Ollandın Putinlə görüşü qəribə təəssürat oyadırdı. Onlar da Gürcüstan olmadan Rusiya ilə müqavilə imzalamışdılar. Bu səbəbdən də Ukraynasız Donetskdən danışmaq qəribədir".

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015

# İlham Əliyev: “mənim Ermənistana mesajım budur...”

**Azərbaycan prezidenti İlham Əliyev 51-ci Münhen Təhlükəsizlik Konfransında iştirakını davam etdirir. O, konfrans çərçivəsində “Ukraynadan əlavə - Avropada həll olunmamış münaqişələr” mövzusunda paneldə iştirak edib. APA-nın xəbərinə görə, İlham Əliyev paneldə çıxış edib, daha sonra sualları cavablandırıb.**




# Azərbaycan prezidentindən savaş bəyanatı - “...erməni öldürülmək istəmirsə...”

## “Erməni əsgər Ağdamda nə axtarır, əgər o öldürülmək istəmirsə, qoy Ağdama getməsin...” deyən ölkə başçısı Münhendə bir daha işğalçının torpaqlarımızdan çıxmasını tələb elədi; prezidentin Qarabağ bəyanatına qazilər, müxalifət və siyasi ekspertlərdən ilginc reaksiyalar gəldi...

“Vestnik Kavkaza” agentliyinin məlumatına görə, tədbirə qatılan Ermənistan nümayəndəsi Azərbaycan prezidentinə müraciət edərək, Azərbaycan Ordusunu ermənilərin mövqelərini atəşə məruz qoymaqda və cəbhə bölgəsində gərginliyin artırılmasında ittiham edib. İlham Əliyev isə bildirib ki, günahı həmişə bizim üstümüzə atmaq erməni tərəfinin taktikasıdır: “Onlar bizim əraziləri işğal ediblər, beynəlxalq hüququ pozublar, Xocalıda soyqırım törədiblər, bizim tarixi, dini abidələrimizi məhv ediblər və bundan sonra günahı bizim üstümüzə atırlar. Lakin məsələ ondan ibarətdir ki, erməni əsgər Azərbaycanın işğal olunmuş ərazilərində nə edir? Erməni əsgər Ağdamda nə axtarır? Əgər o öldürülmək istəmirsə, qoy Ağdama getməsin. Qoy İrəvanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin ölkənizdə özünüz üçün yer kifayət qədərdir, orada onsuz da elə də çox adam qalmayıb. Bəs siz Ağdamda, Füzulidə nə edirsiniz?”

Dövlət başçısı Ermənistanın vəziyyəti gərginləşdirməsi ilə bağlı konkret misal da çəkib. Prezident ötən ilin vasitəçilərin danışıqlarda aktivliyi baxımından çox diqqətəlayiq olduğunu vurğulayıb və Vladimir Putinin avqust ayında Sarkisyanla onun görüşünü təşkil etməsini xatırladıb: “Sentyabrda isə Kerri Ermənistan prezidenti və mənim aramda danışıqlar raundu təşkil edib. Nəhayət, ötən il oktyabrın sonunda prezident Olland bizi Parisə dəvət etdi. Orada mən deyərdim ki, əla, çox konstruktiv görüş oldu. Hər iki tərəf o zaman bu görüşün uğurlu olduğunu bəyan edərək, qoşunların təmas xəttində gərginliyin azalmasına səy göstərəcəklərini vəd etdilər. Bəs sonra nə baş verdi? On gün keçməmiş Ermənistan Ağdam da daxil olmaqla işğal olunmuş ərazilərdə irimiqyaslı hərbi təlimlərə başladı. Ermənistan tərəfinin məlumatına görə təlimlərə 47 min hərbçi cəlb olunmuşdu. Onlar işğal olunmuş ərazilərdə hərbi texnika, aviasiya, helikopterlərdən istifadə etməklə manevrlər həyata keçirirdilər. Üç gün bizim ordu səbr nümayiş etdirərək, heç bir reaksiya vermədi, lakin sonradan ermənilər Mİ-24 döyüş helikopterləri vasitəsilə Azərbaycan Ordusunun mövqelərinə hücuma keçdilər. Bizim ordumuz cavab verməli oldu, helikopterlərdən biri vuruldu və bu, Azərbaycanı ittiham etməkdən ötrü Ermənistan üçün əsas oldu. Yəni, onlar təxribat törədərək gərginliyin azaldılmasına bu qədər səy göstərmiş Fransa, Rusiya və ABŞ liderlərinə hörmətsizlik nümayiş etdirdilər. Onlar düşünürlər ki, onlara nə sərf edirsə, onu edə bilərlər və heç kim onları cəzalandırmayacaq. Bu onların davranışının əsas səbəbidir. İndi də eynilə günahı Azərbaycanın üstünə atırlar və "atəş açmayın" deyirlər. Beləliklə, mənim Ermənistana mesajım budur: İşğala son qoyun, siz işğala son qoyduğunuz andan etibarən sülh, qarşılıqlı təmas və barışıq bərqərar olacaq. Və bunun baş verməməsinin səbəbi erməni əsgərinin Ağdam və Fizulidə olmasıdır".

Qeyd edək ki, panel Sloveniyanın prezidenti Borut Pahorun sədrliyi ilə keçirilib. Müzakirələrdə Serbiyanın baş naziri Aleksandr Vuçiç, Gürcüstanın baş naziri İrakli Qaribaşvili, Xorvatiya baş nazirinin birinci müavini, xarici və Avropa işləri üzrə nazir Vesna Pusiç də iştirak ediblər. Maraqlısı odur ki, Gürcüstanın baş naziri də tədbirdəki çıxışında “Gürcüstan işğal olunanda NATO hardaydı” məzmunlu ritorik sual ünvanlayıb.

Azərbaycan prezidentinin sensasiyalı çıxışı isə ölkəsində ciddi rezonans doğurub. Öncə burada bir zəruri qeydi etmək lazım gəlir. Belə ki, yanvarın sonuncu ongünlüyündə İ.Əliyevin Almaniyanın kansleri A.Merkellə görüşündə də biri Qarabağ olmuşdu. O zaman xanım Merkel ilk dəfə olaraq münaqişədə aparıcı rol oynayan qüvvə kimi Moskvanı nişan verməş, “Rusiya və Ermənistan bu münaqişə ilə alaqədar müəyyən amilləri birgə həyata keçirirlər” demişdi. İndi yenidən Almaniyada Qarabağ həqiqətləri ilə bağlı növbəti ciddi bəyanat səslənib və düşmənə açıq mesaj verilib. Yeri gəlmişkən, Azərbaycan prezidenti yanvarın 10-da Nazirlər Kabinetinin iclasındakı çıxışında Münhen çıxışının bənzəri olan tezislər səsləndirmiş, həmçinin düşmənin arxasındakı qüvvələrdən bəhs etmişdi. Ölkə rəhbəri ad çəkməsə də, “həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər” demişdi. A.Merkel məhz bu çıxışdan az sonra konkret havadarların birindən açıq şəkildə bəhs etdi.

Eyni zamanda Azərbaycan lideri artıq düşmən ölkəyə qarşı sərt münasibətini beynəlxalq tribunadan əsaslandırılmış şəkildə dünya ictimaiyyətinə təqdim etdi. Bu, həm də erməni vertolyotunun məhvi, diversant-təxribatçıların öldürülməsinə görə Azərbaycanı ittiham edənlərə də cavab saylla bilər. Maraqlısı həm də odur ki, son yarım ayda Azərbaycanın milli maraqlarından bəhs edən mövqelər məhz Almaniyada səslənir. Hansı ki, Almaniya ATƏT-in Minsk Qrupunun həmsədrli olmaq iddiasındadır.

Azərbaycanda həssaslıqla izlənilən dövlət başçısının çıxışı birinci Qarabağ müharibəsi döyüşçülərini xeyli ruhlandırıb. Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədov bu barədə danışarkən bildirdi ki, Ali Baş Komandanın çıxışı Azərbaycan xalqının, xüsusilə də keçmiş döyüşçülərin ürəyincə olub: “Doğrudan da düşmən əsgəri bizim torpaqlarımızda nə gəzir ki, orda da ölür?! Bu həm ermənilərə də bir xəbərdarlıqdır ki, siz nə qədər bizim torpaqları işğalda saxlayacaqsınız, bir o qədər ölümə məhkum olacaqsınız. Prezident düşmənə bəyan etdi ki, siz doğru yola gəlin, işğala son qoyun, torpaqları azad edin, ondan sonra münasibətlərin yenidən qurulması məsələsinə baxa bilərik. Bu, çox yaxşı bir haldır”. E.Əsədov çıxışdan ortaya çıxan bir nəticəyə xüsusi diqqət çəkdi: “Bu mesaj həm də ondan xəbər verir ki, Azərbaycan dövləti, onun prezidenti torpaqların işğalda qalması ilə heç vaxt barışmayacaq, onun azad olunması üçün var gücü ilə çalışacaq, müharibə yolu ilə də olsa, ərazilərini azad edəcək. Biz, Azərbaycanın ərazi bütövlüyü uğrunda xidməti olmuş insanlar istəyirik ki, qalib ordunun əsgəri, qalib dövlətin vətəndaşı olaq. Bu mənada biz hər an müharibəyə hazırıq. Ali Baş Komandanın bir əmri kifayətdir ki, təcrübəsi olan insanlar kimi biz də ön cəbhədə düşmənə qarşı döyüşlərdə iştirak edək və qələbənin sevincini, qürurunu yaşayaq, şəhidlərin ruhunu şad edək”.

Sabiq dövlət müşaviri Vəfa Quluzadə hesab edir ki, prezidentin həqiqətləri beynəlxalq tribunadan açıq-aşkar bəyan etməsi müsbət haldır: “Prezident mümkün həqiqətləri deyib və bu cür də deyilməliydi. Ona görə ki, başqa cür demək təhlükəli idi. Gərək orda iştirak edən başqa dövlətlərin rəsmiləri durub deyəydi ki, bu, erməni işğalı deyil, əslində Rusiyanın geosiyasi və geostrateji maraqlarından doğan bir işğaldır. Yenə də çox yaxşı oldu ki, Azərbaycan həqiqətləri açıq mətnlə səsləndi. Amma inanmıram ki, indi Qərb Qarabağ məsələsi ilə məşğul olmağa hazırdır. Qərb hazırda qaynar nöqtə olan Ukrayna ilə məşğuldur. Qarabağ isə dondurulmuş bir nöqtədir". V.Quluzadə hesab edir ki, bütün atəşkəs xəttində baş verənlərin məsuliyyəti Rusiyaya aid edilməlidir: “Çünki Ermənistanın siyasi və güc strukturlarına nəzarət və rəhbərlik edən Rusiyadır”. Politoloq postsovet məkanında baş verənlərin səbəbkarının Rusiya olması faktının qəbul olunduğunu deyir: “Amma hələlik Rusiyaya ciddi müqavimət yoxdur. Sanksiyalar Rusiyaya xeyli təsir edib, Putinin də etirafı var. Amma Rusiya Krımı işğal edəndə heç kəs səsini çıxartmadı, indi də Rusiyanın Ukraynanın cənub-şərqində müharibə aparmasına ciddi müqavimət yoxdur. Amerika gərək dünyada liderlik rolunu oynasın. ABŞ İŞİD-lə mübarizə aparır, amma Azərbaycanın işğal altındakı 20 faiz torpağı uğrunda mübarizə aparmaq fikrində deyil. Çünki nüvə dövləti olan Rusiya ilə üz-üzə gəlmək istəmir”. V.Quluzadə razıdır ki, vaxtilə Qarabağ məsələsində ədalətli mövqe tutulsaydı, postsovet məkanında bu qədər konfliktlər olmazdı: “İlk günlərdən nə Qərb, nə də bizim doğma Türkiyə Qarabağla bağlı heç bir ciddi addım atmadı. Ermənilər belə təsəvvür yaradıb ki, guya Dağlıq Qarabağ "mübahisəli ərazi"dir. Amma yadımdadır, Kəlbəcər işğal olunanda rəhmətlik Elçibəy hesab edirdi ki, daha artıq bütün dünya “mübahisəli olmayan ərazidən”, Kəlbəcərdən söhbət getdiyini qəbul edəcək. Ancaq onda da heç kəs səsini çıxartmadı. Türkiyə burada ciddi addım atsaydı, bəyanat versəydi ki, onda mən də Kəlbəcərə qoşun göndərirəm, vəziyyət ayrı cür olardı. Fakt budur ki, 20 faiz torpağımız nüvə dövləti olan Rusiya tərəfindən, amma “erməni millətçiləri” adı altında işğal olunub". Sabiq müşavir hesab edir ki, Qərb Azərbaycan prezidentinin son çağırışlarına biganə qalmamalıdır.

Ölkə başçısının Qarabağ bəyanatına müxalifət düşərgəsindən də reaksiya verilib. Müsavat Partiyasının başqanı Arif Hacılı ölkə başçısının Münhendəki çıxışı ilə bağlı olduğunu bildirdi: “Azərbaycan ərazilərinin erməni silahlı qüvvələrinin işğalı altında olması heç kəsə sirr deyil və zaman-zaman bu fikirlərin Azərbaycan tərəfindən rəsmi şəkildə bəyan edilməsi zəruridir. Hesab edirik ki, Ali Baş Komandan yalnız mövcud reallıqlar barədə bəyanatlar verməklə kifayətlənməməlidir. Mövcud reallıqları dəyişdirmək üçün ciddi səylər göstərməli və Azərbaycanın dövlət suverenliyini Azərbaycanın bütün ərazisində təmin etməyə nail olmalıdır”. Bu istiqamətdə müxalifətin, konkret olaraq Müsavat Partiyasının hansısa formada iştirakına gəldikdə, A.Hacılı bunları bildirdi: “Müsavatın Qarabağ probleminin həlli ilə əlaqədar konsepsiyası var və konsepsiya Azərbaycan hakimiyyətinə təqdim olunub. Biz hesab edirik ki, həm hərbi, həm diplomatik yolla Azərbaycanın dövlət suverenliyini bütün ərazisində təmin etmək üçün addımlar atılmalıdır və bu istiqamətdə olan konkret təkliflərimiz həm ictimaiyyətə, həm hakimiyyətə təqdim olunub”.

**Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015



# Qoluna vurulacaq qandalı öncədən görə bilməyən falçılar...

Samir SARI

**Yazırlar, məşhur falçı tutulub. Şəklinə baxıram, ilk dəfədir görürəm. Amma bu, onun ölkədə məşhur olmadığına dəlalət etməz. Çünki falçılara müraciət etməyən və onların iştirak etdiyi televiziya verilişlərinə baxmayan adam onları tanımaz. Bu cür falçılar isə, deyilənə görə, teleulduz olublarmış.**

Bu, bir Azərbaycan paradoksudur: yüz minlərlə tamaşaçı bu cür səfeh, şit, ziyanlı verilişləri əsəbi şəkildə pisləyə-pisləyə, baxırlar. Bəyənmirlər, amma hər gün də tamaşa edirlər və imtina edə bilmirlər.

Deyirlər, "Həzrət Sabir" adıyla tanınan falçı da televiziyada ekspertlik edirmiş, xəlayiq onu ekrandan tanıyırmış və bu minvalla onun müştərilərinin sayı-hesabı yoxmuş. O da "qulluq mövqeyindən, insanların etibarından sui-istifadə edib".

Birdəfəlik bilmək lazımdır, əgər bir kəs ortaya çıxıb özünə ekstrasens, maq, falçı, parapsixoloq deyirsə, artıq fırıldaqçıdır, dələduzdur, türkün sözü, ihbar edin, gəlib tutsunlar.

Amma elə şey ola bilərmi? Xeyr. Bizim camaat onkologiya professorunun yanından çıxıb cummalıdır parapsixoloqun yanına ki, o, öz mistik qüvvələri ilə ağır xəstəni sağaltsın.

Bu coğrafiyanın adamlarının xasiyyətidir, elmi, texnologiyanı qoyub, möcüzələrə, cinlərə-filana inanarlar. Hətta o fövqəlbəşər qüvvələrin, qeyri-elmi möcüzələrin mövcudluğuna şəkk edən adamlara xəbərdarlıq da edərlər: "Şəkk eləmə, ağzın əyilər"; "Filankəs də gülürdü, başına daş düşdü" və s.

Bu səbəbdəndir ki, müasir şeyx nəsrullahların qəbulunda basabasdır, hamısının da köməkçiləri - şeyx əhmədləri var.

Rəhmətlik Mirzə Cəlil 100 il əvvəl bu cahillik və xurafat haqqında yazanda, əlbəttə, bilmirdi ki, biz 100 ildən sonra da bu gündə olacağıq. Bilsəydi, bəlkə də özünə əziyyət verib yazmazdı. Bax, indi mən bu cəhalət barədə yazıram, amma əminən ki, 100 ildən sonra, 2115-ci ildə bizim camaat o zamanlara qədər ixtisas və peşə adı dəyişmiş falçı-fırıldaqçıların qəbulunda oturub mədəd umacaq.

Elm nə qədər yeni-yeni texnologiya kəşf edir, xeyri olmur. Müasir insan elmi-texniki tərəqqinin sayəsində Bakıdakı evində oturub Amerikadakı əzizi ilə görüntülü şəkildə danışa bilir, ancaq yenə də elmə yox, xurafata meyllənir. Səhiyyədə insanı müayinə etmək üçün yüz cür avadanlıq kəşf edilib, amma bizimkilər heç bir tibbi təhsili olmayan mollaların ərəb dilində yazdığı duaların kəramətinə güvənirlər.

Maşallah olmasın, bəzi telekanallar da xüsusi verilişlər vasitəsilə insanları mistik dünyaya cəlb edirlər. Heç elmi-texniki nailiyyətlətlərə həsr olunan verilişə rast gəlməzsən, eyzən cindən, faldan, magiyadan, haldan danışırlar.

Öncəgörənlərin fırıldağı tamam başqadır. Onlar yüz cür proqnozlar verirlər, gəlir, biri doğru çıxır, o saat media başlayır: "Filankəs filan vaxtı bunu demişdi".

Məsələn, srağagün saytlarda biri yazıb ki, Moskvada yaşayan ekstrasens Zirəddin Rzayev Səudiyyə kralının ölümünü öncədən demişdi. Heç demə, məşhur ekstrasens keçən il deyibmiş ki, 2015-ci ildə dövlət başçılarından biri öləcək. Konkret deməyib ha, "dövlət başçılarından biri" deyib.

Burda nə var ki? Dünyada 200 dövlət var, ən azı 100-nün başçısının bir ayağı burda, biri də gordadır, əlbəttə, öləcəklər. Məsələn, bunu yazın bir yerə, mən də belə bir proqnoz verirəm: Yaxın vaxtlarda Zimbabvenin prezidenti Robert Muqabe öləcək.

Təyyarə, gəmi, qatar qəzalarını proqnozlaşdırmağa nə var? Hər il yeddi-səkkiz dənəsi olur, bu il də olacaq, gələn il də. Zəlzələlər, sunamilər, torpaq sürüşmələri, qasırğalar da onun kimi.

Hətta mən elə bu ayın içində Pakistanda məscid partladılacağını görürəm. Gününü də deyə bilərəm - hadisə cümə günü yerli vaxtla saat 10 radələrində olacaq; Bağdadda bazarda, yarmarkada törədiləcək terror aktını da görürəm - təxminən 40 adam həlak olacaq; Avropa ölkələrində hakimiyyət dəyişiklikləri olacaq, hakimiyyətə müxalifətçilər gələcək; Çində kömür mədənində qəza olacaq; Banqladeşdə qaçqınları daşıyan bərə batacaq və sair və ilaxır.

Belə proqnozlar vermək üçün fövqəltəbii istedada, vergiyə malik olmaq lazım deyil, dünyanın siyasi gündəmini izləmək, qəzet, sayt oxumaq kifayətdir.

Falçılardan mədəd uman xalqım, onlara inanmayın, onlar hətta öz sabahlarını görə bilmirlər. Görsəydilər, qollarına vurulacaq qandalları görərdilər.

---

**Bizim kəndə - Bozalqanlıya (Tovuz rayonu) gəlin gəlmişdi. Özü əslən Şamaxıdan ziyalı bir ailənin qızı idi. Kənd həyatı idi, bir az fərqli adət-ənənə. Xüsusi ilə də ləhcə fərqi vardı. Bəstə boylu, fövqəladə insanpərvər, insan övladına Allah insanlığı ifadə etmək üçün nə vermişdisə, onda vardı.**



Saleh Əliyarov, iqtisad elmləri doktoru, professor.

# Məktəbdə elm, evində həyat öyrədən qadın...

## (Anam-müəlliməm Xədicə Nəcəfovanın əziz xatirəsinə ithaf edirəm)

Bozalqanlı kənd məktəbində 1-ci sinifdə oxuyurdum. İbtidai sinif müəlliməm Gülüş Quliyeva (Allah rəhmət etsin, ruhu şad olsun) bizimlə söhbət edirdi. Birdən dedi ki, baxın, yeni sinif tikilir, siz orada oxuyacaqsınız. Dönüb baxdım. Bəstə boylu bir qadın və bir neçə şagird samandan və sarı torpaqdan palçıq qarışdırıb, köhnə taxtalardan qurulmuş divarları suvayırdılar. "Ay oğlan, o su vedrəsini mənə verərsənmi" dedilər. Mən su vedrəsini palçığa batmamaq üçün ehtiyatla onlara uzatdım. Bu an o bəstə boy qadın "nöşun qorxursan, qorxma, vedrəni mənə ver" dedi, vedrəni əlimdən aldı. Sonra öyrəndim ki, o, məktəbin direktorudu. Və düşündüm ki, nöşün nə deməkdir? İllər keçdi, 5-ci sinifdə bizim sinfə hesab dərsi müəlliməsi olaraq həmən o bəstə boylu qadın Xədicə Nəcəfova girdi. Özünü təqdim etdi, bizimlə tanışdı.

Mən mətbuatda cəmi iki dəfə yazmışam. Birinci yazım "Yeni Müsavat" qəzetinin ilk nömrəsində çıxıb. İkincisi isə "Respublika" qəzetində. Bu yazı isə sayca üçüncü olacaq. Bilmirəm qüdrətim çatıb bu böyük qəlbli insan haqqında ona layiq fikir söyləyə biləcəmmi? Əgər layiq olmasa, ruhu məni bağışlasın. O, mənə həm müəllimə, həm ana idi. Məktəbdə elm öyrədərdi, evində həyat dərsi, insanlıq, vətən, millət öyrədərdi. Özü də bir ana laylası qədər dillə söylərdi hər şeyi.

XƏDİCƏ NƏCƏFOVA... Bu ad, bu soyad mənə çox əzizdir. Çox. Çünki bu ad, bu soyad anama - müəlliməmə aiddir!!! Nə qədər xoş söz, hörmət, ehtiram, sevgi varsa, hamısına layiq olan insan. Mənim anam - müəlliməm dünyasını dəyişmiş. Amma onun cənazə törənində iştirak edə bilmədim Təəssüf ki, bu, mümkün olmadı. Bütün müəllimlərim mənə əzizdir, müqəddəsdir. Müqəddəslər müqəddəsi MƏHƏR QULİYEV kimi. O da dünyasını dəyişib. Məkanı cənnət olsun. Onun haqqında qüdrətim çatmaz yazmağa, amma inanıram ki, bir zaman onu anladan qüdrətli qələm sahibi olacaq.

Bilmirəm nə sirr idi. Xədicə müəllimə sanki elmi ana südü ilə bişirib bizə yedirirdi. Bəlkə də ona görə biz biz olduq. Axı deyərlər ki, ana südü ilə böyüyənlər daha kamil, daha sağlam olur. Birdə ki onda elə bir qeyrət vardı ki... İstənilən şəraitdə bizi öyrətməyə hazır idi. Heç bir zaman məkan fərq etməzdi. Dərsdən kənar məşğələ təşkil edərdi. Axşam tərəfi idi. Evlərinə getdim - "biz toplanmışıq" deməyə. Gördüm çörək bişirir. Durdu, üstünün ununu təmizlədi. Sacın üstündə olan çörəyi də götürdü. Mənə verdi. Bu zaman oğlu Rizvan "ay ana, axı mən çörək gözləyirəm, acmışam, haraya gedirsən" dedi. Sən demə, o sacdakı çörək Rizvan üçün bişirmiş, evdə çörək yoxuymuş. Dönüb Rizvana dedi ki, özün bişir, özün ye. Mən şagirdləri gözlətmişəm (Rizvan Abdullayev hazırda Xarkov Tibb Akademiyasının professorudur, tibb elmləri doktorudu). Hər zaman ali təhsildən söz düşəndə Bakı haqqında, universitet, institut haqqında bizə bilgi verərdi. Və həmişə deyərdi ki, mənim Bakıda qardaşlarım, bacılarım var. Siz Bakıya gedəndə imkanı olmayanlar onların evində qala bilərlər. Onlar hər şeydə sizə kömək edərlər. Mən o zaman düşünərdim ki, Bakıya oxumağa getsəm ev problemim olmaz. Və sanki mənim Bakıda evim vardı, bu cür gələrdi mənə. dım. Oldu ki hesab məsələsinə yer qalmadı. Az həll etdim. Sinfimizdə çox yaxşı oxuyanlar var idi. Rüfət, Eldəniz, Səhərnaz, Flora və sair. Məni də yaxşı oxuyanlar siyahısına salmaq olardı. Özünə xas ləhcə ilə "nöşün az məsələ həll etmisən" soruşdu. Danladı. Baxdı ki, normal dəftərim belə yoxdu. Çox əsəbiləşdi. Üstündən 3-4 gün keçmişdi. Allahdan o gün təsadüfən mən çox məsələ həll etmişdim. Gülərək, nəvazişlə mənə yaxınlaşdı: "Sənə "5" verirəm və bir hədiyyəmdə var" söylədi. Hədiyyəsi 5 ədəd 96 vərəqəlik dəftər idi... İllər keçdi, mən Moskvaya ali təhsil almağa getməli oldum. Görüşmək üçün evlərinə gəldim. Xeyir-dua verdi. Məni yola salanda dedi: "Bakıda qohumlarım var, Moskvada yoxdu. Gərək bağışlayasan". Gözləri yaşardı. "Allah köməyin olsun", deyib ayrıldı...

Həqiqətən də sonralar biz onun qardaş və bacılarının evində bir neçə dəfə qonaq olduq. Onlar bizi "Xədicənin şagirdləri" deyə çağırırdılar - öz adımızla yox. Çox da hörmət göstərirdilər bizə.

Bir dəfə hesab dərsi idi. Çoxlu məsələ verdi. Kim çox məsələ həll etsə ona 5 verərdi. Mənim 96 vərəqəlik bir dəftərim vardı. Ona bütün fənləri yazır-

Heç zaman müəllimlərimi unutmadım. Həmişə imkan tapıb görüşürdük. Xədicə müəllimə ilə son görüşümdə "sabahdan gözüm qapıda idi. Bilirdim ki, məni sevənlərin biri gələcək. Bax, sən gəldin" dedi.

Uzaqda olduğum üçün hər zaman skaypla məktəbimizin direktoru hörmətli Nüsrət müəllimlə əlaqə saxlayardım. Danışırıq, hal-əhval tuturuq. Həmişə ondan Xədicə müəllimənin də sorardım. Elə Nüsrət müəllim də onun dünyasını dəyişdiyini 3 gün öncə söylədi. Çox sarsıldım. Kaşkə mən də onu son mənzilə uğurlaya biləydim, Kaşkə... Xədicə müəllimə hər evdə, hər ailədə var idi. Onu hər şagird 2-ci ana bilirdi. Əlacı olsaydı bizi evində saxlayardı. Doğma övladlarından bizə fərq qoymazdı...

Çox sonralar dilində əzbər olan "nöşün" kəlməsinin tarixçəsini ona anlatdım. Güldü. Ara-sıra onunla danışanda "nöşün" deyərdim. Ona illər öncə bu kəlməni başa düşmədiyimi söylədim. O isə "nöşün o zaman sormadın. Sənə bütün bildiyimi öyrədirdim, bunu da öyrədərdim. Yaxşı ki, bunu da özün öyrənmisən" - deyərək yenə də güldü.

Allah sənə rəhmət etsin, Xədicə anam - müəlliməm. Məkanın cənnət olsun.

❑ 6 fevral, 2015-ci il, Əlcəzair

---

# Əlövsət Sadıqlı MNTK-nın məlumatına etiraz etdi

## "Mən iclasda rəsmi şəkildə iştirak etməmişəm və orada olarkən partiyadan xaric edilmə məsələm qoyulmayıb"

**Müsavat Partiyası Mərkəzi Nəzarət-Təftiş Komissiyası (MNTK) toplantı keçirərək Müsavat Partiyası Ağdam rayon təşkilatının üzvü Əlövsət Sadıqlını partiya üzvlüyündən xaric edib. Bu barədə Müsavat Partiyası tərəfindən göndərilən rəsmi məlumatda deyilir ki, Əlövsət Sadıqlının partiyanın VIII Qurultayının nəticələrini şübhə altına alan, seçilmiş partiya strukturlarının və onların qəbul etdiyi sənədlərin saxta olması barədə apardığı təbliğat kampaniyası, partiya strukturlarının legitimliyini qəbul etməməsi barədə açıqlamaları, partiya rəhbərliyinə, partiya strukturlarına qarşı böhtan və təhqir xarakterli müntəzəm çıxışları, MNTK-ya alternativ struktur yaratmaq cəhdi və digər məsələlər özünün iştirakı ilə müzakirə edilib və partiya sıralarından xaric edilməsi barədə qərar qəbul edib.**

Bu məlumat musavat-com saytında yayılıb. Dünən Əlövsət Sadıqlı redaksiyamıza geniş həcmli yazılı bəyanat göndərib. Bəyanatda Müsavat rəhbərliyinin, MNTK-nın ünvanına elə ifadələr işlədilib ki, onun çapının mümkünsüz olduğunu Sadıqlının nəzərinə çatdırdıq. Eyni zamanda partiya MNTK-sının onun barəsində qərarı barədə informasiyanın saytda dərc olunduğunu nəzərə alaraq Əlövsət Sadıqlının münasibət bildirmək hüququnu da nəzərə aldıq.

Əlövsət Sadıqlı bildirdi ki, qurultaya hazırlıq dövründə, sonrakı dövrdə bir sıra Nizamnamə pozuntuları aşkar olunub. Bu pozuntularla bağlı özünü partiyanın rəhbərliyi hesab edən şəxslərə müraciət edib. Lakin müraciətlərinə baxan olmayıb, araşdırma aparılmayıb: "Pozuntuları göstərdiyim üçün mənə xəyanətkar yarlığı yapışdırılıb. Mən hazırkı Divanı və MNTK-nı hüquqi cəhətdən səlahiyyətli saymıram. Qeyri-qanuni yollarla Məclis üzvləri, Divan üzvləri, MNTK üzvləri seçilib. Mən partiyanın gələcəyini düşünüb bu pozuntuların aradan qaldırılmasını təkid etmişəm. Özünü MNTK-nın sədri kimi təqdim edən Sevinc Hüseynova mənə zəng edib məsələləri araşdırmağı təklif etdi. Razılaşıb dedim ki, harda müzakirə edək. Dedi MNTK-da. Mən də dedim ki, mən MNTK-nı tanımıram. Dedi ki, gəlin hər halda araşdıraq. Getdim, araşdırma aparılması prosesinin videoçəkilişinə icazə vermədilər. Mən araşdırmanın necə aparılmasının yollarını onlara dedim və iclası tərk elədim. İclasdan çıxandan sonra qərar qəbul ediblər ki, guya mənim iştirakımla iclas keçirilib və partiya məsuliyyətimi, partiyadan çıxarılma məsələmi qoyublar. Sonra isə məni partiya sıralarından xaric ediblər. Mən orada iclasda rəsmi şəkildə iştirak etməmişəm və orada olanda mənim partiyadan xaric edilmə məsələm qoyulmayıb. Əvvəldən də mənə bu barədə heç nə bildirilməyib. Mən buna etiraz edirəm".

❑ E.SEYİDAĞA



# Qarabağdakı gərginliyin iki ölkə sərhədinə keçməsinin pərdəarxası

## Düşmənin son azğınlığı "ölü qurum" olan Minsk Qrupunu da hərəkətə keçməyə vadar etdi; növbəti bəyanat qəbul olundu və prezidentlərin görüşünə çağırış edildi

**İşğalçı Ermənistanın silahlı qüvvələrinin son günlər Azərbaycanla həmsərhəd bölgələrdə xüsusilə azğınlaşmasının səbəbləri barədə müxtəlif təxminlər var. Burada diqqəti Qarabağ cəbhəsindən yayındırmaq, gərginliyi iki dövlət arasındakı sərhəd zonasına keçirib Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Rusiyanı proseslərə cəlb etmək niyyətlərinin olduğu barədə kifayət qədər arqumentlər səslənir.**

Ancaq bu da var ki, son günlər Rusiya-Ermənistan münasibətlərinin gərginləşməsi fonunda Moskvanın ermənilərə açıq dəstək verməsi bir o qədər inandırıcı görünmür. Təmas xəttində isə gərginlik səngimir. Son günlər cəbhə bölgəsində yeni hərbi hissələrin açılışında edən müdafiə naziri Zakir Həsənov düşmənə növbəti sərt xəbərdarlığını edib.

Tovuzun Əlibəyli kəndindən "Yeni Müsavat"a verilən məlumata görə, son iki gün ərzində atəş səsləri arabir eşidilsə də, kənddə həyat öz axarı ilə gedir və gərginlik nisbətən səngiyib. Ötən həftə düşmənin açdığı atəş nəticəsində evində qolundan güllə yarası alan kənd sakini, 1982-ci il təvəllüdlü Xatirə Əliyeva isə Tovuz Rayon Mərkəzi Xəstəxanasındadır. Həkimlər onun qolunun təcili əməliyyat olunmasına qərar veriblər və o, bu gün əməliyyat ediləcək.

Azərbaycan prezidentinin Almaniyada Ermənistana sərt xəbərdarlığı, həmçinin Müdafiə Nazirliyi rəhbərliyinin ön cəbhədə düşmənin bütün hərəkət edən qüvvəsinin dərhal məhv ediləcəyi barədə bəyanatı, üstəlik, erməni tərəfin ilin ilk ayında böyük itkilər verməsi İrəvanı ciddi narahat edib. Eyni zamanda Ermənistan və Qarabağ ermənilərі arasında ixtilafın yaranması da Sərkisyan hökumətini pis vəziyyətdə qoyub. Son bir ayda 20-dən çox itki verən və onlarla yaralısı olan Ermənistan ordusu çətin durumdadır və artıq Azərbaycanın mülki sakinlərini, yaşayış evlərini hədəf seçirlər. Erməni tərəfi artıq açıq şəkildə bəyan edir ki, irimiqyaslı əməliyyatlar ağır itkilərlə nəticələnə bilər. Ermənistanın müdafiə naziri Seyran Ohanyan vəziyyətlə bağlı Dağlıq Qarabağa gəlib. Ermənistan KİV-inin məlumata görə, S.Ohanyan qondarma "DQR"in başçısı Bako Saakyanla görüşüb. Görüşdə digər separatçı general Kamo Vardanyan da iştirak edib.

Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, düşmən Silahlı Qüvvələrimizin mövqeləri ilə yanaşı, dinc əhalini, sakinlərə məxsus evləri və digər tikililəri də hədəfə çevirib. Atılan yandırıcı güllələrdən kənd ərazisindəki evlərdən biri yanıb, vətəndaşların şəxsi əmlakına xeyli ziyan dəyib. Bir nəfər kənd sakini yaralanıb: "Ermənistan SQ-nin rəhbərliyi beynəlxalq hüququn normaları və prinsiplərinə riayət etməyərək heç bir hərbi əhəmiyyət kəsb etməyən obyektləri, dinc sakinləri, mülki əhalinin şəxsi əmlakını atəşə məruz qoymaqla Azərbaycan tərəfini adekvat addımlar atmaqla provokasiyaya çəkmək məqsədi güdür". Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Silahlı Qüvvələrinin hədəfi heç vaxt mülki əhali və qeyri-hərbi obyektlər olmayıb: "Dinc əhaliyə qarşı törətdikləri bu əməllərə görə düşmən məsuliyyət daşımalı və ordumuzun ermənilərin hərbi hədəflərinin məhv edilməsi məqsədilə görəcəyi cavab tədbirləri daha ciddi, qətiyyətli və amansız olacaq".

Cəbhədəki son durum və bunun fonunda baş verən hadisələr sözsüz ki, Azərbaycan cəmiyyətində bəzi suallar doğurur. Görəsən bu hadisələr genişmiqyaslı hərbi əməliyyatlara gətirib çıxara bilərmi?

Hərbi ekspert Üzeyir Cəfərov deyir ki, nəzəri cəhətdən bunu qətiyyən inkar etmək olmaz: "Amma praktiki cəhətdən bir sıra obyektiv və subyektiv səbəblərə görə düşünmürəm ki, belə bir qərar verilsin. Mən indi onları sadalamaq istəmirəm. Yəqin ki, hamı anlayır söhbət bir neçə aydan sonra Bakıda keçirilməsi gözlənilən 1-ci Avropa Yay Oyunlarından gedir. Həm də ölkə başçısı özü də bu haqda fikir səsləndirmişdi. Ancaq Ermənistanın təxribatları davam edəcəksə, sözsüz ki, biz lazım olan addımı atmağa məcbur qalacayıq. Son günlər, xüsusilə də Ermənistan-Azərbaycan sərhədində gərginliyin artması, itkilərimizin olması belə bir variantım olmasını da istisna etmir".

Ü.Cəfərovun sözlərinə görə, ermənilərin məhz bu istiqamətdə vəziyyəti gərginləşdirməyə davamlı səy göstərməsi onu deməyə əsas verir ki, onlar bu addımlarını özbaşına deyil, birbaşa öz ağalarının göstərişinə əsasən həyata keçirirlər: "Məqsədləri də aydındır ki, bu prosesə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını qatsınlar. Mən elə başa düşürəm ki, KTMT-nın baş katibi Nikolay Bordyujanın son açıqlaması da bədnam qonşularımızı çox narahat edir. Amma biz unutmamalıyıq ki, tale bizə erməni kimi məkrli və hiyləgər qonşu qismət edib".

Hərbi ekspert Azərbaycan ordusunun son irimiqyaslı hərbi təlimlərinə də diqqət çəkdi: "Müdafiə Nazirliyinin 2015-ci ildə keçirdiyi ilk genişmiqyaslı taktiki təlimlər sözsüz ki düşmənlərimiz tərəfindən də ciddi şəkildə izlənilir və müəyyən nəticələr çıxarılır. Ermənistan tərəfi çox narahatdır. Onlar artıq başa düşürlər ki, vəziyyət get-gedə qəlizləşir. Rusiyanın Ukrayna məsələsində üzləşdiyi çoxsaylı problemlər və davamlı iqtisadi sanksiyalar, maliyyə çətinlikləri erməniləri bərk narahat edir. Hər şey ola bilər. Yəni qısamüddətli müharibə və əldə olan indiki vəziyyətin itirilməsi və onsuz da kritik olan daxili problemlərin bir az da çıxılmaz duruma çevrilməsi. Ona görə də onlar çox narahatdırlar. Qüvvələr nisbəti əlbəttə ki, Azərbaycanın şəksiz üstünlüyündən xəbər verir. Həm insanı, həm də hərbi üstünlüyümüz Ermənistanı və onlara havadarlıq edənləri bərk narahat edir. Hesab edirəm ki, son aylarda düşmən tərəfi çox ciddi sürətdə vəziyyətin onlar üçün o qədər də əlverişli istiqamətdə getmədiyi qənaətindədirlər. Ümumiyyətlə ölkəmizin son bir neçə hərbi təlimləri dünyada Qarabağ ilə bağlı Azərbaycanın nəhayət ki, sözdən konkret əmələ keçmək istəməsini açıq şəkildə bəyan etməsi kimi qəbul olunur. Ona görə də, hesab edirəm ki, qısa fasilələrlə biz bu təlimlərin həm intensivliyini, həm də miqyasını daha da artırmalıyıq. Başqa yolumuz yoxdur. İstənilən halda, mənim şəxsi qənaətimə görə, Qarabağ məsələsində son sözü Azərbaycan əsgəri deməlidir və yəqin ki bu belə də olacaq".



**Hərbi ekspert: "Qarabağ məsələsində son sözü Azərbaycan əsgəri deməlidir..."**

Begin-Sədət Strateji Araşdırmalar Mərkəzinin təhlilçisi Aleksandr Murinson "Amerikanın Səsi"nə müsahibədə deyib ki, Qarabağda təmas xəttində hərbi toqquşmaların bərpası, hər iki tərəfdən atışmalar və hərbi personalın itkilər verməsi və ümumiyyətlə, münaqişədə hadisələrin dinamikasına Rusiya və İran təsir göstərir: "Mən Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında toqquşmaların bərpası, Azərbaycanın hava hövzəsini pozmuş Ermənistan silahlı qüvvələrinin vertolyotunun vurulub salınması kimi hadisələrİ yerli faktorlarla deyil, qlobal faktorlarla əlaqələndirirəm".

***

Cəbhədəki vəziyyət ölü quruma çevrilən ATƏT-in Minsk Qrupunu da hərəkətə keçməyə vadar edib. MQ həmsədrləri ATƏT-in fəaliyyətdə olan sədri İvitsa Daçiç və təşkilatın baş katibi Lamberto Zanierlə görüş keçiriblər. Görüşdə bütün həmsədrlər - İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ) və Pyer Andre (Fransa), eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik iştirak ediblər. "Trend" xəbər verir ki, bu barədə ABŞ-dan olan həmsədr Ceyms Uorlik Tvitter səhifəsində yazıb.

Görüşdə Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində vəziyyətin gərginləşməsi hallarının azaldılması zəruriliyi qeyd olunub. ATƏT Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindəki vəziyyətdən narahatdır.

Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması prosesi çərçivəsində hadisələr müzakirə olunduqdan sonra qəbul olunan birgə bəyanatda deyilir: "Biz hamımız razıyıq ki, qoşunların təmas xətti boyunca və Ermənistan-Azərbaycan sərhədində hərbi vəziyyət pisləşir. Bu, regional sabitliyə təhdid yaradır və dinc sakinlərin həyatını təhlükə altına salır. Anjey Kasprşikin 2015-ci ilin ilk ayı üzrə monitorinq hesabatında 12 ölüm və 18 yaralı olduğu qeyd edilir ki, bu da atəşkəs rejimi haqqında 1994-cü il sazişinin imzalanmasından bəri qurbanlar barədə ən yüksək təsdiq edilmiş məlumatlardır. Təqribən 60 nəfərin öldüyü 2014-cü ildən sonra biz zorakılığın həyəcanlı tendensiyasının davam etməsindən narahatıq".

Diplomatlar hesab edirlər ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur və tərəflər gücdən istifadə etməyi dayandırmalıdırlar.

Bəyanatda bildirilir: "Biz tərəfləri müdaxilə və hücumu, kəndlərin dinc sakinlərini hədəf almağı, repressiya hədələrini və assimetrik qüvvədən istifadəni dayandırmağa və gərginliyin azaldılması, atəşkəs rejiminin möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər görməyə çağırırıq".

Bundan başqa, ATƏT təşkilatın Nazilər Şurasının həmsədr ölkələrinin nümayəndə heyətləri başçılarının Bazeldə tərəfləri humanitar məsələləri, cəsədlərin və həbs olunanların qaytarılması məsələlərini nizamlamağa çağıran 4 dekabr 2014-cü il tarixli birgə bəyanatını təsdiq edir. Bu, eləcə də 2010-cu ilin oktyabrında Həştərxanda qəbul edilən bəyanatda qeyd edilir.

Minsk Qrupu ATƏT-in fəaliyyətdə olan sədrinin tam dəstəyi ilə regionun böyük problemi olan münaqişənin sülh yolu ilə nizamlanmasına gətirib çıxara biləcək danışıqlar prosesini gücləndirə bilər. Bəyanatda qeyd edilir: "Biz tərəfləri siyasi iradə göstərməyə və bu prosesə düzəliş etmədən dərhal başlamağı təkidlə çağırırıq".

ATƏT Minsk Qrupunun həmsədrləri tərəfləri prezidentlər arasında dialoqu yeniləməyə də çağırıb.

"Beynəlxalq ictimaiyyətin və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə uyğun olaraq, yalnız Ermənistanın işğalçı silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarıldıqdan sonra regionda sülh, təhlükəsizlik və sabitlik bərqərar oluna bilər. Ermənistan rəhbərliyi nəhayət bunu dərk etməlidir". Bunu isə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Eduard Nalbandyanın fikirlərinə cavab olaraq deyib. O bildirib ki, mahiyyətsiz, boş və demaqogiya xarakterli bəyanatlar vermək əvəzinə, Ermənistan rəhbərliyi ilk növbədə ATƏT-in Minsk Qrupunun həmsədrləri başda olmaqla, dünya ölkələrinin rəhbərlərinin israrlı çağırış və müraciətlərinə riayət edərək tez bir zamanda sülh sazişi üzərində danışıqlara başlamalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN



# Həpi boz dey... olmasın...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Sağ olsun, həmkarım Mirmehdi Ağaoğlu yazdı, bizimçün çoxdan ağrılı olan bu mövzunu gündəmə gətirdi. Səsinə səs vermək, ictimai dəstək, kampaniya kimi yox... sırf haqlı olduğu üçün eyni mövzuda acizanə, bir valideyn kimi mən də fikirlərimi yazmağa qərar verdim. Mövzumuz azərbaycanlı valideynlərin uşaqlarına keçirdikləri ad günləridir.**

Açığı, biz uşaqlıqdan başqa cür görmüşük. Ad günümüzdən bir gün əvvəl, axşamdan anamız hazırlığa başlayar, salatlar, növ-növ soyuq qəlyanaltılar, tortlar (o vaxt şirniyyat mağazaları bol deyildi, yox sayılacaq qədər az idi) hazırlayardı. Səhəri gün qocaman masa açılar, dayı-xala-əmi-bibi, onların uşaqları, sonra atanın dostları, ananın rəfiqələri məclisə yığışar, axşama qədər əyləncə davam edərdi. Əyləncə sözün gəlişi... Bu prosesdə analarımızın mətbəxlə qonaq otağı arasında qaçhaqaç-qovhaqovu, tər-su içində qonağa qulluq etməsi, valideynlərin zoru ilə bir-iki loxma yeyən balacaların daha sonra masa altında qonaqların ayaqlarını qıdıqlaması, kişi xeylaqlarının içib-içib mübahisə etməsi... başa düşülsün, lütfən... Ad günü demək, mənim təsəvvürümdə belə assosasiya olunur.

İndi format bir az dəyişib. Yenə də böyük əksəriyyət ev məclislərinə üstünlük verir. Yenə analar mətbəxdə vurnuxur, yorulur, uşaqlar bu ad günündən çox şey anlamır. Hərdənbir böyüklərin "a bala, sakit olun, baş-qulağımız getdi" kontekstində danlaqlarını da nəzərə alsaq, hesab edin ki, bu tədbirlər uşaqlara az qala işgəncə olur. Bir az imkanlı təbəqə isə bu məclisləri dəbdəbəli restoranlarda keçirməyə üstünlük verir. Təsəvvür edin, orda da səs-küydən qulaq tutulur, pleybek oxuyan müğənnilər, içki içən əmilər-dayılar... Yenə uşaq əylənmir ki, əylənmir. Əvəzində valideyn əylənir (gerçəkdən əylənirmi, bu da başqa söhbətin mövzusudu), valideynin qohumları, iş yoldaşları, dost-tanışları əylənir, yeyir-içir, dağılışır evə... Hələ ən anormalı... Ad günü sahibinin də cibinə hərə 50-100 manat qoyub, "sən canın, uşağa mənim adımdan bir hədiyyə alarsan" deyib, çıxanlar ordusu. Guya ad günü uşağın idi. Ara yerdə kimsə kiminsə boynuna borc qoydu, bir neçə ay sonra o borc digər bir uşağın ad günündə qaytarılacaq və sair. Yaxşı, bu binəva uşaq bu ad günündən nə anlasın, necə sevinsin?

Və gələk həmkarım Mirmehdi bəyin də toxunduğu o məlum mövzuya. Bəxtimizdən bizim uşaqların vaxtında şəhərdə xeyli sayda uşaq əyləncə məkanları var. Klounlu, müxtəlif oyuncaqlı, zoomlu, oyun aparatlı əyləncə məkanları. Həm süfrə açdırmaq olur, həm uşaqları əyləndirmək. Düzdü, bəziləri valideynlərin üzüyumşaqlığından istifadə edib, qiymətləri anormal həddə qaldırıblar. Amma normal həddə olanlar da var. Yəni, uşağı əyləndirmək, ona ad günü sevincini yaşatmaq üçün bizim nəsil valideynlərin şansı xeyli çoxdur. Parti, əyləncələr, oyunlar, uşaqların sevdiyi təamlardan ibarət süfrə və axırda da tortlu qutlama. Bir uşağa bundan böyük əyləncə, sevinc?

Baxıram, bu formatda ad günü keçirənlərin sayı gün-gündən çoxalır. Amma kompleksə düşənlər də az deyil. "Ayıb olmazmı, deyərlər, uşaqlarına bir süfrə açammırlar, oyun yerində baş aldadırlar?" İnanın ki, belə tərəddüd edənini də gördüm. El nə deyər, arvadın qohumları, kişinin iş yoldaşları... bizi topa tutar deyə, öz doğmaca uşaqlarının hisslərini, istəklərini arxa plana atanlar o qədər çoxdur ki, ətrafımızda. Özgəsi vaxt isə uşağım üçün yaşayıram, işləyirəm deyib, döşünə döyür çoxu. Elədirsə bu nə pəhriz, bu nə turşu?

Amma və lakin... uşaq çörəklə yox, fərəhlə böyüyür deyirlər. Uşaqlarınızı sevindirmək, fərəhləndirmək öz əlinizdədir... Komplekslərdən uzaq, uşağın qəlbinə daha yaxın...

Necə deyərlər, "həppi böz dey"i "həppi boz dey" etməyək... Bunu ki, bacararıq...

# Dərbəndə ayrılan pulun yeyilməsi aranı qarışdırıb

## Şəhərin 2 min illik yubileyi ilə bağlı tədbirlər planı təxirə salına bilər, mer İmam Yarəliyev Heydər Əliyev prospektinin təmirinə görə Azərbaycanın vəsaiti göndərmədiyini açıqlayıb

**Dərbəndin tarixi yaşı mübahisəli olaraq qalır. Tarixçilər arasında fikir ayrı-seçkiliyi yaranıb. Şəhərin 5 min il yaşı olduğunu iddia edən də var, 2 min də. Rəsmi olaraq isə qədim Azərbaycan şəhərinin 2 min illik yubileyinin keçirilməsi nəzərdə tutulub. Dərbənddə olarkən bizimlə söhbət edən 12 kitab müəllifi Hüseynbala Yəhyayev bu məsələnin daha qatlarından söz açdı.**




Tarixçi olmasa da, doğma şəhərinin tarixi barəsində cild-cild kitablar müəllifi olan Yəhyayev danışır ki, Dərbənd Qafqazda ən qədim türk diyarıdır. Onun sözlərinə görə, burada beş min ildən çoxdur türklər yaşayır. İlk olaraq Dərbəndin qədim adlarından biri Çov olub. Ancaq tarixçilər bu adı erməni sözü hesab edərək çıxarıblar.

***

H.Yəhyayev iddia edir ki, əslində bu söz qədim türk qəbiləsinin adından götürülüb və darısqal yer deməkdir: "Mən başa düşə bilmirəm ki, erməni hara, Dərbənd hara? Necə ola bilər ki, onlar bu şəhərə ad qoysunlar?! Dərbənddə çov türkləri olub.

Dərbənd yarananda bu ad onlardan qalıb. Çov qəbiləsi Oğuz soyunun bir qoludur. Mən dəfələrlə bu məsələni tarixçi-alimlər Yaqub Mahmudovla, İqrar Əliyevlə danışmışam. Ancaq bu müzakirələr danışıqdan irəliyə getmədi. Dərbəndə qarşı bir biganəlik var.

Düzdür, Dərbəndin 5 min il yaşı olduğunu deyirlər. Ancaq bunu təsdiqləyən yoxdur. Dərbənddə qalan kitabələr ərəblər gələndən sonra olanlardır. Bir də İran vaxtından qalanlar var. Ondan qabaq kitabə yoxdur. Eyni zamanda şəhərin 5 min illiyi qazıntılarla aşkar olunub. Amma rəsmi şəkildə Moskvada sübut edə bilmirlər".

Yəhyayevin sözlərinə görə, Azərbaycanda olan tarixçilər Dərbəndin tarixini yazmırlar: "O zaman Bakıya gələrdim, Milli Elmlər Akademiyasının rəhmətlik rəhbəri Mahmud Kərimovla görüşürdük. Mənim yanımda üç dəfə Yaqub Mahmudova dedi ki, Dərbəndin tarixini yazın.

Bu günə kimi hələ də yazırlar. Başa düşmək olmur ki, bir institut bir tarixi nə qədər vaxta yazar? 5-6 il, axı nə qədər olar? Axırda özüm də yazdım. Özüm yazdığımdan da razı qalmadım, səhvlər var, gərək təzədən yazam".

***

Tədqiqatçı deyir ki, onlarla maraqlanan yoxdur: "Azərbaycan tərəfi deyir ki, Dərbənd Rusiya ərazisidir, onlar məşğul olsun. Moskva da deyir ki, Dərbənd azərbaycanlıların şəhəridir, qoy Bakı maraqlansın. Bax beləcə arada qalmışıq. Nə tariximiz, nə adət-ənənələrimiz yazılır.

Özüm tarixçi deyiləm, mühəndisəm, 12 kitab Dərbənd haqda yazmışam. Amma bunu tarixçilər etməlidir. Dağıstan tarixçiləri də deyirlər ki, Dərbəndin 5 min il yaşı var, amma Moskvada təsdiqləyə bilmirlər. Bir kitabım var. Orada sübut etmişəm ki, Dədə Qorqud Dərbənddə olub, məzarı burdadır. Ancaq indi məzarı itib. Biz bilirik məzar haradadır və qazıb çıxarmaq lazımdır.



### Dərbəndli tədqiqatçı isə Bakıdakı tarixçi-alimlərdən şikayətləndi: "Yetim kimi qalmışıq, Azərbaycanın itirilmiş bir hissəsiyik..."



Hələ 1636-cı ildə alman tarixçisi Aliari gəlib Dərbəndə, Dədə Qorqudun məzarını görüb. Kitabında da bu faktı yazıb. Ondan 12 il sonra türk səyyarı Çələbi yazıb ki, Dərbənddə Dədə Qorqudun məzarı var. Yaqub Mahmudov o vaxt dedi ki, adam göndərəcəyik, amma gəlmədilər.

Gəlib Mahaçqalada olub qayıtdılar. Azərbaycan Dərbəndə bu cür baxır. İndi erməni olsaydı, heç qazıb çıxarmazdı, deyərdi ki, Dədə Qorqudun məzarı buradır. Biz isə yetim kimi qalmışıq. Azərbaycanın itirilmiş bir hissəsiyik. Deyirlər ki, Qarabağ itirilib, Dərbənd Azərbaycan üçün min illiklərdir itirilib. Mən Bakıda tələbə olanda soruşurdular haralısan, dərbəndliyəm deyəndə, ləzgi adı qoyurlar. Bax indi bu vəziyyət yaranıb".

***

Onu da deyək ki, Dərbənd şəhərinin sentyabrın 15-də nəzərdə tutulan iki min illik yubileyi təxirə salına bilər. Publika.az-n əldə etdiyi məlumata görə, buna səbəb hazırda Rusiyanın düşdüyü iqtisadi böhrandır. Dərbəndin azərbaycanlı icması yubileyə hazırlığın aşağı səviyyədə olduğunu bildirir. Belə ki, yubiley tədbirinə yeddi ay vaxt qalmasına baxmayaraq, hazırlıq prosesi çox ləng gedir. Bu günlərdə Dağıstana üç günlük səfər edən Rusiya prezidentinin Şimali Qafqaz üzrə xüsusi nümayəndəsi Sergey Melikov da bu barədə danışıb. O, hazırlıq işlərindən narazılığını bildirib.

S.Melikovun səfərində diqqət çəkən məqamsa, şəhərdə kafelərin, restoranların üzərindən, eləcə də reklam tablolarından xarici sözlərin çıxarılması ilə bağlı verdiyi tapşırıqdır. "Latın hərflərindən başqa hərf yoxdur? İndiki şəraitdə bütün pisliklər Qərbdən gəlir" - deyə Melikov səfəri zamanı bildirib. Melikovun Dağıstanın futbol klubu "Anji"nin adının sırf latın hərfləri ilə yazıldığı üçün dəyişdirilməsi təklifi də diqqətdən yayınmayıb.

***

Sayt yazır ki, 95 yaşlı "Dərbənd" qəzeti latın əlifbasına keçmək istəsə də Dağıstan rəhbərliyi buna icazə vermir. S.Melikovla görüşdə Dərbənd Şəhər Məclisinin sədri İmam Yarəliyev Azərbaycandan şikayətlənib.

Buna səbəbsə şəhərin Heydər Əliyev prospektində aparılan təmir işləri ilə bağlıdır. İ.Yarəliyev Melikova indiyə qədər təmir işlərinə 54 milyon rubl pul xərclədiklərini, lakin Azərbaycan tərəfinin bu pulu ödəmədiyini bildirib.

Melikov isə məsələni Azərbaycan tərəfi ilə müzakirə edəcəyini deyib. Melikov Dərbəndin yubileyinə hazırlıq işləri ilə maraqlanıb. Lakin ehtimallara görə, yubiley təxirə salınacaq. Xatırladaq ki, bir müddət öncə Dağıstanda avar və ləzgi klanlarının Dərbənd şəhərinin yubileyinin keçirilməsinə qarşı olduğuna dair məlumatlar yayılmışdı.

***

Ehtimallara görə, Dərbənd Rayon İcra Hakimiyyətinin keçmiş icra başçısı, milliyyətcə azərbaycanlı Qurban Qurbanovun postundan uzaqlaşdırılaraq cinayət məsuliyyətinə cəlb olunmasının arxasında dayanan səbəblərdən biri də məhz yubiley olub.

Məqsəd şəhərin Azərbaycana bağlılığını qopartmaqdır. Xatırladaq ki, Azərbaycan hökumətinin Dərbənddə Heydər Əliyev prospektinin təmirinə ayırdığı pullar qəhətə çıxıb. Yolların təmiri üçün nəzərdə tutulan o vəsaitin hara xərcləndiyi sirr olaraq qalır.

Prospektdə təmir işləri yarımçıq dayanıb. Podratçı şirkət yoxdur, maliyyə mənimsənilib. 2014-cü ilin payızında işlər davam etdirilib. İki aydır ki, təmir dayanıb. İddialara görə, Müdafiə Nazirliyinin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıqovun adamı bu vəsaitin mənimsənilməsində iştirak edib. Generala yaxın olan Aydın Mürsəlov Dərbənddə təmir-tikinti işlərini kurasiya edir. Bu 30 milyonluq müəmmada onun əli olduğu söylənilir.

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu
Dərbənd-Bakı**

**Gürcüstanda yaşayan soydaşlarımızın durumunu bu dəfə "Qeyrət" Cəmiyyətinin sədri Əlibala Əsgərovla müzakirə edik. Marneulidə yaşayan Əlibala bəy söhbətə Borçalı əhalisinin ən yaralı yeri - "Sınıq körpü" gömrük-keçid məntəqəsinin durumu ilə başladı.**

- Gürcüstanda hakimiyyət dəyişikliyi Borçalı əhalisinin durumuna yaxşı mənada heç bir yenilik gətirmir. Hakimiyyətə gələn komandalar seçkiqabağı vədlərini unudurlar. İndi əhalinin əsas problemi işsizlikdir. Borçalı aqrar bölgədir, insanlar kənd təsərrüfatı ilə məşğuldur. 2005-ci ildə kütləvi özəlləşdirmə zamanı torpaqların xeyli hissəsi türk olmayan əhaliyə verildi. Torpağı olanın becərdiyini satmağa bazarı yoxdur. Bir tərəf Ermənistandır - biz gedə bilmirik, Rusiya ilə viza sistemi var - mümkün deyil, daxili bazarda alıcılıq qabiliyyəti aşağıdır. Qalır bircə Azərbaycan. Azərbaycanda da tələbat yüksəkdir, ancaq monopoliya bazara girməyə imkan vermir. 1 tonu 200 dollar olan mandarini sərhəddən keçirmək üçün 700 dollar istəyirlər.

***- Bu, rəsmi rüsumdur?***

- Əlbəttə, yox - açıq rüşvətdir. 4-5 sutka insanlar orda qalıb əziyyət çəkəndən sonra tələb edilən rüşvəti tapıb verməyə məcbur olurlar. Rüşvətsiz sərhəddən heç 10 kilo meyvə keçirmək mümkün deyil. Son aylarda "Sınıq körpü" sərhəd məntəqəsində Borçalı camaatının başına açılan oyunlar, yəqin, dünyanın heç bir sərhədində baş vermir. Sərhəddə milləti bilərəkdən təhqir edirlər, alçaldırlar. 2 ay qabaqdan sərhəddə dəmir barmaqlıqlar tikilib. O barmaqlıqların arxasına böyük bir qıfıl da asıblar. Çox ölkələrdə olmuşam, ancaq heç yerdə belə biabırçı durum görünməyib. Hətta pasport qeydiyyatından keçəndən sonra da insanların üst-başı, şəxsi əşyaları alçaldıcı şəkildə yoxlanır. Bəs keçiddə quraşdırılan o bahalı avadanlıqlar nə üçün alınıb? Qadınların əlindən çantalar alınır. Kimi Bakıda uşağına, tələbəsinə həyətdən bir toyuq aparır, bir balaca pendir aparır, kimi meyvə aparır, hamısını camaatın əlindən alırlar. Azərbaycan dövləti yaşlı, kasıb qadınların 1-2 yolunmuş toyuğunamı möhtacdı? Bunun üçün nə bir sənəd var, nə bir əsas. Sənəd tələb edəndə sərhədçilər elə çığır-bağır salır, oğru doğru olur. Durum o həddə çatdı ki, camaat bir neçə dəfə Azərbaycanın Gürcüstandakı səfirliyi qarşısında piket keçirmək istədi. Bu, Azərbaycana yaraşan durumdurmu? Gürcüstan Avropa Şurasına üzv olandan sonra 8-10 gün ərzində "Soydaş haqqında" qanun qəbul edib. O qanuna əsasən dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq gürcülər Gürcüstan ərazisinə maneəsiz gələ, ürəyi istədiyi qədər qala bilər, istədiyi zaman da gedə bilər. Sərhəddə hər dəfə qanunsuzluq görəndə istər-istəməz bu fakt yada düşür. O kasıb, balaca Gürcüstanın soydaşına verdiyi qiymət, bu da regionun ən inkişaf etmiş, varlı dövləti Azərbaycanın.



# "Gürcüstan sərhədindəki özbaşınalıq Azərbaycan dövlətçiliyinə vurulan zərbədir"

## "Qeyrət" Cəmiyyətinin sədri Əlibala Əsgərov:

## "Azərbaycana gələndə bizi dəmir barmaqlıqlar qarşılayır"

**"Sınıq körpü" sərhəd məntəqəsində Borçalı camaatının başına açılan oyunlar, yəqin, dünyanın heç bir sərhədində baş vermir"**

***- Borçalı əhalisinin öz avtomobilləri ilə Azərbaycana keçməsi də çətinləşdirilib. Siz bu durumla bağlı Azərbaycandakı rəsmi qurumlara müraciət etmisinizmi?***

- Bəli. Elə bu gün görüşlərimiz olub. Avtomobillərin Azərbaycana gətirilməsi qaydalarını müəyyən edən strukturların rəsmiləri ilə görüşmüşük. Bizə bildiriblər ki, yeni qaydaların Azərbaycana müvəqqəti gələn insanlara aidiyyatı yoxdur. Ancaq sərhəddə böyük bir özbaşınalıq yaşanır. Azərbaycan Gömrük Komitəsinin sədri Aydın Əliyev açıqlama verib ki, Gürcüstandan Azərbaycana köhnə avtomobillər gətirilib ehtiyat hissələri kimi satılır, ona görə də Gürcüstan vətəndaşları öz avtomobilləri ilə sərhədi keçsə, ya gömrük rüsumu qədər depozit qoymalı, ya da Azərbaycan vətəndaşlarından kimsə ona zamin dayanmalıdır. Aydın Əliyev özü də Borçalı kökənlidir, çox yaxşı bilir ki, bizim camaatın xeylisinin Azərbaycanda ailə üzvləri var, gedən-gələn çoxdur. Bundan başqa, xeyir var, şər var, indi hər dəfə gömrüyü keçəndə kasıb camaat rüsum dəyərində depozit qoymalı, ya da Azərbaycandan kimisə sərhədə çağırmalıdır? Bu, absurddur? 3 gün öncə bizi Bakıya gətirən maşını sərhəddə saxladılar, dedilər 9 min manat depozit qoyun, sonra keçin. Biz də maşını sərhəddə qoyduq, piyada keçdik. Bu nə münasibətdir? Azərbaycana keçirilən köhnə maşınlar satılırsa, onların sahibləri geri qayıdanda niyə qadınların boxçasında pendir, toyuq, meyvə axtaran gömrükçülər onları saxlamır? Gömrükçülərin şəxsi maraqlarına görə belə bir durum yaranıbsa, onun cəzasını əhali niyə çəkməlidir? Anladıq, Avro-4 standartlarına görə 2005-ci ilin maşınlarının Azərbaycana gətirilməsi qadağandır, axı bunun 2002-ci ildə aldığı maşınla qohumunun toyuna, yasına gələn Borçalı camaatına nə dəxli ola bilər? 3 min köhnə maşına görə yarım milyon insan cəzalanarmı? Bu nə özbaşınalıq, nə biabırçılıqdır? Bizimlə bərabər Rusiyadan 2 gənc də gəlirdi. Gürcüstan sərhədini keçdik, Azərbaycanda dəmir barmaqlıqlara çatanda biri o birisinə dedi ki, hə, bax, bura Azərbaycandır? Bu söz mənə o qədər pis təsir elədi ki... Millət vətəninə gəlir, ilk qarşılaşdığı dəmir barmaqlıq, hasar olur. 3-4 gün qabaq Marneulidən olan bir neçə nəfəri sərhəddə ağzı açıq itlərlə yoxlayıblar. Təsəvvür edirsinizmi? Kim qarantiya verir ki, ağzı açıq itlər insanı qapmayacaq. Dünyanın harasında insanı itlə yoxlayırlar. İtlərə əşyaları yoxlamaq üçün təlim keçilmirmi? Bu açıq-aşkar insanların ləyaqətini alçaltmaq, istədiklərini onlardan qopartmaq üçündür. Niyə Azərbaycan belə primitiv və insanlıqdan kənar yadda qalmalıdır? İstəsələr də, istəməsələr də Borçalıda yaşayan 500 min insan Azərbaycanın da bir parçasıdır. Nə olsun ki, biz başqa dövlətin vətəndaşıyıq? Azərbaycan dövlətinin işinəyarayanda biz soydaş oluruq, işinə yaramayanda əcnəbi. Azərbaycan məmurları papaqlarını qarşılarına qoyub bu haqda yaxşı-yaxşı düşünməlidirlər. Milləti millətə qarşı qaldırmasınlar.



**"Hansı Azərbaycan şirkətinin qapısını açırsan, Gürcüstan bayrağı, gürcü xaçı görür, gürcü dili eşidirsən"**

Sərhəddəki bu özbaşınalıq Azərbaycan dövlətçiliyinə və rəhbərliyinə vurulan zərbədir. Biz Borçalı camaatının güvənc yeri Azərbaycandır. Dünyada başqa bir Azərbaycan yoxdur. Onlar istəsə də biz Azərbaycana gələcəyik, istəməsələr də. Çünki bu dövlət dünyadakı bütün azərbaycanlılarındı, indi əlində səlahiyyət olan 3-5 məmurun yox. Onların özbaşınalığına görə biz gürcülərin içərisində ayağa qalxıb etiraz aksiyası keçirməyi özümüzə də ayıb bilirik, Azərbaycan dövlətinə də.

***- Əlibala bəy, yeni məmurlarla Borçalı əhalisinin münasibətləri necədir? Məmurlar içərisində yerli əhali də varmı?***

- Bütün Kvemo-Kartlidə aşağı-yuxarı 110-120 məmur var. Onların da yalnız 10-15-i bizdəndi. Qalanı gürcülərdir. Həmin 10-15 nəfər də çox kiçik, əhəmiyyətsiz vəzifələrdə çalışırlar. Gürcüstan rəsmiləri bu haqda danışanda deyirlər ki, guya kadr yoxdur. Ancaq mən bu fikirlə razı deyiləm. 35 min nəfərimiz birinci sinifdən sona qədər gürcü dilində təhsil alıb, aralarında ali təhsil alan yüzlərlə insan var. Bundan başqa, SOCAR-ın maliyyə dəstəyi ilə ali təhsil alan gənclərimiz var. Yəni onlardan çox demirəm, 40-50 nəfəri rəsmi qurumlarda işə götürülə bilməzdimi? Ümumiyyətlə Gürcüstanda bütün hakimiyyətlərin dönəmində bizə qarşı ayrı-seçkilik olub. Saakaşvili ilk seçilən vaxt Azərbaycan televiziyasına elə bir müsahibə vermişdi ki, dedik, daha cənnətdə yaşayacağıq. Ancaq tam əksi oldu. Avropa standartları adı ilə orta və kiçik sahibkarlığı məhv elədilər, 10-20 min larilik satılıq malı olan insanları balaca bir səhv üzündən 30-40 min lari həcmində cərimə elədilər. Özü də, bu cəzalar Kvemo -Kartlidə daha ağır oldu. Eyni qanun pozuntusu üçün digər ərazilərdə, məsələn, Orta Kartli bölgəsində yaşayan vətəndaşlara 600 lari idisə, bizim Kvemo-Kartlidə 6-20 min arası kəsilirdi. Tələb eləyəndə də deyirdilər, bu bölgə iqtisadi cəhətdən bir az inkişaf eləyib. Elə insanlar oldu, cərimələrə görə, gecə ilə qapısını bağlayıb ölkədən çıxmağa məcbur oldu. Saakaşvili rejimi zamanı Gürcüstan büdcəsinin 30-35 faizi vergilərdən formalaşırdı. Bilirsizmi nə qədər insanların banklara borcu var? İnsanlar illərdir bank faizlərindən qurtula bilmir. İvanişvili hakimiyyətə gələndə də çox böyük vədlərlə gəmi?di. Ancaq o da heç birini yerinə yetirmədi və indi onun tam nəzarətində olan yeni komanda da yerinə yetirmir.

***- Siz işsizlik problemindən danışdınız. Gürcüstanda Azərbaycanın xeyli müəssisəsi var. Həmin qurumlarda Borçalı əhalisinə iş verilmirmi?***

- Bizimkilər ancaq SOCAR-da benzin şlankı tutur. Bütün önəmli vəzifələrdə gürcülərdir. Hansı Azərbaycan şirkətinin qapısını açırsan, Gürcüstan bayrağı, gürcü xaçı görür, gürcü dili eşidirsən. Ona görə də təhsilli kadrlarımız ya bazarlarda alver edir, bir az imkanı olan da çıxıb xaricə köçür.

***- Dini durumla bağlı problemlər nə yerdədir?***

- Çox təəssüf, heç bir problem həll edilməyib. Əksinə, dini məsələlərə görə əhali arasında parçalanma daha da dərinləşib. Gənclərin bir hissəsi İrana, bir hissəsi Türkiyəyə meyllənib. Gürcüstan bölgədə vəhhabiliyin təbliğinə rəsmi icazə verən yeganə dövlətdir. Özü də onlara dini dəyərlərə xüsusi saygısı ilə seçilən şiə əhalinin yaşadığı yerdə ofis ayırıblar. Gürcülər hələ fərqində deyillər, ancaq bu açıq-aşkar münaqişə ocağı yetişdirməkdir. 3 il, 5 il sonra bu qruplar arasında kim bilir hansı miqyasda qarşıdurmalar baş verə bilər. Təbii, bütün bunlar Gürcüstanın daxili sabitliyi üçün potensial problemlərdir. Gürcülər dini məsələlərlə bağlı Borçalı camaatına xüsusi basqı göstərir. Bütün ətraf yüksəkliklə xaç vurulub. Hətta qəbiristanlıqlarımıza da xaç qoyulub. Əhalinin etirazlarına min bir bəhanə ilə məhəl qoymurlar. Qafqaz Müsəlmanları İdarəsini də faktiki bölgədən sıxışdırıb çıxarıblar. Bəzən deyirlər ki, Borçalı camaatının Gürcüstan cəmiyyətinə inteqrasiyası sürətlə getmir. Biz min illərdir qonşu olaraq yaşamışıq. Xeyirdə, şərdə, döyüşdə bir yerdə olmuşuq. Ancaq dinimiz, adətimiz fərqlidir. Biz bir-birimizin içərisində tamamilə əriyə bilmərik. Bu gün də xalqların münasibəti çox yaxşıdır. Dədə-babadan necə dostluq, qonşuluq eləmişiksə, bu gün də durum eynidir. Problem hökumətlərin münasibətlərindədir. Biz çox arzu edirik ki, Azərbaycan hökuməti öz iqtisadi maraqlarına görə Bakı ilə yaxınlaşmaq kursunu hər zaman qoruyub saxlamağa çalışan rəsmi Tiflislə danışıqlarda bizim problemlərimizi də gündəmdə saxlasın. Çünki bizim uman yerimiz ancaq Azərbaycandır.

❑ **Aygün MURADXANLI**

# "Çay evləri" müştəri cəlb etməkçün azyaşlı qızlardan istifadə edir

## "Burda çalışmaq üçün mini ətək geyinməli və müştərinin üzünə gülməlisən"

**Bir zamanlar çayxanalara kişilər yığışıb vaxt keçirir, nərd oynayardılar. Bu tip çayxanalarda yalnız yaxşı pürrəngi çay və nərd taxtası verilərdi. Ancaq indi onların yerini müasir çay evləri əvəz edib. Təəssüf ki, bir-biri ilə rəqabətə girən və sayları gün keçdikcə artan bu çay evləri müştəri cəlb etmək üçün müxtəlif yollara əl atırlar. Bu yollardan biri də çay evlərinə qız ofisiantlar seçməklə başlayır.**

Bu tip çay evlərinə müştəri cəlb etmək üçün ən önəmli məsələ çayın keyfiyyəti və ucuzluğu yox, qızların daha qısa geyinməsidir. Belə çay evlərindən bir neçəsinə "Memar Əcəmi" metrostansiyası yaxınlığında rast gəldik. Buradakı çay evində qızlar müştəri cəlb etmək üçün çöldə dayanır və müştəriləri çayxanaya dəvət edirdi. Biz də əvvəlcə üz-gözünə həddən artıq kosmetika vurmuş, yaşı isə 17-dən çox olmayan bir qıza yaxınlaşıb onu sorğu-suala tutduq. Özünü 17 yaşlı Lalə kimi təqdim edən qızdan soyuq havada mini ətəklə çöldə dayanaraq müştəri çağırmağın onun üçün çətin olub-olmadığını soruşduq. Gününə 6 manat aldığını deyən Lalənin suallarımızdan şübhələndiyini görüb, ofisiant işləmək üçün şərtlərlə maraqlandığımızı bildirdik. Qız işin səhər saat 10-da başlayıb axşam saat 11-ə qədər çəkdiyini dedi. Ətraflı məlumatı çay evinin müdirindən almağımızı istəyən xanım "burda çalışmaq üçün mini ətək geyinməli və müştərinin üzünə gülməlisən" dedi: "Sifətini turşutdunsa, müştəri gəlməyəcək. Burada müştərilər çaya yox, bizə görə gəlir. Əlbəttə, söz atanlar da olur. Amma biz digər çay evləri kimi işləmirik. Yəni digər çay evlərində müştəri gəlib ofisianta deyir ki, gününə nə qədər alırsansa onun 3 qatını verirəm və bir gününü mənimlə keçir. Bizim çay evində elə şeylər yoxdur. Əks təqdirdə mən heç burda işləmərəm. Amma bu ətrafda belə çayxanalar var".

Çay evlərinə müştəri cəlb etməyin daha bir yolu isə "wi-fi" quraşdırılması və müxtəlif meyvə ətirli sulu qəlyanların təklif edilməsidir. Bu cür çay evlərindən birinə də metronun "Nəriman Nərimanov" stansiyası yaxınlığında gəldik. Çay evinin adı elə "Çay evi" idi. İçəri daxil olduq. Burada pərdələrlə ayrılmış kabinetlər vardı ki, əksəriyyət gənclər qəlyan çəkirdi. Ofisiantdan çay dəsgahında nələr olduğu və qiyməti ilə maraqlandıq. Ofisiant təklif etdikləri çay dəsgahında müxtəlif növ şirniyyatlar, quru meyvələr, mürəbbə və şokoladlar verildiyini dedi. Qiymət isə 15-20 manat arasındadır: "Bura gənclər çox vaxt qəlyan çəkmək məqsədi ilə gəlirlər. Qəlyanın necə hazırlanması sifarişçinin öz istəyindən asılıdır. Elə adamlar var kömürdə hazırlanmış qəlyan, elələri də var meyvəli qəlyan istəyir. Müştərilər daha çox alma ilə qreyfrut meyvəsində hazırlanan qəlyanı xoşlayırlar. Almadan hazırlanan qəlyanların qiyməti 7-25 manat arasındadır. Digər meyvəli qəlyanların qiymətləri isə belədir: Ananas 15, qreyfut 20, nar 30, qarpız 50 manat. Tütünlərdən isə ən çox tələb olunan moruq, yemiş, vanil, saqqız, qarpız, jasmin və nanədir. Meyvələrdən daha çox almalı və qreyfutdan hazırlanan qəlyana üstünlük verirlər".

Qeyd edək ki, sulu qəlyan çəkilən zaman başlıq hissə dəyişilməlidir. Ancaq çox vaxt bu kimi gigiyenik qaydalara əməl edilmir. Bu isə müxtəlif xəstəliklərə səbəb olur. Azərbaycanda sulu qəlyanın istifadəsi qadağan oluna bilər. Milli Məclisin Sosial siyasət komitəsinin üzvü Musa Quliyev bir müddət əvvəl bildirmişdi ki, parlamentin yaz sessiyası zamanı bu məsələni gündəmə gətirəcək: "Çox təəssüf ki, son vaxtlar Azərbaycanda, xüsusən də Bakıda sulu qəlyanın istifadəsi geniş yayılıb və gənclərin çoxu ona meyl edirlər. Amma onun çox böyük mənfi təsirləri var. Həm insanın orqanizmini, həm ətrafdakıları zəhərləyir. Eyni zamanda, gigenik qaydalara fikir verilmədiyi halda ağız vasitəsilə infeksiyanın bir şəxsdən digərinə ötürülməsi qorxusu var. Bir sözlə, sulu qəlyan istənilər infeksion xəstəliyin yoluxmasına gətirib çıxarır". Musa Quliyevin sözlərinə görə, sulu qəlyanın doğurduğu ən böyük təhlükədən biri də odur ki, ondan istifadə asılılıq, narkomaniyaya meyllilik yaranır: "Bununla bağlı məsələ qaldıracağam ki, Azərbaycanda sulu qəlyanın istifadəsi qadağan olunsun. Bəziləri deyirlər ki, guya bu faydalı otlardan hazırlanır, amma elə deyil".

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**










## Zaqatalada dəhşətli qəza: ikisi qardaş olmaqla 3 nəfər öldü

**Zaqatalada baş verən ağır yol qəzasında ikisi qardaş olmaqla 3 nəfər ölüb, 2 nəfər isə ağır xəsarət alıb. Məlumata görə, 3 nəfərin ölümü, 2 nəfərin isə ağır yaralanması ilə nəticələnən ağır yol qəzası fevral ayının 7-i gecə saat 23:30 radələrində Yevlax-Zaqatala-Gürcüstan sərhəd magistral yolunun Zaqatala rayonu Yuxarı Tala kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

1990-cı il təvəllüdlü, Zaqatala rayonu Yuxarı Tala kənd sakini İlkin Ömər oğlu Ömərov idarə etdiyi "Mercedes" markalı, 10 TT 576 dövlət nömrə nişanlı minik avtomobillə Zaqatala şəhəri istiqamətində hərəkətdə olarkən idarəetməni itirməsi səbəbindən maşını yolun sağ kənarındakı ağaca çırpılıb. Daha sonra avtomobil yolun kənarına aşıb. Ağır qəza nəticəsində avtomobildə olan sərnişinlərdən 3 nəfər, rayonun Yuxarı Tala kənd sakinləri - 1993-cü il təvəllüdlü Şamil Məcid oğlu Poladov, 1994-cü il təvəllüdlü Camal İsa oğlu Bağmanov və Camal Bağmanovun qardaşı 1995-ci il təvəllüdlü Emin İsa oğlu Bağmanov aldıqları ağır bədən xəsarətlərindən hadisə yerində ölüblər.

Sürücü İlkin Ömərov və avtomobildə olan daha bir sərnişin 1993-cü il təvəllüdlü, Zaqatala şəhər sakini Fərid Ömər oğlu Səfərov aldıqları müxtəlif dərəcəli bədən xəsarətləri ilə Zaqatala Rayon Mərkəzi Xəstəxanasına (RMX) çatdırılıblar. Faktla bağlı araşdırma aparılır.


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 29 (6057) 9 fevral 2015



# Onlar da anadır, Lamiyə də...

## Biri 70 yaşında ana olur, o biri 69 dəfə; 6 və daha çox uşaq sahibi olan analar digərlərindən daha çox yaşayır...

**Ötən bir həftəni yenə də analıq mövzusu ilə başa vurduq. Məhkum Lamiyə Quliyevanın analığı hələ də dartışma olaraq davam etdi. Necə ana olub, harda olub, indi uşağına necə baxır?**

**Üstəgəl, Lamiyənin anasının verdiyi müsahibədə də onunla bağlı dediyi fikirlər diqqət çəkir: "O, övladının olduğuna görə çox sevinir. Uşaq Lamiyəyə həyat verir. O deyir ki, mama, bu uşaq ömürlük mənim yanımda olacaq, heç vaxt məni tərk eləməyəcək". Kimliyindən, keçmişindən, törətdiyi əməldən asılı olmayaraq, hər bir qadının ana olmaq haqqı var. Və bizim analıq institutu ilə bağlı bilmədiyimiz o qədər gerçəklər var ki. Onların bəzilərini yada salaq.**

### Uşaq orda doğulsaydı...

Öncə analar üçün ən ideal ölkə barədə. "Save the Children" ("Uşaqların Xilası") təşkilatı 178 ölkə üzrə araşdırma apararaq, dünyanın analar və uşaqlar üçün ən yaxşı ölkəsini seçib. Araşdırmanın nəticəsinə görə, Finlandiya yenidən dünyanın analar və uşaqlar üçün ən yaxşı ölkəsi olub.

Araşdırma ana sağlamlığı, uşaqlar arasında ölüm riski, təhsil səviyyəsi, ölkənin gəlir səviyyəsi və qadının siyasi statusu olmaqla 5 kateqoriya əsas götürülüb.

Növbəti yerləri isə Norveç, İsveçrə, İslandiya, Hollandiya və Danimarka tutub.

### Dünyada ana ölümləri azalıb, amma...

1990-cı ildən dünyada ana ölümləri 45 % azalıb. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının iki yeni hesabatında deyilir. Ekspertlər qeyd edir ki, ötən il hamiləlik və doğuş zamanı 289 min qadın ölüb. 1990-cı ildə isə müvafiq göstərici 520 min olub. Mütəxəssislərin rəyinə görə, ana ölümlərinin 25%-i kökəlmə, diabet, malyariya, yaxud da QİÇS-lə əlaqəli olub. Hesabatda bildirilir ki, ana ölümlərinin ən yüksək olduğu 11 ölkə - Butan, Kamboca, Kabo-Verde, Ekvatorial Qvineya, Laos Xalq Demokratik Respublikası, Maldiv adaları, Nepal, Ruanda, Rumıniya və Timor-Leşti bu tendensiya ilə mübarizədə uğur əldə ediblər. Belə ki, bu ölkələrdə ana ölümlərinin səviyyəsini 75 % azaltmaq mümkün olub. Lakin bu müsbət tendensiya bir çox Afrika ölkəsindən (Saxara səhralığından cənubda) yan keçib. Sənəddə o da qeyd olunur ki, hər il 15 milyon qız (15-19 yaş arası) ana olur. Onların əksəriyyəti cinsi əlaqəyə məcbur edildiyinə görə hamilə qalır.

### Niyə qadın ana olandan sonra intellektual səviyyəsi artır?

ABŞ-ın Stenford Universitetinin alimlərinin fikrincə, qadın ana olanda onun intellektual səviyyəsi (İQ) artır.

Araşdırmanın rəhbəri Kreyq Kinslinin dediyinə görə, bunun səbəbi təkamüldür. "Qadın ana olandan sonra həll etməsi vacib bir sıra məsələlərlə qarşılaşır. Hamiləlik zamanı qadın bir qədər dağınıq fikirli, unutqan olur. Lakin bu, hamiləlik dövründə beyindəki dəyişikliklərlə bağlıdır. Hamilə qadın ana olandan sonra isə beyin daha effektiv, daha sürətlə işləməyə başlayır", - Kinsli deyib.

### Çünki oldun dəyirmançı...

Uşaqlarınız olduğunda bəzi vərdişləriniz dəyişər. Onlara nümunə ola bilmək, onlara daha yaxşı baxa bilmək üçün əvvəlcə özünüzə diqqət yetirməyə başlarsınız.

1. Hamiləykən daha sağlam qidalanmağa başlayarsınız. Yeməklərin ancaq dadına deyil, qidalandırıcı tərəfinə də əhəmiyyət verərsiniz. Bir qidanı qəbul etmədən əvvəl iki dəfə düşünərsiniz. Körpənizi əmizdirərkən də yedikləriniz ana südünə keçəcəyi üçün sağlam qidaları seçərsiniz.

2. Körpəniz doğulduqdan sonra şikayət etdiyiniz kilolarınızı aradan götürmək üçün idmanla məşğul olmağa başlayarsınız. Bəlkə də indiyə qədər həmişə idmana laqeyd yanaşmısınız. Kilo vermək üçün idmanla məşğul olarkən əzələləriniz və immunitet sisteminiz də güclənməyə başlayar. Ürək sağlamlığınız yaxşı bir yuxu üçün də faydalı olar.

3. Uşaqlarınıza yaxşı nümunə olmaq üçün qidalanma vərdişlərinizi dəyişdirərsiniz. Məsələn: uşaqlarınız sizi sağlam qidalar yeyərkən görsə sizdən nümunə götürəcək.

4. Açıq havaya çıxmaq uşaqlar üçün həm təmiz hava, həm də enerjilərini istifadə etmək üçün lazımlıdır. Eyni zamanda sizin üçün də bir fürsətdir. Ailə tərəfindən edilən qaçış, velosiped minmə ya da onlarla birlikdə oyun oynamaq kimi fəaliyyətlər sizin özünüzü daha yaxşı hiss etmənizi təmin edər.

5. Uşaqlarınızı ən yaxşı formada tərbiyə edə bilmək üçün enerjiyə, sağlamlığa və gücə sahib olmalısınız. Buna görə uşaqlarınıza görə özünüzə əhəmiyyət verərsiniz.

### Ana olmaq üçün ideal yaş...

Türkiyənin evlilikmərkəzi.com saytı övlad sahibi olmaq üçün ideal yaş sorğusunu keçirib. Bu araşdırmada 2846 nəfər iştirak edib. Araşdırmanın nəticələrinə görə, kişilər erkən yaşda ata olmağın əleyhinədir. Qadınların çoxu ana olmaq üçün 25-30 yaş arasının ideal olduğuna inanır.

Fikir ayrılığı - övlad sahibi olmaq üçün 31-35 yaş arası kişilərin 47 faizi ata olmağı arzulayır, qadınların isə 23 faizi ana olmağa hazır olduğunu deyib. Fikir ayrılığı 25-30 yaş arası üçün də keçərlidir. Qadınların 52 faizi ana olmağa razı olarkən, kişilərin ancaq 25 faizi özünü ata olmağa hazır hiss edir.

Sosial rifah artdıqca uşaq sayı azalır - kişilər uşaq sahibi olmaq istədiyi zaman evlənmək istəyirlər və bu sahədə tələsmirlər. Qadınlar isə bioloji baxımdan karyeraların yüksəldiyi yaş həddində - 25-30 yaş arasında ana olmağa qərar verirlər. Buna görə də, deyə bilərik ki, sosial rifah artdıqca evlənmə yaşı və övlad sahibi olma yaşı artır. Uşaq sayı isə azalır.

### Uşağın çoxdursa, ömrün də uzun olacaq

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Araşdırma heç də 1-2 uşaqlı anaları əhatə etmir, söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni 6 uşaq sahibi bir ananın ömrü digər anaların ömründən daha çoxdur.

Avstraliyada aparılan araşdırmaya görə, 6 və ya da daha çox sayda uşağı olan qadınlar yüzdə 40% daha az ölüm riski daşıyır. Araşdırmanın rəhbəri olan Yeni Cənubi Uels Universiteti professoru Leon Simons bildirib ki, "qadınları 6-dan çox uşaq sahibi olun deyə təşviq etməsək də, görünən budur ki, çoxuşaqlı analar ən azı bir uşağı olan həmcinslərindən daha çox yaşayır".

ABŞ mətbuatında yer alan araşdırma isə 1988-ci ildən etibarən, 60 yaşdan böyük olan 1500 qadın və 1200 kişini əhatə edib. Gələnən nəticəyə görə, uşağı olmayan qadınlara nisbətlə iki uşağı olan qadınlar yüzdə 17, üç uşağı olan qadınlar yüzdə 20 daha az ölüm riski daşıyır. Uşaq sayı artdıqca anaların ölüm riski azalmağa davam edir. Bu vəziyyətin səbəbinin hələ tam olaraq açıqlanmadığını bildirən Simons, eyni tapıntılara başqa ölkələrdə də rast gəlindiyini bildirib.

### Qadınlar niyə ana olmaq istəmir?

Amma bəzi inkişaf etmiş ölkələrdə qadınlar ana olmaq fikrini yaxına belə buraxmır. Bu cür düşünənlərin sayı xüsusən İngiltərədə çoxluq təşkil edir. Belə fikirlər "child free" terminində əks olunurdu ki, bunun da tərcüməsi "uşaqdan azad" mənasını ifadə edir. Bu söz əsl qadın humanizminə yad olsa da, onun tərəfdarları cəmiyyətdə heç də az deyil.

Bəzi xanımlar gec ana olmaq istəyir, bəziləri isə, ümumiyyətlə, ana olmaq istəmir. Belələri hesab edir ki, onların uşaqları böyütmək üçün kifayət qədər səbirləri yoxdur. Uşağın çirkli paltarını yumaq, vaxtında yedizdirmək və onun səs-küyünə qulaq asmaq onların həyat prinsiplərinə daxil deyil. Cəmiyyətdə anaların tez-tez işlətdiyi cümlələr var ki, o da gənc qızları ana olmaqdan çəkindirir.

"Mən sənə bütün gəncliyimi sərf etmişəm, sən isə məni qiymətləndirə bilmirsən" və ya "uşaq yeni problemlər gətirir". Ana olmaq istəməyən qadınlar fikirləşirlər ki, bəlkə gələcəkdə mənim övladım cəmiyyətdə yaramayan bir insan oldu və ya uğursuz taleyi oldu. Gələcəkdə belə övlada görə əziyyət çəkmək və onun məsuliyyətini daşımaq istəmirlər. Bəzi qadınlar isə karyera qurmaq üçün ailə qurmaqdan və ana olmaqdan imtina edirlər.

Bəzi qadınlar isə ana olmaq istəməmələrinin bir sıra səbəblərini qeyd edirlər: maddi çətinlik, gəncliyi özünə həsr etmək arzusu, xarici görünüşünün dəyişilməsini istəməmək, hamiləlik və uşaq dünyaya gətirmək qorxusu.

Araşdırmalar göstərib ki, ABŞ-da 1982-ci ildə 2,4 % qadın ana olmaqdan imtina etmişdisə, bu rəqəm 1995-ci ildə 6,6%-ə çatıb. Hazırda faiz daha yüksəkdir. Toronto Universitetində işləyən Devid Fut bu qənaətə gəlib ki, cəmiyyətdə ali təhsilli qadınların sayı artdıqca ana olmaq istəyənlərin sayı azalır.

### Dünyanın 10 ən qəribə anası...

Uşaqları arasında ən çox yaş fərqi olan ana (41 il) 19 oktyabr 2004 tarixində Loyola Universiteti Tibb Mərkəzində dünyanın ən kiçik körpəsini gətirən Mahajabeen Sheik, körpəsinin adını Rumaisa Rəhman qoydu. Rumaisa Rəhman 25 santimetr uzunluğunda və 243 qram ağırlığında olub.

Dünyanın ən qısa anası olan 71 santimetr boyundakı Stacey Herald üçüncü körpəsinə hamilədir. Osteogenesis İmperfecta (həssas sümüklərə və az inkişaf etmiş ciyərlərə sahib olma) xəstəsi olan Heraldın doğuş etməsi çox təhlükəli sayılır.

Carole Horlock - 42 yaşında bir daşıyıcı ana. 13 ildə 12 körpə dünyaya gətirərək dünyanın ən bərəkətli daşıyıcı anası seçilib. ABC kanalındakı bir proqramda, "İlk dəfə ana olduğumda bunu bir dəfəliyinə etdiyimi düşünmüşdüm. Bunun daha irəlisini düşünmürdüm. Lakin bu iş çox xoşuma gəldi. İlk körpəni dünyaya gətirmədən yenidən etmək istədim" deyib.

70 yaşındakı Omkari Panwarı dünyaya bir oğlan uşağı gətirmək üçün IVF müalicəsi görməyə başlayıb. Bu müalicə üçün, bütün mal-mülkünü satıb və kredit alıb. Amma nəticəsi istədikləri kimi olub. İki qızları və beş nəvəsi olan cütlüyün əkizləri dünyaya gəlib.

Tomas Beatie, qadın olaraq dünyaya gəlsə də, keçirdiyi əməliyyat və hormon müalicəsindən sonra bir kişi olaraq yaşamağa başlayıb. 34 yaşındakı Beatie, dünyanın ilk kişi anası olub.

Valentina Vassilyeva adlı kəndli ən çox doğan qadın rekordunu qırıb. O, dünyaya 69 uşaq gətirib. Bu uşaqlardan 67-si körpəlik dövründən sonra yaşaya bilib. Valentina Vassilyeva 16 cüt əkiz, 7 üçüz və 4 dördüzü dünyaya gətirib.

70 yaşında bir hindli qadın Rajo Nəhəngi Lohan noyabr 2008-ci ildə ilk uşağını dünyaya gətirib. O, bunun üçün 40 ildən çox gözlədiyini söyləyib.

Perudakı bir xəstəxanaya hindli bir qadın və qarnı şişmiş bir qız gəlib, həkimə qızının içindəki pis ruhların çıxarılmasını istəyib. Cərrah Geraldo Loza da, kiçik Lina Medinanın içində şiş olduğunu düşünüb. Kiçik Linanın qarnına ultrasəs ilə baxdığında 8 aylıq hamilə olduğunu görüb. Linanı Perunun paytaxtındakı bir xəstəxanaya aparıb mütəxəssislərə göstərib. Ayyarım sonra - 14 may 1939-cu ildə o, qeysəriyyə üsulu ilə 2.7 kiloqram ağırlığında oğlan dünyaya gətirib. Körpəyə həkimin adı verilib.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 29 (6057) 9 fevral 2015



# Günorta yuxusu sağlamlığı qoruyur

Kompüter proqramı hazırlayan Hubspot adlı şirkətin ofisində bir otaq yataqlarla doludur. Şirkət işçiləri bu otaqdan istədikləri qədər istifadə edə bilirlər. Hubspot şirkətinin rəhbərliyi gündüz yuxusunun işçilərə yaxşı təsir etdiyini deyirlər. İşçilərin 40%-i günorta yatmağa adət ediblər. Onlar günorta yuxusuna ehtiyacları olduğunu, bunun onlara yaxşı təsir etdiyini deyirlər. Kaliforniya Universitetinin professorları günorta qəhvəsinin və yuxusunun insana necə təsir etdiyini araşdırıblar. Nəticədə məlum olub ki, yuxu beyinə daha yaxşı təsir edir və yaddaşı gücləndirir. Mütəxəssislər günorta yuxusu üçün ən yaxşı vaxtın saat 14:00 ilə 16:00 arasında olduğunu deyirlər. Güc toplamaq üçün gec, yaradıcılığı gücləndirmək üçün isə daha tez yatmaq effektlidir. Avstraliyada aparılan araşdırmalar isə göstərib ki, gündüz 10 dəqiqə yatmaq gecədən qalan yuxusuzluğu əvəz edə bilir. 10 dəqiqəlik yuxu insanların özünü daha gümrah hiss etməsinə də kömək edir.

# 200 ildir çürüməyən rahib

Monqolustanın Songinokhairkhan əyalətində 200 il əvvəl ölən rahibin çürüməmiş cəsədi tapılıb. Buddist alimlər rahibin ölmədiyini, mediatasyada olduğunu və geri qayıdacağını deyirlər. Ölkə mediasından verilən məlumatlara görə, ötən həftə tapılan cəsəd üzərində aparılan araşdırmalar göstərir ki, buddist rahib "Lotus duruşu" adı verilən pozisiyada imiş. Həmin vaxt onun sol əli açıq imiş, sağ əlini isə keçmiş adətlərə görə "tukdam" deyilən xüsusi bir halda saxlayıbmış. Mükəmməl şəkildə qorunmuş qalıqlar mütəxəssislər tərəfindən araşdırılır. Mumiya üzərində araşdırma aparan alimlər onun rahib deyil, tibetli müəllim olduğunu düşünürlər.



# Balqabağın faydası

Balqabaq çox zəngin mineral tərkibə malikdir. Burada C, E, PP, K, B qrupu vitaminləri, mineral və mikroelementlər (dəmir, mis, kalium, ftor, sink, kalsium), fruktoza, pektin maddələri var. Belə zəngin tərkib balqabağı insanın müxtəlif orqan və sistemləri üçün çox faydalı edir. Balqabaq həzm sistemi üçün çox faydalıdır. Qara ciyər, öd üçün balqabaq xüsusilə faydalıdır - bu orqanları təmizləyir, fəaliyyətini yaxşılaşdırır. Balqabaq qara ciyər sirrozu və iltihabları zamanı müalicəvi vasitə kimi istifadə olunur. Balqabaq və balqabaq şirəsi sinir və ürək-damar sisteminə müsbət təsir edir, qan damarları təmizləyir və möhkəmləndirir, nevroz və yuxusuzluqla mübarizə edir. Balqabaq dəmirlə də olduqca zəngindir. Bu səbəbdən anemiyadan (qanazlığı) əziyyət çəkən insanlar bu tərəvəzi öz menyusuna mütləq daxil etməlidir. Balqabaq şirəsi öskürəklə mübarizə aparır, bronxları təmizləyir. Balqabağın tumları da çox faydalıdır. Bu tumlar sinklə zəngindir. Sink isə kişilərin cinsiyyət funksiyasına çox müsbət təsir edir - potensiyanı gücləndirir, spermatogenezə müsbət təsir edir. Müxtəlif dəri xəstəlikləri (psoriaz, ekzema), yanıqlar zamanı təzə balqabaq effektli müalicəvi vasitə kimi istifadə oluna bilər. Bunun üçün təzə balqabağın 1 tikəsini götürüb, qabığını soymaq, əzmək və zədələnmiş sahəyə qoymaq lazımdır. Balqabaq üz dərisinə də çox müsbət təsir edir, cavanlaşdırır, daha hamar və sağlam edir.





# Səddam Hüseynin kəndiri satılır

İraq prezidenti Səddam Hüseyn edam edilərkən istifadə edilən kəndir hərraca çıxarılıb. Hazırda bu kəndirin 7 milyon qiyməti var. 7 milyonu İraqın Milli Təhlükəsizlik müşaviri Mutaffak əl Rubayi təklif edib. Məhz əl Rubayi Səddamı edam yerinə aparıb. "The Daily Mail"in yazdığına görə, kəndirin alınması üstündə əməlli-başlı "müharibə" gedir. Auksionda 2 küveytli biznesmen, İsraildən olan varlı bir ailə və İran dini təşkilatının nümayəndəsi iştirak edir. Qeyd edək ki, Səddam Hüseyn 2003-cü ilin aprelində ABŞ ordusunun hücumları nəticəsində devrilib. Səddam Hüseyn 2006-cı ildə insanlığa qarşı cinayət törətməkdə təqsirli bilinərək həmin ilin 30 dekabrında edam edilib.




**QOÇ** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Bu gün qazanmaq ehtimalınız böyükdür.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Ulduzlar ziyarətə getməyi məsləhət görsə də, uzaq yola çıxmaq olmaz.

**XƏRÇƏNG** - Göy qübbəsi pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**ŞİR** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**QIZ** - Qarşılıqlı münasibətlərdə güzəştli mövqe seçin. Risk tələb edən işlərə isə girişməyin. Yaxşı olar ki, soyuq və spirtli içkilərdən, duzlu qidalardan mümkün qədər uzaq olasınız.

**TƏRƏZİ** - Səhhətinizlə bağlı nasazlığı nəzərə alıb hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Axşama yaxınsa qonaq getmək olar.

**ƏQRƏB** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək. Səfər də mümkündür.

**OXATAN** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

**OĞLAQ** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**SUTÖKƏN** - Həddindən ziyadə uğurlu təqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq səngiməyə başlayacaq. Hətta varlanmaq ehtimalınız da var.

**BALIQLAR** - Hiss olunur ki, sizi sevməyənlər artmaqdadır. Lakin ruh düşkünlüyünə mübtəla olmaqdansa, deyildiyi kimi olmadığınızı sübut etməlisiniz. Bu gün maraqlı görüşlərdə iştirakınız gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 1 dollarlıqlarını götürmədilər, sonra 500 dollar cərimələdilər



Amerikanın Texas ştatında yaşayan Timoti Andre Norris adlı kişi qəribə səbəbdən həbs edilib. Məlumatlara görə, Norris ev vergisini 600 ədəd 1 dollarla ödəmək istəyib. Vergiləri qəbul edən bank işçisi 1 dollarları götürməyib və " bu qarışıq pulları götürə bilmirəm, bunları bütövləşdirərək gətirin" deyib. Bank işçisinin bu hərəkətinə etiraz edən Norrisi sonda polislər həbs edib. 1 dollarlarla vergi ödəmək istəyən şəxs yenidən 500 dollar cəza ödəyərək azadlığa çıxıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300